MƏLAHƏT MÜRŞÜDLÜ

# ABDULLA ŞAİQ TALIBZADƏNİN PEDAQOJİ FƏALİYYƏTİ VƏ ONUN "NÜMUNƏ MƏKTƏBİ"NİN TƏLİMİN YENİ MƏZMUNDA QURULMASINDA ROLU

Məlahət Mürşüdlü

# ABDULLA ŞAİQ TALIBZADƏNİN PEDAQOJİ FƏALİYYƏTİ VƏ ONUN «NÜMUNƏ MƏKTƏBİ»NİN TƏLİMİN YENİ MƏZMUNDA QURULMASINDA ROLU

Azərbaycan Milli Kitabxanası

BAKI - "HEROQLİF" - 2017

**Elmi redaktor:** Əjdər Ağayev, professor

**Rəyçilər:** İramin İsayev, professor
Vidadi Bəşirov, dosent

Məlahət Cəfər qızı Mürşüdlü. Abdulla Şaiq Talıbzadənin Pedaqoji fəaliyyəti və onun «Nümunə məktəbi»nin təlimin yeni məzmunda qurulmasında rolu. Bakı, "Heroqlif", 2017, 144 səh.

Monoqrafiyada Abdulla Şaiqin həyat və yaradıcılığı geniş əhatə olunmaqla bərabər əsas tədqiqat obyektini 1918-26-ci illərdə mövcud olmuş «Şaiq «Nümunə məktəbi»nin yaradılması və fəaliyyəti təşkil edir. Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra fəaliyyətə başlamış məktəbin yaranması və bağlanması səbəbləri araşdırılmış, qarşıya çıxan çətinliklərin aradan qaldırılması üçün həyata keçirilən tədbirlər, hökümətin təhsil siyasəti arxiv materialları əsasında təhlil edilmiş, məktəbdə milli təhsil quruculuğunun istiqamətləri müəyyənləşdirilmiş, məktəbdə təlim-tərbiyə işinin təşkilində A.Şaiqin rolu və pedaqoji fəaliyyəti təsnifatlarla verilərək tam olaraq ümumiləşdirilmişdir.

**İSBN: 978-9952-445-23-9**

**© Məlahət Mürşüdlü**

# REDAKTORDAN

XX əsrin əvvəllərində baş vermiş 1905-ci il inqilabı Azərbaycan ictimai-siyası həyatında böyük bir canlanma əmələ gətirmişdi. Bu canlanma ölkənin bütün sahələrində olduğu kimi maarif sahəsində də hiss olunurdu. H. Zərdabi, M.T. Sidqi, M.Mahmudbəyov, F.Köçərli, R.Əfəndiyev, S.M.Qənizadə Ü.Hacıbəyli, F.Ağazadə və digərlərinin timsalında böyük maarifçilik hərəkatı meydana gəldi. Xalqın savadsızlığı, ana dilində məktəblərin, proqram və dərsliklərin olmaması dövrün maarifçilərini düşündürən başlıca məsələlər idi. Həmin illərdə Tiflisdən Bakıya gələn gənc müəllim Abdulla Talıbzadə də bu maarifçilərin sırasına qoşularaq ədəbi-pedaqoji fikir tariximizdə əvəzsiz xidmətlər göstərmişdi. Bu monoqrafiyada A.Şaiqin həyatı, bədii yaradıcılığı verilməklə bərabər əsas diqqət onun pedaqoji fəaliyyətinə yönəldilmişdi. Bildiyimiz kimi A.Talıbzadənin pedaqoji fəaliyyəti bədii yaradıçılığı ilə müqayisədə çox az tədqiq olunmuşdu. Müəllif A.Şaiqin pedaqoji fəaliyyətini üç mərhələyə bölərək hər bölmə üzrə araşdırma, təhlil aparmış və ümumiləşmələr etmişdi. A.Şaiqin ikinci mərhələni təşkil edən 1918-20-ci illəri arasındakı pedaqoji fəaliyyəti arxiv materialları əsasında tam öyrənilmiş, indiyədək pedaqoji aləmə qaranlıq qalan, bəzi tədqiqatçıların əhatə etmədikləri məsələlərə aydınlıq gətirilmişdi. Bu mərhələdə milli pedaqoji fikrin formalaşmasında və inkişafında mühüm rol oynamış Azərbaycan Demokratik Cümhuriyyəti dövründə yaranmış" Şaiq "Nümunə məktəbi"nin" fəaliyyəti, rastlaşdığı problemlər və onun həlli yolları tarixi faktlarla verilmişdi. Çatışmayan dərsliklərin Türkiyədən gətirilməsi, eyni zamanda bir çox fənn müəllimlərinin də Türkiyədən dəvət edilməsi bu faktlar sırasına daxildir. Məktəbin tədris planları cədvəllərlə göstərilmiş, müəllimlərin həftəlik dərs yükü, məktəbin ilk məzunlarından olmuş mərhum akademuk Məhəmmədəmin Salehlinin xatirələri əsasında dərs cədvəlinin müqayisəli təhlili

aparılmışdı. Müəllim hazırlığı A.Şaiqi düşündürən məsələlərdən olmuşdu. Öz təcrübəsini daima gənc həmkarları ilə bölüşən Şaiq eyni zamanda proqram və dərsliklər hazırlamışdı. Klassiklərimizin milli və bəşəri səciyyə daşıyan fikirlərinin daşıyıcısı olan A.Şaiq dərsliklərdə tarixilik, varislik prinsiplərinə əsaslanaraq gənc nəslə əxlaqi-mənəvi dəyərlər aşılayan bir məzmun ortaya qoymuşdu. Məktəbdə məhz bu məzmunda təlimin aparılması, milli qürur və düşüncəyə malik müəllimlərin çalışması sözsüz ki, sovet ideologiyasına zidd idi. Rejim öz ideologiyasına uyğun nəsil yetişdirməli idi. 1926-ci il 16 iyunda məktəbin fəaliyyətinə son qoyulması yenidənqurma adı ilə əlaqələndirilsə də əsil səbəb müəllifin qeyd etdiyi kimi yuxarıda göstərilənlər idi. Əsərdə müasir mərhələdə orta məktəblərdə təlim-tərbiyə işinin təşkilində, idarəetmədə, təlimin humanitarlaşmasında, tətbiq edilən metodlarda demokratik və humanist yanaşmalardan istifadə etmək baxımından "Nümunə məktəbi"nin təcrübəsi örnək olaraq verilmişdi. Müəllif daha sonra Abdulla Şaiqin ideyalarını ümumiləşdirərək təlim-tərbiyə işini günün tələbləri səviyyəsində qurmaq üçün ailə və məktəbin əməkdaşlığını, müəllim hazırlığını və özünütəhsilini elmi-pedaqoji əsas kimi göstərilməsini təklif etmişdi. Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti vardır. Əsər XX əsr Azərbaycan ədəbi-pedaqoji fikrinin görkəmli şəxsiyyətlərindən biri olan Abdulla Şaiqin pedaqoji irsinin tam öyrənilməsi baxımından dəyərlidir.



***BU KİTABI AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN 100 İLLİYİNƏ HƏSR EDİRƏM***

## MÜƏLLİFDƏN

Azərbaycan pedaqoji fikir və təhsil tarixi haqqında aparılmış diqqətəlayiq tədqiqatların, yazılmış əsərlərin sayı az deyildir. Bu əsərlərdə əsrlər boyu uzun və çətin inkişaf yolu keçmiş xalqımızın formalaşdırdığı pedaqoji irs öyrənilərək bir sistem halına salınmışdır. Pedaqoji ictimaiyyətə təqdim etdiyim bu əsərdə XX əsrin əvvəllərində köhnə tipli, şəriət məktəblərinə qarşı, yeni dərsliklərə və yeni təlim üsullarına malik məktəblər şəbəkəsinin yaradılması uğrunda mütərəqqi fikirli ziyalıların mübarizəsi əhatə olunmaqla əsas diqqət 1918-1926-cı illər arasında fəaliyyət göstərmiş ilk anadilli məktəb olan Şaiq "Nümunə məktəbi"in yaradılmasına və fəaliyyətinə yönəldilmişdir. 1997-ci ildə başladığım tədqiqatın məqsədi indiyədək yetərincə öyrənilməmiş «Şaiq «Nümunə məktəbi»ndə milli təhsil quruculuğunun istiqamətlərini müəyyənləşdirməkdən və onun həyata keçirilməsində A.Şaiqin fəaliyyətini ümumiləşdirməkdən, Azərbaycanda təhsilin yeni məzmunda qurulmasında məktəbin rolunu göstərməkdən ibarət olmuşdur. Fakt və hadisələrə dialektik yanaşma, prosesləri öyrənmə və ümumiləşdirmə məqsədi ilə tətbiq edilən metod və üsulların verdiyi imkanlar çərçivəsində "Nümunə məktəbi»nin yaranması və bağlanması səbəbləri araşdırılmış, A.Talıbzadənin pedaqoji fəaliyyətinin əhatə dairəsi müəyyənləşdirilmiş, məktəbdə təlim-tərbiyə işinin təşkilini və idarəetmə məsələləri öyrənilmiş və onun milli məktəb quruculuğundakı rolu müəyyən edilmişdir. Eyni zamanda arxiv materiallarının araşdırılması sovet dönəmində təhsil tariximizin 1918-1920-çi illər dövrünün tədqiqatçılar tərəfindən tarixi faktların təhrif edilməsini müəyyənləşdirmişdir. 1918-ci il dekabrın 13-də çağırılmış müəllimlər qurultayı, ilk anadilli məktəb olan

Şaiq "Nümunə məktəbi" nin yaradılması, bəşəri ideyaları özündə ehtiva edən milli məzmuna malik proqram və dərsliklərin hazırlanması, müəllimlərin rifah halının yaxşılaşdırılması və digər bu kimi həyata keçirilən tədbirlər bəzi tədqiqatçıların "Müsavat dövründə təhsilin, ana dilinin inkişafına fikir verilməmişdi" fikrinin əsassız olduğunu göstərmişdir. Halbuki yuxarıda qeyd etdiyimiz qurultayda maarif və məktəbin inkişafı, təlim-tərbiyənin keyfiyyətində mövcud nöqsanlardan xilas olmaq yolları müzakirə edilmiş, proqram bə dərsliklərin məzmun istiqamətləri müəyyənləşdirilmiş, dərslik, proqram və dərs planlarının hazırlanması məqsədi ilə komissiyalar təşkil edilmiş, təhsil sisteminin quruluşu, idarə olunması haqqında müzakirələr aparılmış, müvafiq qərarlar qəbul olunmuş, müəllim kadrları hazırlamaq üçün kurslar və universitet təşkil edilmişdir. A. Şaiqin anadilli məktəb yaratmaq arzusu da məhz Azərbaycan Xalq Cümhuriyyəti qurulduqdan sonra həyata keçmişdi. Məktəbdə tədris edilən fənlərin məzmunu milli irsin öyrənilməsi tələbləri baxımından hazırlanmış, təlim-tərbiyənin məzmununun, prinsip, metod və üsullarının şagirdlərin ictimai fəallıq tərbiyəsinə, yeni düşüncə tərzinin formalaşdırılmasına yönəldilmiş,təlimin məzmun və metodlarında inkişafetdirici funksiyalara üstünlük verilmiş, məktəb – valideyn, müəllim – şagird əməkdaşlığı demokratik və humanist prinsiplər əsasında qurulmuşdu. Səkkiz ilə yaxın fəaliyyət göstərmiş məktəb onu yaradanların şəxsində xalqımızın öz milli kimliyinə, dəyərlərinə sahib çıxdığının bariz sübutudur. Araşdırma da məhz bu amalın məktəbin bağlanmasına səbəb olduğu qənaətinə gəlmək imkanı vermişdir.

Ümid edirik ki, pedaqoji fikir tariximizin 1918-1926 –cı illərinə bir aydınlıq gətirmiş əsər oxucular tərəfindən rəğbətlə qarşılanacaqdır.



# GİRİŞ

Əlli ildən artıqdır ki, XX əsrin Azərbaycan ədəbi-pedaqoji mühitinin görkəmli simalarından biri olan Abdulla Şaiqin həyat və yaradıcılığı müxtəlif illərdə görkəmli tədqiqatçılarımız tərəfindən araşdırılmış, onun haqqında saysız-hesabsız elmi-bədii əsərlər, namizədlik dissertasiyaları, monoqrafiyalar, xatirələr, məqalələr yazılıb nəşr olunmuşdur. Bunların arasında A.Zamanovun (1956), Ə.Mirəhmədovun (1962), İ.İsmayılovun (1962), T.Xəlilovanın (1980), M.Ağamirovun (1983), Ə.Məmmədovun (1983) və başqalarının irihəcmli əsərləri, D.Mustafayevanın «A.Şaiqin pedaqoji fəaliyyəti və ədəbiyyatımızda tərbiyəyə dair fikirləri» (1946), T.Xəlilovanın «Abdulla Şaiq və rus ədəbiyyatı» (1976), E.Eminalıyevin ««Xatirələrim» əsəri kamil memuar kimi» (2002) namizədlik dissertasiyaları diqqətəlayiqdir. Adları çəkilən və digər mənbələrin tərəfimizdən öyrənilməsi göstərdi ki, cəmiyyətin mürəkkəb və çoxtərəfli sahələrində fəaliyyət göstərmiş bu böyük şəxsiyyətin ədəbi yaradıcılığı ilə müqayisədə pedaqoji fəaliyyəti tam öyrənilməmişdir. Hətta, S.Xəlilovun «1917-20-ci illərdə Azərbaycanda xalq maarifi» (1945), A.Qəhrəmanovanın «Azərbaycan Demokratik Respublikasında xalq maarifi» (1993) mövzusunda olan namizədlik dissertasiyalarında da görkəmli maarifçinin 1918-ci ildə yaratdığı ilk anadilli məktəbin fəaliyyətindən bəhs edilməmişdi. Ə.Məmmədovun və F.Rüstəmovun əsərlərində isə məktəbin yaradılması, fəaliyyəti haqqında tam olmayan məlumat xarakterli bilgi verilmişdir. Araşdırmalar bir daha təsdiq etdi ki, A.Şaiqin bu illərdəki pedaqoji fəaliyyəti forma, məzmun və keyfiyyət baxımından daha məhsuldar olmasına baxmayaraq yetərincə öyrənilməmişdir. Məhz bu faktlar Şaiqin pedaqoji fəaliyyətinin yenidən öyrənilməsini zəruri edir və tədqiqatın aktuallığı üçün zəmin yaradır. A.Talıbzadə xalqı maarifləndirmək, kütlələrin gözünü açmaq, onları zamanın tələbinə uyğun tərbiyə etmək və s. bu kimi so-

sial sifarişi dərindən dərk etmiş, özünün təbirincə desək: «vaxt itirmədən gecə-gündüz çalışmışdır». O, F.Köçərli, F.Ağazadə, M.Mahmudbəyov, Ü.Hacıbəyli və başqa maarif fədailərinin sırasında pillə-pillə adi «şəriət» və «tuzemniy yazık» (yerli dil) müəllimliyindən böyük alim, pedaqoq, tərbiyəçi zirvəsinə yüksəlmişdir. Bu zirvənin kökündə isə 1937-ci il dosyesində göstərildiyi kimi, «millətçi və pantürkist» Şaiqin şəxsiyyəti dururdu. A.Şaiqin pedaqoji fəaliyyətə başladığı dövr çox ziddiyyətli və mürəkkəb idi. Ona görə də 1918-ci ilə qədər biz iki Şaiqi görürük: biri beynəlmiləlçi, o birisi isə millətçi. 1905-ci il inqilabından sonra onun ədəbi və pedaqoji yaradıcılığının birinci mərhələsində rus və Qərb ziyalılarının təsiri hiss olunmaqdadır, lakin müsbət cəhət budur ki, A.Şaiq bu mənbələrə yaradıcılıqla yanaşmış, paralel olaraq Azərbaycan və Şərq ədəbiyyatını, mədəniyyətini öyrənmiş, tədqiqatçıların yazdığı kimi, «bütün yaradıcılığı rus ədəbiyyatı ilə bağlı olmasına» baxmayaraq, praktik cəhətdən vətənpərvər bir pedaqoq kimi öz ideya və nəzəriyyələrini həyata keçirmək uğrunda mübarizə aparmışdır. Məhz beynəlmiləlçi müəllimin 1917-ci ildə milli məktəb yaratmaq, milli məzmuna malik proqram, dərslik hazırlamaq ideyasını ortaya qoyması, məqsədinə nail olmaq üçün ardıcıl, prinsipial mübarizə aparması və opponentlərinin müqavimətinə baxmayaraq məqsədinin gerçəkləşdirməsinin dərin kökləri vardır. Fikrimizi sübuta yetirmək üçün A.Şaiqin «Xatirələrim»inə müraciət etsək daha yaxşı olardı. O yazır: «Cahan müharibəsi əsnasında və sonralar millətçi rus pedaqoqlarındakı təəccüb və qürur daha qabarmış olduğundan türk tələbələrinə və müəllimlərinə qarşı daha kinli bir cəbhə açmışdır. Bütün bunlar Şaumyan dövründə türklərin Bakıya gəlişi zamanında bolşevik cildinə girmiş daşnakların qaba öldürücü hərəkət siyasəti mənim əhvali-ruhiyyəmi büsbütün dəyişdirdi». Bu «büsbütün dəyişmiş əhvali-ruhiyyə» nəinki yaratdığı «Şaiq «Nümunə məktəbi»ndə, hətta demək olar ki, bütün həyatı boyu onu tərk etməmiş, sovet dövründə birbaşa



olmasa da dolayısı ilə bu əhvali-ruhiyyə ilə xalqına xidmət etmişdir. A.Şaiq yaradıcılığının müxtəlif mərhələlərində 11 adda ədəbiyyata, 4 adda Azərbaycan dilinin qrammatikasına dair dərslik hazırlamışdı. Bəzi tədqiqatçıların yazdıqlarının tam əksi olaraq A.Şaiqin dərslikləri Azərbaycan Demokratik Cümhuriyyəti dövründə də yüksək qiymətləndirilmiş, «Gülzar», «Uşaq gözlüyü», «Türk çələngi», H.Cavidlə birgə yazdığı «Ədəbiyyat dərsləri» kitabları Maarif Komissarlığının komissiyasının qərarı ilə ikinci dəfə çapdan çıxmış və məktəblərdə dərslik kimi istifadə olunmuşdur. A.Şaiq yaradıcılığının mühüm bir hissəsini də «Məktublar» təşkil edir. Bunların arasında dövrünün böyük pedaqoqu Firudin bəy Köçərli ilə olan məktublaşma daha uzunmüddətli və davamlı olmuşdur. Millətinə bağlılıq, bütün şüurlu həyatını onun tərəqqisi və maariflənməsinə həsr etməsi və başqa bu kimi xüsusiyyətləri ilə bir-birini tamamlayan, bütövləşdirən bu iki şəxsiyyət, aralarındakı yaş və məkan fərqinə baxmayaraq düz 10 il məktublaşmışlar. Onlar bu məktublar vasitəsi ilə təlim-tərbiyə, dərslik, proqram və yeni tipli məktəb haqqında öz fikirlərini bölüşdürmüşlər. ADR zamanı fəaliyyətə başlamış məktəbdə tədrisin keyfiyyəti, müəllimlərin elmi-pedaqoji, metodiki hazırlığı, onların maddi vəziyyətlərinin yaxşılaşdırılması, maddi-texniki bazanın möhkəmləndirilməsi hökumətin daim diqqətində olmuşdur. Aparılmış araşdırmalar nəticəsində A.Şaiqin pedaqoji fəaliyyətini üç mərhələyə bölmək olar: birinci mərhələ 1901-1918-ci illəri, ikinci mərhələ 1918-1926-cı illəri, üçüncü mərhələ isə 1927-1936-cı illəri əhatə edir. Əsərdə A. Talıbzadənin pedaqoji fəaliyyətinin birinci və üçüncü mərhələləri əhatəli verilməklə yanaşı, əsas diqqət indiyə qədər tədqiq edilməmiş və pedaqoji ictimaiyyət üçün qaranlıq qalan ikinci mərhələyə yönəldilmişdir. 1918-26-ci illəri əhatə edən bu mərhələdə A.Şaiqin yaratdığı «Nümunə məktəbi»nin fəaliyyəti arxiv materialları, tədqiqatçıların əsərləri, tələbə və müasirlərinin xatirələri əsasında yazılmışdır.

# I FƏSİL

## ABDULLA ŞAİQ TALIBZADƏNİN PEDAQOJİ FƏALİYYƏTİ VƏ İDEYALARI

### 1.1. A.Ş.Talıbzadənin həyatı və pedaqoji fəaliyyəti

XX əsr Azərbaycan pedaqoji həyatında mürəkkəb və çoxcəhətli bir yaradıcılıq yolu keçmiş Abdulla Mustafa oğlu Talıbzadə 1881-ci il fevralın 24-də Tiflis şəhərində ruhani ailəsində anadan olmuşdur. İlk təhsilini atasının dərs dediyi, Tiflis məktəb müfəttişliyinin tabeliyində olan altısinifli şəhər müsəlman məktəbində almışdı. Məktəbdə əsas dərsləri Qori Müəllimlər Seminariyasının məzunları olan Paşabəy və Baxşəlibəy aparırdılar. A.Şaiq sonralar hər iki müəllimini hör-mətlə yad edərək öz xatirələrində yazırdı: «Onlar təbiətcə bir-birindən gözəl adamlar idi... hərəkət və rəftarları bizə böyük tərbiyə dərsi idi. Böyüyəndən sonra müəllim olduğum zamanlar belə, o, müəllimləri unuda bilmirdim. Həmişə özümü onlara bənzətməyə çalışırdım» (69, s. 32) Məktəbdə bir neçə il təhsil aldıqdan sonra ailə vəziyyəti ilə əlaqədar olaraq o, 1893-cü ildə anası və qardaşı ilə birlikdə Xorasana gedir. Burada o, qardaşı Yusiflə molla məktəbində təhsilini davam etdirir. Balaca Abdulla hələ Tiflisdə olarkən Xorasanda mollaxanalarda tədris edilən Çərəkə, Quran, «Cameyi-Abbas», «Gülüstan» kitabları, və falaqqa, çubuq cəzaları haqqında çox eşitmişdir. Abdulla buradakı köhnə, ibtidai təlim-tərbiyə üsulu ilə də barışa bilmirdi. Elə buna görə də mollanın bir dəfə onu çubuqla döyməsi Abdullanın buradan qaçmasına səbəb oldu. Həmin vaxtdan da Mirzə Yusif adlı bir ziyalının açdığı məktəbə düzəlir və burada «Nisab» kitabını öyrənməyə başlayır. Lakin bu kitab da şeir, sənət aşiqi olan Abdullanın ehtiyacını ödəmir. Məktəbdə təlim dili fars dili idi. Ona isə Azərbaycan dili və ədəbiyyatını bilmək vacib idi. Bir gün Abdulla öz fikrini müəlliminə bildirir. Qabaqcıl dünyagörüşünə malik, vətənpərvər müəllim şagirdinin bu arzusunu nəzərə alaraq ona Azərbaycan dilinin sərf-nəhvindən dərs verməyə başlayır. Abdulla öz ana dilini öyrənməklə bərabər rus və fars dillərini də səylə öyrənirdi. «Özü ilə apardığı A.S.Puşkin, M.Y.Lermontov, İ.A.Krılovun əsərlərini mütəmadi mütaliə edirdi. Bununla bərabər ərəb və fars ədəbiyyatını, xüsusilə Firdovsi, Sədi, Hafiz, Rumi, Cami kimi dühaların yaradıcılığını həvəslə öyrənir və Rumini orijinaldan oxuyur, onun dilində şeirlər yazırdı. Rumini dərindən öyrəndikcə o, bu şairin hünərinə və dühasına həsəd aparırdı. On ildən sonra Ruminin «Məsnəvi»sindən tərcümə etdiyi «İbarət və müqabilə, yaxud ümmətlərin ixtilafı» hekayətini də o zamanlar qaralamışdır. Xorasan həyatı Abdulla Şaiqin həyatında mühüm mərhələ təşkil edir. Gənc Abdulla burada rus şairi İ.A.Krılovdan tərcümələr edir. Lakin Azərbaycan dilinin incəliklərini bilmədiyi üçün bu təmsilləri fars dilinə tərcümə edirdi. Sonralar həmin tərcümələri 1910-cu ildə hazırladığı «Gülşəni ədəbiyyat» dərsliyinə saldı» (70, s.23-24). Abdulla müəllim, şair olmaq arzusu ilə yaşayırdı. Ona görə də öz üzərində səylə çalışır, ədəbiyyata, məntiqə, tarixə dair çoxlu kitablar oxuyurdu. Atasının «Oğlum, çalış rus dilini də unutma» (56, s.29) sözlərini də yadından çıxartmırdı. Elə ilk gündən Hacının «Bura Xorasandır, Tiflis deyil, burda rusca oxumaq günahdır» (56, s.30) iradına əhəmiyyət verməyərək klassik rus poeziyasını özü ilə apardığı kitablardan öyrənirdi. Abdullanın Azərbaycan ədəbiyyatına marağı daha güclü idi. Xorasan məktəblərində Azərbaycan dili keçilmədiyindən öz doğma ədəbiyyatını ya çətinliklə tapdığı, ya da Tiflisdən gətirdiyi kitablardan öyrənirdi. Ciddi mütaliə nəticəsində şeir qayda -qanunlarını daha mükəmməl mənimsəyir, get-gedə xoşuna gələn qəzəllər də qələmə alırdı. Ən çox sevdiyi şairlər M.Füzuli, M.P.Vaqif və Q.Zakir idi. İlk qəzəllərini də M.Füzulini öyrənəndən sonra «Valeh» təxəllüsü ilə yazmışdır.

Gənc Abdulla Xorasanda sadə adamların ağır yaşayış tərzinin, savadsızlığı ucbatından hər cür əziyyətlərə dözmələrinin şahidi olurdu. 1898-ci ilin yayında Abdulla qardaşı Yusiflə birlikdə Xorasan yaxınlığında Çağərq kəndində dincəlir. Xorasanda hökm sürən haqsızlığı o burada da görür, cənublu qardaşlarının ağır məişəti, dözülməz güzəranı, əsassız ölümə məhkum edilmələri onu dəhşətə gətirir. Belə bir şəraitdə onun həyata və insanlara baxış və müşahidələri formalaşırdı. Lakin bu baxışlar dumanlı və mücərrəd mahiyyət daşısa da, onun gələcəkdə bir müəllim və yazıçı kimi yaradıcılığının sonrakı dövrlərində, xüsusən də 1905-1920-ci illərdə öz əks-sədasını tapmışdır. 1899-cu ilin baharında anası Mehri xanım qardaşı Yusiflə Tiflisə qayıdır. Abdulla Xorasanda qalır. Onun məqsədi Yusif Ziyanın məktəbində fars dili və ədəbiyyatı, tarixi, psixologiyanı və ərəb ədəbiyyatını mükəmməl öyrənmək idi. «O eyni zamanda burada yaşayan bakılı Molla Mirzə Əbdülkərimdən ərəbcəni, məntiqi, gəncəli Mirzə Bağırdan poetika elminə dair «Mütəvvəl» kitabını, Əmrəl Qeysin şeirlərini və başqa əsərləri öyrənməyə başlayır» (69, s. 21). Xorasanda mükəmməl təhsil almış, tarix, məntiq, psixologiya elmlərini, Azərbaycan, Şərq və rus ədəbiyyatını öyrənmiş 19 yaşlı Abdulla 1900-cü ilin payızında vətənə döndü. Lakin o, Tiflisdə uzun müddət qala bilmədi. Ailə vəziyyəti ilə əlaqədar 1901-ci ildə Bakıya gəlir. «İri kapitalist sənaye şəhərinə çevrilmiş Bakının ictimai həyatında böyük bir canlanma var idi. Avropa ölkələri ilə əlaqələrin genişlənməsi sənayenin inkişafına və fəhlə sinfinin yetkinləşməsinə səbəb olurdu» (14, s.41). Abdulla Bakıda iki sinfi mübarizə ilə üzləşdi; bir tərəfdən burjuaziya, digər tərəfdən isə proletariat. 1905-ci il inqilabı ərəfəsində bu iki sinif arasında qızışan mübarizə tarixin zəruri bir hadisəsi kimi meydana çıxmışdı. Bununla bərabər Bakı həm də elm, ədəbiyyat və mədəniyyət mərkəzinə çevrilirdi, mətbuat orqanları, məktəblər, mədəniyyət ocaqları açılır, mütərəqqi görüşlü ziyalıların sayı artırdı.



«Ziyalıların çoxu Qori Müəllimlər Seminariyasının məzunları idi. Onlar yeni üsulla dərs deyir, əsərlər yazırdılar. N.Nərimanov, Ə.Haqverdiyev, M.F.Axundov, N.Vəzirov və başqa dramaturqların əsərlərini tamaşaya qoyurdular» (63, s.34). «1905-1907-ci illər inqilabının təsiri altında məktəb ətrafında gedən mübarizə gündən-günə şiddətlənirdi və bu, Azərbaycan ziyalılarının, müəllimlərinin, mühərrirlərinin, ədiblərinin və b. yeni-yeni dəstələrini əhatə edirdi» (55, s.12). «Həmin dövrdə vətənin tərəqqisi naminə mübarizə aparan saf əqidəli şəxslər Qori Müəllimlər Seminariyasını bitirib Azərbaycanın müxtəlif yerlərində çalışırdılar. Onlar böyüyən nəslin təlim-tərbiyəsinə, onların dünyəvi təhsil almalarına qayğı göstərirdilər. Bəşəri duyğulara malik demokratik görüşlü bu insanlar yeni üsulla məktəblər açır, qəzet, jurnallar çıxarır, dərsliklər hazırlayır, tədris proqramlarında dünyəvi elmlərə geniş yer verirdilər. Məqsəd insanların şüuruna təsir göstərmək, qəlblərdə maarif məşəli yandırmaq, xalqlar arasında dostluq ideyası yaymaq idi» (21, s.15). Abdulla Bakıya gələn kimi hələ Tiflisdən tanıdığı N.Nərimanovla görüşür. N. Nərimanov onun Bakıya müəllim olmaq arzusuyla gəldiyini alqışlayır. «Lakin bunun üçün o, imtahan verməli, müəllimlik hüququ qazanmalı idi.N.Nərimanovun faydalı məsləhətlərindən sonra» (77, s.35) Abdulla N.Nərimanovun ona bağışladığı «Türk-Azərbaycan dilinin müxtəsər sərf-nəhvi» kitabını, Azərbaycan dilinin qrammatikasını, ədəbiyyatı, eləcə də metodika və didaktikanı öyrənir. 1901-ci il aprelin 22-də I Alek -sandr adına üçüncü oğlan gimnaziyasında imtahan komissiyası çağırıldı. «Abdulla üç növ üzrə imtahan verir: yazılı, şifahi, nümunə dərsi. Bu imtahanlar zamanı o, öz istedad və bacarığını göstərmiş, səyi və mütaliəsi sayəsində Azərbaycan dili və ədəbiyyatına, metodika və didaktikaya aid suallara N.Nərimanovu və başqa komissiya üzvlərini razı salan cavablar vermiş və hər üç imtahandan «5» qiyməti almışdır» (107). «O, 1901-ci il 22 aprel 608 nömrəli şəhadətnaməyə əsasən ana dili müəllimi

adını alır. Şəhadətnaməyə komissiya üzvü olan N.Nərimanov da qol çəkmişdir» (107). Onun müəllim kimi işə düzəlməsində də N.Nərimanov mühüm rol oynamışdır. Onun Bakı Dövlət Dumasının maarif şöbəsinin müdiri Mixail Aqanoviçə yazdığı məktubda oxuyuruq: «Qulluğum Sizinlə görüşməyimə mane olur, ancaq alicənablığınıza və xeyir-xahlığınıza güvənərək Sizə məktub yazmağa cəsarət edirəm. Sizdən xahiş edirəm ki, Mirzə Abdulla Talıbzadəni rus-tatar məktəbinə tatar dili (Azərbaycan dili – M.M) müəllimi vəzifəsinə təyin edəsiniz. Onun bu fənni tədris etməyə səlahiyyəti vardır və rus dilini də kifayət qədər yaxşı bilir. Əgər Siz onun sənədlərini başqalarının sənədləri ilə müqayisə etsəniz, onun başqalarından fərqlənən ləyaqəti aydınlaşar» (109). Lakin boş yer olmadığı üçün A.Talıbzadəni rus-tatar məktəblərində «ehtiyat müəllim» təyin etməyi qərara alırlar. Bu haqda o, məktəb komissiyası sədrinə aşağıdakı məzmunda məktub yazır: «Siz ali cənab həzrətlərinizə bildirirəm ki, mən 31 oktyabr 1901-ci il 85 nömrəli əmrinizə əsasən 5 noyabr 1901-ci ildən rus-tatar məktəblərində ehtiyat müəllim olmağa razıyam» (109). Beləliklə, Abdulla Talıbzadə Sultan Məcid Qənizadənin müdir olduğu altı sinifli şəhər məktəbində pedaqoji fəaliyyətə başlayır. A.Talıbzadənin pedaqoji fəaliyyətə başladığı dövrdə xalqı maarifləndirmək, kütlələrin gözünü açmaq, onları zamanın tələbinə uyğun tərbiyə etmək ictimai bir məsələ kimi meydana çıxmışdır. XIX əsrin sonu XX əsrin əvvəllərində Azərbaycan maarifinin vəziyyəti aşağıdakı kimi xarakterizə olunurdu: «1) Yeni tipli məktəblərin yaranması; 2) Məktəblərdə təlimin ana dilində aparılması; 3) Dərs kitablarının ana dilində tərtib edilməsi; 4) İbtidai və orta məktəblərin inkişafı; 5) Milli müəllim kadrlarının hazırlanması» (64, s.37). Belə bir dövrdə əsrin tanınmış maarifçi ziyalıları kimi Abdulla Şaiq də bu problemlərin həllində uzun və özünün dediyi kimi, «şərəfli bir yolun yolçusu» (102) olaraq ömrünün 35 ilini Azərbaycan maarifinin inkişafına sərf etmişdir. Abdulla Şaiq özünün 30-cu illərdə yazdığı «Xatirələrə



dair qeydləri»ndə göstərir ki, «Mənim əsl pedaqoji fəaliyyətim 1920-ci il aprel inqilabından sonra başlayır». Böyük pedaqoqun bu fikri ilə heç cür razılaşmaq olmaz. Bəs nə səbəbə Abdulla Şaiq özünün 20 illik pedaqoji fəaliyyətinin üstündən demək olar ki, xətt çəkmişdir? Bu sualın cavabını həmin illərin istintaq materialları olan bir «dosye»də axtarsaq daha düzgün olar. Həmin «dosye»də mütərəqqi yazıçı və şairlərimiz haqqında maraqlı və o dövrdə insan həyatına son qoyacaq qərarlar yer almışdı:

1. Səməd Vurğun əqidəli əksinqilabçı, millətçi, A.Şaiqlə bacanaqdır.

2. Kazım Ələkbərli özünün millətçi xəttini yeridir, M.Ə.Sabirin yubileyini millətçi ruhda aparmışdır, H.Cavidin, Ə.Cavadın, A.Şaiqin, M.Müşfiqin və başqalarının əksinqilabi millətçi çıxışlarını müdafiə edir.

Nəhayət, A.Şaiqin özü haqqında «millətçi və pantürkist idi» sözləri yazılmışdır (102). Sözsüz ki, Abdulla Şaiq bunu bilməmiş deyildir, tərcümeyi-halında yuxarıda qeyd etdiyimiz fikirləri isə özünü təqiblərdən müdafiə etmək məqsədilə söyləmişdir. Bütün həyatı boyu öz məsləkinə sədaqətlə xidmət etmiş A.Şaiq Azərbaycanda sovet hakimiyyətinin qurulmasını bir çox müasirləri kimi qızğın elmi-pedaqoji fəaliyyətlə qarşılamışdı. Lakin 30-cu illərdə başlamış «qırmızı terror» onun dərin mənəvi sarsıntılar keçirməsinə səbəb olmuşdur. Neçə-neçə qələm dostlarını, şagirdlərini itirən Şaiq tezliklə işdən azad edilmiş, əsərləri tədris proqramlarından çıxarılmış, bədii əsərləri kitabxanalardan yığışdırılmışdır. Bu ağır dövrdə Şaiq bütün təzyiqlərə rəğmən bədii yaradıcılıqla məşğul olmuş, qələmi ilə «açığı açıq, gizlini gizli» (81, s.3) yazmışdır. Tarixi hadisələrə müraciət edən yazıçı bir-birinin ardınca qəhrəmanlıq mövzusunda bədii əsərlər yaratmışdır. Bu əsərlərdən xalq qəhrəmanı Nəbi haqqında «Qaçaq Nəbi», Dədə Qorqud motivlərini xatırladan «Dədə Tapdıq», «Qoçoğlu» poemalarını yazmışdır. Lakin bu əsərlərin çap edilməsinə senzura tərəfindən əngəllər törədilirdi. Akademik

K.Talıbzadə yazır: «Xatirimdədir ki, 1937-ci ildə «Qoçoğlu» poemasının əlyazması xeyli müddət «Revalyusiya və kultura» jurnalının redaksiyasında saxlandıqdan sonra məsləhət gördülər ki, poemanın çapı üçün onun bir yerində Stalinin adı salınmalıdır. Bu «məsləhət»yerinə yetirildikdən sonra poema 1938-ci ildə nəşr olundu» (81, s. 3). Ancaq A.Şaiqin həyat və yaradıcılığını nöqtə-nöqtə araşdırmış K.Talıbzadə yazır ki, Şaiq xalqına, ziyalılara qarşı çevrilmiş bu məqsədyönlü qanlı siyasətə bir nifrət, hiddət hissi ilə yanaşmış, məqam olduqca əməli fəaliyyəti ilə bu hissləri büruzə vermişdi. Məqalədə oxuyuruq: «Yaxın dost və qələm yoldaşlarının gözünün qabağında «xalq düşməni» adı ilə ifşa olunub «qeyb olmaları», «yoxa çıxmaları» onda siyasi sədaqətinə çoxdan şübhə ilə baxdığı Stalinə və onun hökmranlığına qarşı hiddəti lap coşdurmuşdur. O, həmişə yaxın dostluq əlaqələri olan N.Nərimanovun ölümündə «rəhbərin» əli olduğunu yaxınlarına danışırdı. İndi isə onun xalqının qabaqcıl nümayəndələrinə uzanan qatil əli bu qəsdi kütləvi bir şəklə salmışdı, onu «qanuniləşdirmişdi». Belə bir vaxtda Şaiq qələmə sarılmış, onun təbiətinə xas olmayan «gizli ədəbiyyat» yaratmağa başlamış və beləliklə «rəhbər»ə həsr olunmuş şeirlər silsiləsi yaratmışdı» (81, s. 3). Arxiv materialları K. Talıbzadənin fikirlərini bir daha təsdiq edir. Belə ki, A.Şaiqin arxivində şəxsiyyətə pərəstiş illərində yazılmış, Stalinin və onun əlaltılarının tənqidinə həsr olunmuş yeddidən artıq şeiri saxlanmaqdadır. Bu əsərlər içərisində sevimli şagirdləri Ruhulla Axundova və Tağı Şahbaziyə həsr olunmuş şeirləri nəzərdən keçirməyi məqsədəuyğun hesab etdik. Şeirlərdə şairin sevimli şagirdlərinin vəhşicəsinə qətlə yetirilməsinə etiraz əlaməti olaraq dərin kədərinin, hiddətinin şahidi oluruq. Təəssüf ki, tədqiqatımızın obyekti olmadığı üçün bu əsərlərin təhlilinə varmadan üstündən sükutla keçmək məcburiyyətindəyik. Lakin hesab edirik ki, bu gün arxivdə saxlanan bu əsərlər üzə çıxarılmalı, tədqiq edilməli, bir sözlə, ictimailləşdirilməlidir. Çünki bu əsərlər Şaiqin Stalinə və onun



silahdaşlarına olan münasibətini aydınlaşdırar, onun mübariz simasını bir daha canlandırar və eyni zamanda da bir çoxlarını maraqlandıran «necə oldu ki, Şaiq repressiya torundan salamat çıxdı» sualına tutarlı bir cavab olardı. Yazıçı Mirzə İbrahimov A.Şaiqin müəllimlik fəaliyyəti haqqında fikrinin tam əksinə olaraq yazır: «A.Şaiq ədəbi yaradıcılıqla kifayətlənməyib həyatının böyük bir hissəsini şərəfli müəllimlik sənətinə həsr etmişdir. Onun müəllimliyi əsasən inqilabdan əvvəlki dövr və inqilabın birinci onilliyini əhatə edir» (42, s.24). Göründüyü kimi M. İbrahimov da A.Şaiqin 1918-20-ci illərdəki pedaqoji fəaliyyətini nəzərə almamışdır, halbuki məhz həmin illərdə Azərbaycan pedaqoji tarixinə «Şaiq Nümunə məktəbi» kimi daxil olmuş milli təhsil ocağı yaradılmışdır və onun yaranmasında A.Şaiq əvəzsiz xidmətlər göstərmişdir. Professor Camal Əhmədov isə «A.Şaiqin pedaqoji fəaliyyətə başlamasını 1900-cü ilə» (25, s.2) aid edir ki, bu da yanlış fikirdir. Çünki 1900-cü ildə A.Şaiq Xorasandan Tiflisə qayıtmışdır. Yuxarıda qeyd etdiyimiz kimi o, 1901-ci ildə müəllimliyə başlamışdı. Abdulla Talıbzadənin pedaqoji fəaliyyətinin birinci mərhələsini əhatə edən 1901-18-ci illər arasında Azərbaycan maarifi sahəsində iki qüvvə qarşı-qarşıya gəlmişdi. Birincisi: köhnə təlim ocaqları - mollaxanalar, mollalar, sxolastik təlim-tərbiyə üsulu ilə dərs deyən müəllimlərdən ibarət qüvvə, ikincisi: isə yeni təlim-tərbiyə üsullarına, dünyəvi məktəblərə meyl edən pedaqoji qüvvə idi. Gənc müəllim tərəddüd etmədən yeni tipli tədris ocaqlarının şəbəkəsinin genişləndirilməsi uğrunda mübarizə aparan ikinci qüvvənin - dövrün qabaqcıl maarifçilərinin sıralarına qoşuldu. Ana dilinə ayrılmış dərs saatı az olduğundan o, beş-altı ay hazırlaşdıqdan sonra imtahan verərək şəriət müəllimi şəhadətnaməsini aldı. O, işlədiyi məktəbdə ana dili dərsləri ilə bərabər şəriət dərsləri də aparırdı. İkinci Realnı məktəbin direktorunun Qafqaz Təhsil Dairəsinə göndərdiyi 1916-cı il 18 oktyabr tarixli məktubunda oxuyuruq: «Sinif mürəbbesi işləyən A.Şaiqə birinci Realnı məktəbində şə-

Az/298714



Kitabxanası

riət dərsləri aparmasına» icazə verilmişdir (107). A.Şaiq şəriət dərslərinin çürük mahiyyətini dərk edərək çox vaxt onun yerinə ana dilini, dünyəvi elmləri tədris edirdi. Lakin atdığı bu qorxulu addım onun vəzifəsi ilə vidalaşması demək idi. A.Şaiq sonralar bu barədə "Xatirələrim"də yazırdı: «Bir gün müdir qəflətən içəri girdi və üzünü sinfə çevirərək bugünkü dərsin mövzusunu soruşdu. Şagirdlərdən Həbib Talışinski ayağa qalxaraq:

- Bu gün dərsdə müəllim «miras» məsələsini keçir» – deyərək məni çətinlikdən qurtardı» (69, s.46).

1901-1906-cı illərdə Abdulla müəllim bir neçə məktəbdə dərs deyirdi. 1902-ci ilin sentyabrında o, Həbibbəy Mahmudbəyovun müdir olduğu altısinifli şəhər məktəbinin aşağı siniflərinə daimi ana dili müəllimi təyin edilir. Dərs saatı az ol-duğuna görə 1903-cü ildən Sabunçuda altıillik məktəbdə də dərs deməyə başlayır. Gənc müəllim fəhlələrin ağır iş şəraitini, güzəranını da ilk dəfə olaraq daha yaxından müşahidə edir, öyrənirdi. Bu illərdə ilk fəhlə tətillərini də burada görürdü. Ailəni dolandırmaq çətin olduğundan A.Talıbzadənin paralel olaraq 1903-cü ildə üçüncü kişi gimnaziyasında çalışması tarixi haqqında da mübahisə doğuran üç sənəd vardır: «birincisində, onun 1903-1905-ci illərdə progimnaziyada» işlədiyi göstərilir. (71), ikinci sənəd isə Mərkəzi Dövlət Ədəbiyyat Arxivində saxlanan 31 nömrəli şəhadətnamədir (90). Şəhadətnamədən məlum olur ki, o, Qafqaz Maarif Müfəttişliyinin 15672 nömrəli əmrinə əsasən 1905-ci il oktyabrın 29-dan 1912-ci il oktyabrın 31-ə qədər gimnaziyada çalışmışdır. Üçüncü sənəd isə A.Talıbzadənin əmək kitabçasından götürülmüş çıxarışdır (90). Əmək kitabçasında yuxarıda göstərilmiş hər iki tarixin tam əksi olaraq onun üçüncü kişi gimnaziyasında 1903-1906-cı illərdə çalışdığı göstərilir. Bizcə, bu tarix də əsas götürülməlidir. Üçüncü kişi gimnaziyasında işlədiyi qısa müddət ərzində mürtəce dairələrin maneçiliyinə baxmayaraq o, məktəbdə azərbaycanlı uşaqların sayını artırmağa çalışırdı. «Xatirələrim»dən oxuyuruq ki, ona bu planı həyata keçirməkdə



«məktəbin müdiri, dünyagörüşlü, beynəlmiləlçi bir insan olan Nikolay Sazanov da köməklik edirdi» (91). Bunun nəticəsində bir il ərzində azərbaycanlı uşaqların sayı iki dəfə artaraq 30 nəfər olmuşdur. «1905-ci ildə Rusiyanı bürümüş inqilab dalğası Bakıda qeyri-adi əhval-ruhiyyə yaratmışdır. İnqilab xalqın geniş təbəqələrini siyasi mübarizəyə qaldırdı. Nümayişlərin ardı-arası kəsilmirdi» (14, s.48). Sabunçuya gedib-gəlmək çətin olduğu üçün Abdulla 1906-cı ilin sentyabrında oradan ayrılaraq Bakı realnı və yeddinci şəhər məktəbinə işə düzəlir. A.Talıbzadə rus dilində tərcümeyi-halında göstərir ki, 1906-cı ildə 7-ci rus-tatar məktəbində yerli dildən (tuzemniy yazık) dərs deməyə başlamışdır. Sonralar Azərbaycan ədəbi, ictimai-siyasi həyatında görkəmli şəxsiyyətlər olmuş Seyid Hüseyn, Cəfər Cabbarlı məhz bu məktəbdə onun şagirdləri olmuşdur. Onda səkkiz yaşlı Cəfərin istedadına, gələcəyinə böyük inam var idi. Məhz elə həmin vaxtlar şagirdinə «sən ya çox böyük adam olacaqsan, ya da heç bir şey. Ancaq birincidən olmağa çalış» (76, s. 29-34) söyləmişdi. O, burada 1908-ci ilədək çalışır. A.Talıbzadə 1908-ci ildən pedaqoji fəaliyyətini Bakıdakı realnı məktəbində davam etdirir. Burada o, 1920-ci ilə qədər çalışmışdır. 35 illik pedaqoji fəaliyyətinin 14 ilini o, Bakı realnı məktəbində təlim-tərbiyə işinə həsr etmişdir. A.Şaiq burada şəhərin bir neçə məktəbində altıncı dərs (sərbəst dərs) kimi tədris edilən Azərbaycan dilindən dərs vermişdir. A.Talıbzadə «Xatirələrim»də yazırdı: «Dərs cədvəllərində isə Azərbaycan dili «tuzemniy yazık» (yerli dili) kimi yazılırdı. Çarizm Azərbaycanı nəinki müstəmləkəyə çevirmişdir, hətta azərbaycanlılara Rusiyada yaşayan başqa millətlər kimi təzyiq göstərirdi. Azərbaycan xalqının mədəni irsi müxtəlif üsullarla inkar edilirdi. Odur ki, «tuzemnıy yazık» müəllimlərindən tələb olunurdu ki, dərslərdə dinin təbliğinə, öyrənilməsinə xüsusi diqqət yetirilsin və s. Əlbəttə, bir çox başqa müəllimlər kimi mən də bu yol ilə getmirdim. Şagirdlər mənim dərslərimdə Azərbaycanın çar müstəmləkəsinə çevrilməsi barədə də, ölməz

Nizaminin yaradıcılığı haqqında da eşidə bilərdilər. Hətta çar mütləqiyyətinə istehza edən mövcud ictimai-siyasi mühiti qamçılayan Sabirin satiraları belə o vaxt mənim dərslərimdə əl-əl gəzirdi. Elə valideynlər vardır ki, uşaqlarına «yerli dil» dərslərində iştirak etməyə icazə vermirdi» (69, s.57). Mütərəqqi fikirlərinə görə A. Şaiq şagirdləri və qabaqcıl fikirli maarif işçiləri arasında böyük hörmət və nüfuz sahibi olmuşdur. Pedaqoji ustalığı ona şagirdlərinə nümunə olmaqda, onlara xüsusi ilə kasıb uşaqlarla səmimi münasibət qurmaqda köməklik edirdi. Bu şagirdlər arasında sonralar xalqımızın tanınmış övladları: B.Talıblı, R.Axundov, T.Şahbazi, H.Talişinski, T.Əliyev, M.Nərimanov və başqaları var idi. Rus-tatar tipli məktəblərin, tədris ocaqlarının şəbəkələrinin genişləndirilməsi uğrunda mübarizə aparan qabaqcıl maarifçilərin sırasında öz dəsti-xətti ilə seçilən A.Şaiqin pedaqoji fəaliyyətinin birinci mərhələsini əhatə edən illər xalq maarifi sahəsində başlamış böyük bir canlanma ilə müşayiət olunur. Müxtəlif maarif cəmiyyətləri yaranırdı. Bu cəmiyyətlər içərisində «Nicat» cəmiyyəti öz fəaliyyəti ilə diqqəti cəlb edir. Cəmiyyətin sədr müavini olan N.Nərimanovun və onun həmfikirlərinin N.Zərdabi, F.Ağayev, S.Axundov, A.Şaiq, Ü.Hacıbəyli və başqalarının səyi nəticəsində 1906-cı ilin avqustunda və daha sonra 1907-ci ildə Azərbaycan müəllimlərinin müvafiq olaraq birinci və ikinci qurultayları çağırılır. Azərbaycan ictimai həyatında tarixi əhəmiyyət kəsb edən qurultaylar maarif və məktəb məsələsini müsəlmanların inkişafının ən vacib komponentləri ilə bağlı olan siyasi, mədəni və ictimai, həlli vacib bir məsələ kimi ortaya qoyur. Dərsliklərin, proqramların vəziyyəti, təlim üsulları (o zamanlar ibtidai şəhər məktəblərində Azərbaycan balalarına rus dili «nemoy» (lal) metodu ilə təlim edilirdi) oxumaq və yazmaq üçün asan olan yeni üsulunun tətbiqi haqqında, kənd müəllimlərinin vəziyyəti, məktəblərdə ana dili dərslərinə verilən saatların artırılması, tədrisin keyfiyyətinin yüksəldilməsi, tətillərin düzgün bölüşdürülməsi, ibtidai təhsilin ümumi və icbari ol-



ması, yeni üsullardan istifadə edilməsi hər iki qurultayın əsas müzakirə mövzusu olmuşdur. Gənc müəllim birinci qurultayda çıxış edərək ana dili və ədəbiyyatın tədrisi, yeni dərsliklər yaratmaq haqqında öz təkliflərini verdi. Qurultay H.Zərdabi, F.Köçərli, M.Mahmudbəyov, S.S.Axundov, A.Şaiq və başqalarından ibarət xüsusi komissiya seçdi. Onlara Azərbaycan dilindən müvafiq proqram hazırlamaq tapşırıldı. Qurultayın növbəti iclasında komissiya adından A.Şaiq çıxış edərək proqramın tərtibi prinsiplərindən və əhəmiyyətindən danışdı. Bu müəlliflər qrupu 1908-ci ildə «İkinci il» adlı elmi, pedaqoji-metodik cəhətdən faydalı bir vəsait tərtib etdilər. Həmin dərslik klassik rus ədəbiyyatından tərcümə olunmuş nümunələr, A.Səhhət, M.Ə.Sabir və A.Şaiqin uşaqlar üçün yazdıqları əsərlər əsasında tərtib olunmuş, sadə və aydın Azərbaycan dilində yazılmışdır. A.Şaiq və digər müəlliflərin tərtib etdikləri bu dərs vəsaiti müəllimlərin ikinci qurultayının qərarının yerinə yetirilməsi baxımından böyük əhəmiyyət kəsb edirdi. Lakin dərslik cəmiyyətdə birmənalı qarşılanmır. Professor Ə.Ağayev vəsaiti müsbət hadisə kimi dəyərləndirərək yazır: «İkinci il» dərsliyi əlifba təlimindən sonra oxunan birinci kitab idi. Bu dərslikdə digərlərindən fərqli olaraq bir sıra yeniliklər edilmişdi. Əvvələn, kitabda Azərbaycan dilinin özünəməxsus qrammatik qayda - qanunları verilmişdi, digər tərəfdən «ə» səsini bildirən bir işarə də əlavə edilmişdir. Bu, oxunu asanlaşdırırdı. İlk dəfə olaraq «İkinci il» dərsliyində dilimizə məxsus ahəng qanunu öz əksini tapmışdır. Müəlliflər bu barədə kitabın elə birinci səhifəsində məlumat verib yazırdılar ki, «türkcədə gözəl bir hal var ki, haman heç bir lisanda bulunmaz: o da lisanda bulunan ahəngdir, yəni türkcədə bir kəlmənin ilkin hecası nasıl bir səs ilə başlanarsa, ondan sonra gələn hecalarda da ona uyğun olar. Məsələn, ilkin hecanın səsi incə isə ötəkilərin də səsi incə, qalın isə qalın olur. Kitabda çalışmalara geniş yer verilmiş, dilimizin qrammatikası (inkar və təsdiq, tək və cəm, nisbət kateqoriyaları, felin zamanları, və s.) sırf Azər-

baycan dilinə məxsus xüsusiyyətləri də göstərilmişdir» (2, s.71-73). «İkinci il» dərsliyində A.Şaiqin yaradıcılığı geniş əhatə olunmuşdur. Buraya onun səkkiz müxtəlif məzmunlu uşaqlar üçün yazdığı şeirləri daxil edilmişdir. A.Şaiq dərsliyin bir nüsxəsini dostu, böyük maarifçi Firudin bəy Köçərliyə göndərir. F. Köçərli 1908-ci il 2 dekabr tarixli cavab məktubunda dərsliyi çox yüksək qiymətləndirirdi. «Azərbaycan dilinin təmizliyi və yeni əlifbanın vacibliyi ideyası müxtəlif istiqamətlər üzrə həyata keçirilirdi. Bir tərəfdən ana dilində yeni dərslik və proqramlar hazırlanır, başqa tərəfdən də qəzet və jurnallarda təhsilə aid sənədlərin ümumi ideyasını təqdir edən materiallar, ədəbi-pedaqoji əsərlər yazılır, xalq maarifinin qarşısında duran əsas vəzifələrə diqqət yetirilirdi» (2, s.74). Əsrin əvvəllərində cəmiyyətin keyfiyyətcə yeni mərhələyə keçməsi, mənəvi aləmin güzgüsü olan xalq maarifinin güclü bir sahəyə çevrilməsi prosesi getdikcə güclənirdi. Cəmiyyət və məktəb münasibətləri daha sıx əlaqədə gündən-günə yeni məzmun kəsb edirdi. Azərbaycanın demokratik fikirli pedaqoqları öz fəaliyyətlərində ana dili və ədəbiyyatın tədrisinə, proqramlar və dərsliklərin tərtibinə xüsusi diqqət verirdilər. Bu tərəqqinin qarşısını almaq üçün imperiya məmurları mühüm tədbirlər planlaşdırıb həyata keçirirdilər. Bunu təsdiq edən sənədlərdən biri də Rusiya daxili nəzarəti polis şöbəsi, üçüncü kargüzarlıq dairəsinin 1900-cü ildə dekabrın 31-də 13421 saylı təhrirat ilə Gəncə valisinə göndərdiyi müraciətnaməsi diqqəti cəlb edir:

«Gəncə qubernatoru həzrətlərinə!

Polis departamentində olan məlumata görə, son zamanlarda tatar ədəbiyyatında (ruslar o zaman yerli türklərə tatar deyirdilər qeyd:MM) yeni bir cərəyan müşahidə olunur. Bu cərəyan Rusiya türkləri və müsəlmanları həyatında böyük bir təbəddülat doğuracağından təhlükəlidir. Bu qorxu əvvəllər yeni üsul üzrə təlim dairəsində idi. Bu da 1884-cü ildə krımlı İsmayıl Qasprinskinin üsul-sövtilə yazmış olduğu qiraət kitabından



ibarət idi. Bu kitab oxu və yazını asanca öyrətdiyindən hər yerdə sürətlə yayılır, bu təlim işləri ruhanilərin əlindən çıxaraq gənc müəllimlərə təslim olunur. Bu sürətlə fikri və ictimai bir inqilab yaradan yeni ədəbiyyata da icrayi təsir edən yeni tərəqqipərvər bir kütlə vücuda gəlir. Tatarlar içində «əskilik» və «yenilik» tərəfdarları kimi vücuda gəlmiş bu iki zümrə bu gün çarpışır. «Əskilər» bizim üçün faydalı olmadığı kimi «yenilər» də qorxuludur. Zira ki, bunlar da Rusiyadan ayrılmaq fikrindədir. Ona görə də bu hərəkətləri və onların son qayələrini tədqiq edib aydınlatmanızı departament zati alilərinizdən rica edir, sizə tapşırılmış vilayətdə müsəlman əhalisi içərisində yeni üsulda əsər yazan ədəbiyyat xadimlərinizi öyrəniniz, onların şəxsiyyətləri haqqında, ictimai və mülki vəziyyətləri, xüsusilə də müsəlmanlar içindəki mövqeləri, nerədə təhsil aldıqları haqqında təlimat toplayınız» (111). Lakin imperiyanın nəinki Gəncədə, eyni zamanda Bakıda həyata keçirdiyi bu qəbildən olan tədbirlər Azərbaycan ziyalılarının qarşısında duran mühüm vəzifələrdən biri olan dərslik, dərs vəsaiti, tədris planı, metodik vəsaitlərin hazırlanması, tərtibi, nəşri fikrindən daşındıra bilmədi. Məhz bu problemlərin həlli əsrin M.Mahmudbəyov, Ü.Hacıbəyli, H.Mahmudbəyov, F.Ağazadə, S.M.Qənizadə, S.Axundov və başqa ziyalıları kimi, A.Şaiqin də pedaqoji fəaliyyətində mühüm yer tuturdu. A.Şaiq müəllimliklə bərabər, elmi-pedaqoji, ədəbi yaradıcılıqla da məşğul olurdu. Məhz onu müasirlərindən fərqləndirən əsas cəhət də bu idi. O, pedaqoji fəaliyyətin müxtəlif mərhələlərində ədəbiyyatdan tərtib etdiyi dərs kitablarında klassik və çağdaş Azərbaycan ədəbiyyatından nümunələr verməklə bərabər müxtəlif xalqların ədəbiyyatından edilmiş iqtibaslar, tərcümələr də vermişdir. Pedaqoji fəaliyyətinin birinci mərhələsini əhatə edən 1901-18-ci illər arasında müəlliflərlə və tək olaraq «İkinci il» (1908), «Uşaq gözlüyü» (1910), «Gülşəni-ədəbiyyat» (1910), «Gülzar» (1912), «Milli qiraət» (1914), «Türk çələngi» (1916) dərsliklərini hazırlayıb çap etdirmişdir.

«İkinci il»dən sonra o, 1910-cu ildə bir-birinin ardınca «Uşaq gözlüyü» və «Gülşəni-ədəbiyyat» adlı dərsliklərini hazırlayıb çap etdirir. «Uşaq gözlüyü» A. Şaiqin ikinci əlifba kitabıdır. 1910-cu il Bakıda Orucovların mətbəəsində çap edilmişdir. Kiçikyaşlı uşaqlar üçün nəzərdə tutulmuş «Uşaq gözlüyü»ndə şairin son dövrdə yazdığı bir sıra şeirləri toplanmışdı. Dosent A.Alməmmədov A.Şaiq yaradıcılığından bəhs edərək onun dərsliklərində Tolstoy dərsliklərinin müsbət təsirinin olduğunu qeyd edir: «Tolstoyda olduğu kimi A.Şaiq də əlifba dərsliyi olan «Uşaq çeşməyi» kitabına kiçik təmsillər, tərbiyəvi mətnlər daxil etmişdir. Bu və ya digər hərfi öyrənərkən müəllif bir didaktik hekayə və ya təmsil verir, kiçik oxucularına dünya, ətraf mühit haqqında biliklər aşılayırdı» (9, s.24). H.Cavid 1910-cu il 18 oktyabr tarixli məktubunda yazırdı: «İkinci il» kitabı ilə «Uşaq gözlüyü» Qafqaziyada birinciliyi qazanacaq nümunələrdəndir» (44, s.65). Bununla da vətənpərvər şair hər iki dərsliyi yüksək qiymətləndirmişdir. «İrəvandan isə görkəmli maarif xadimi Cabbar Məmmədzadə «Uşaq gözlüyü» əsasında dərs dediyini bildirirdi» (19, s. 13). «Gülşəni-ədəbiyyat» şairin fars dilində nəşr etdirdiyi ilk kitabdır. Yuxarı sinif şagirdləri üçün nəzərdə tutulmuş bu dərsliyə Sədi, Qaani, Rumi kimi Şərqin böyük şairlərinin əsərləri, A.Şaiqin Xorasanda yaşayarkən İ.A.Krılovdan tərcümə etdiyi təmsillər və özünün fars dilində yazdığı şeirlər daxil edilmişdir. İllər ötdükcə A.Şaiqin dərslik hazırlamaq sahəsində təcrübəsi artırdı. Məhz 1912-ci ildə nəşr edilmiş «Gülzar» adlı dərsliyində o özünü püxtələşmiş bir müəllif kimi göstərmiş, ona görə də əvvəlki dərsliklərdə məzmun və quruluşla bağlı qüsur və nöqsanlar bu dərslikdə aradan götürülmüşdür. Dərslikdəki mətnlər dörd hissəyə bölünmüşdü. Əvvəlki üç bölmədə təbiət, əxlaq, davranış haqqında mətnlər verilmişdir. Dördüncü bölmə isə «Şairlərimizin tərcümeyi-halı» adlandırılmışdı. Burada verilən «Şeyx-əl şüəra Füzuli», «Molla Pənah Vaqif», «Mirzə Fətəli Axundov», «Ədib şair Əli bəy Hüseynzadə», «Mərhum



Sabir» və başqa materiallar maraqlıdır. Özü də bu materialların bəzilərini A. Şaiq şairlərin kitablarından və özlərindən almışdır. O, bu haqda belə yazırdı: «1909-cu ildə «Gülzar» adlı müntəxəbatı tərtib etdiyim zaman Sabir və Səhhətin tərcümeyi-halını o il özlərindən öyrənmişdim» (71, s.35). Bu dərsliklərdə diqqəti çəkən əsas cəhətlərdən biri də budur ki, A.Şaiq yuxarıda adları çəkilən korifeylərlə bərabər o dövrdə adının çəkilməsi az qala qadağan edilmiş Ə.Hüseynzadənin də tərcümeyi-halını vermişdir. Zaman göstərdi ki, o, «Türkləşmək, İslamlaşmaq, Avropalaşmaq» ideyasının banisini xalqa tanıtmaqla bərabər, Ə.Hüseynzadənin ideya və fikirlərini düzgün qiymətləndirmiş, dolayısı da olsa onunla həmfikir olduğunu göstərmişdir. «Gülzar»ı başqa dərsliklərdən fərqləndirən müsbət cəhətlərdən biri də şagirdlərdə ətraf mühitə, təbiət və cəmiyyətdə baş verən hadisələrə maraq oyadan parçaların verilməsidir. Bu da A.Şaiqin əvvəlki dərsliklər haqqında həmkarlarının tənqidi fikirlərindən nəticə çıxardığını, dərsliyin bir bölməsi üçün materialların seçilməsinə ciddi yanaşdığını göstərir. Dövrün görkəmli maarifçiləri «Gülzar»ın nəşrini tarixi bir hadisə kimi qiymətləndirərək kitab haqqında öz qiymətli fikirlərini söyləmişlər. A.Şaiqin pedaqoji fəaliyyətini, onun yeni məzmunlu proqram və dərsliklərin hazırlanması işini daim izləyən və alqışlayan Firudin bəy Köçərli dərsliyi bəyənərək yazırdı: «Gülzar»da təlim və tədrisə dair məlumat çoxdur. Belə ki, ali siniflərdə oxuyan şagirdlərə ən yararlı və ən münasib kitabdır. Xüsusən onun üçüncü hissəsi mənə xoş gəldi» (79, s. 42) (kitabın üçüncü hissəsi «Tarixə dair» adlanır, müəllif bu hissədə tarixi məlumatlar vermişdir – M.M.). Daha sonra 15 dekabr 1913-cü il tarixli məktubunda F.Köçərli kitabın müsbət cəhətlərini göstərməklə, bəzi ədəbi materialların dilini tənqid edərək «dərsliyin ikinci çapında mütləq dil xətalarını islah etməyi» (64, s.43) ona məsləhət görürdü. İrəvanda yaşayan, A.Şaiqin dərsliklərinin və bədii əsərlərinin həmin mahalda təbliğatçısı olan (sonralar «Azərbaycanda tədris metodikası tarixi» əsərinə görə pro-

fessor adını almışdır – M.M.) görkəmli pedaqoq Cabbar Məmmədzadə «Gülzar»ı gözəl və ətirli güllərə bənzədərək yazırdı: «Belə bir kitaba ehtiyacımız qayət dərəcədə çoxdan var idi. Seminariyanın ikinci və üçüncü klasslarında kitabsızlıqdan sıxıntı çəkirdim. Allah səni çətinlikdən qurtarsın» (19, s. 14).70-ci illərdən sonra «Gülzar» dərsliyi A.Şaiqin həyat və yaradıcılığını araşdıran tədqiqatçıların da diqqət mərkəzində olmuş və onlar tərəfindən yüksək qiymətləndirilmişdi. Bu tədqiqatçıların arasında Əflatun Məmmədovdan fərqli olaraq dosent Alməmməd Alməmmədovun araşdırmaları daha əhatəli olub diqqəti cəlb edir. O, dərsliyin quruluşunu geniş təhlil edərək yazır: «Müntəxabatın quruluşu, seçilmiş parçaların maraqlı olması, şagirdlərdə ətraf mühitə, təbiət və cəmiyyətdə baş verən hadisələrə maraq oyatması «Gülzar»ı başqa dərsliklərdən köklü surətdə fərqləndirən müsbət cəhətlərdir. A.Şaiq kitabın hər bölməsinə, ədəbi-bədii materialların seçilməsinə ciddi yanaşmış, ənənəyə sadiq qalaraq klassik Azərbaycan və rus ədəbiyyatından parçalar, tərcümələr vermiş, lazımı tarixi məlumatlar daxil etmişdir. Çox maraqlıdır ki, ruscadan tərcümə edilib müntəxabata daxil edilən on yeddi şeir və bir nəsr nümunəsi indi də öz aktuallığını itirməmiş, A.Səhhətin, A.Şaiqin, ən yaxşı tərcümələri kimi oxunmaqdadır» (9, s. 19). Dosent A.Alməmmədov bir neçə ildən sonra bu mövzuya qayıdaraq başqa bir məqaləsində yazır: «Tərcüməçi A.Şaiq müntəxabatın tələbinə uyğun olaraq orijinalda göstərildiyi kimi qəhrəmanın sərxoşluğundan, yalan danışmasından bəhs etmir. Əsərin sujetini tamamilə saxlamaq şərti ilə o, adları da dəyişdirir» (8, s.21). «Gülzar»da müəllifi və tərcüməçisi göstərilməyən, yalnız «ruscadan tərcümə» qeydi ilə verilən parçalar, şeir və nəsr nümunələri də vardır. Belə hekayələrdən biri də «Bir dustaq»dır. Hekayədəki kiçik quş məhbusa məsləhət verir ki, sən övladına «yaxşılığa da yaxşılıq, fənalığa da yaxşılıq etməyi tövsiyə et, belə olan halda tezliklə zindandan çıxarsan». Hekayənin məzmun və məqsədini təhlil



edərək A.Alməmmədov göstərir ki, «Azərbaycanın maarifçi ziyalıları, xüsusilə müəllim yazıçılar o cümlədən, A.Şaiq, S.Axundov və başqaları bəzən öz əsərlərində dərslik və hekayələrində yamanlıqda da «yaxşılıq ideyasını əks etdirmişdir» (8, s.22). Ümumiyyətlə, «yamanlıqda da yaxşılıq» ideyası əsrin əvvəllərində tolstoyçuluqla əlaqələndirilərək, fəlsəfənin mürtəce, qəbul olunmaz cəhəti kimi qiymətləndirilməsinə baxmayaraq, bu ideya A.Şaiqin istər pedaqoji (xüsusilə dərsliklərində), istərsə də bədii yaradıcılığında «qırmızı xətt»lə keçir. Təlim və tərbiyə verdiyi gənc nəslin şüuruna mütərəqqi saydığı «yamanlığa da yaxşılıq»la cavab vermək kimi bəşəri hisslər aşılaması, sözsüz ki, A.Şaiqin özünün bu hiss və duyğularla yaşamasından, millətin xilasını bu ideyada və maariflənməkdə görməsindən irəli gəlirdi. A.Şaiqin «Gülzar» və eləcə də inqilabdan əvvəl tərtib edilmiş digər dərslikləri Azərbaycan Demokratik Cümhuriyyəti dövründə yüksək dəyərləndirilərək öz həqiqi qiymətini almışdır. Bu barədə Aytən Qəhrəmanovanın «Azərbaycan Demokratik Respublikasında xalq maarifinin təşkili yolları» mövzusunda namizədlik dissertasiyasında geniş bəhs edilmişdir. Lakin dissertasiyaya müraciət etməmişdən əvvəl professor Camal Əhmədovun 1956-cı ildə «Ədəbiyyat və incəsənət» qəzetində A. Şaiqin yaradıcılığından bəhs edən «Yazıçı,tərbiyəçi» məqaləsindən gətirilmiş bir sitata münasibət bildirmək yerinə düşərdi. Professor Camal Əhmədov yazır: «A.Şaiqin pedaqoji fəaliyyətinin 20 ili inqilabdan əvvəlki dövrə təsadüf edir. Bu elə bir dövr idi ki, kapitalist Bakısında irtica çox qüvvətli idi, xalq maarifi ciddi böhran keçirirdi» (26, s.5). Əvvəla, burada xronoloji ardıcıllıq baxımından tarixi yanlışlığa yol verilmişdir. Proletar inqilabının Rusiyada 1917-ci ilin fevralında, Azərbaycanda isə 1920-ci ilin aprelində qələbə çalması hamıya məlumdur. 1917-ci ilin martından 1918-ci ilin mayına qədər Bakıda və eləcə də Azərbaycanda həqiqətən də irtica tüğyan edirdi, nəinki xalq maarifi, eyni zamanda bütün fəaliyyət sahələri böhran içində idi. 1918-ci ilin

mayın 28-də Tiflis şəhərində Azərbaycanın istiqlaliyyəti elan edildi. Azərbaycan Demokratik Cümhuriyyəti hökuməti ilk günlərdən siyasi, iqtisadi, sosial problemlərin həlli üçün Müsavat Partiyası proqramını əsas olaraq qəbul etdi. Proqram dövlət quruluşu və muxtariyyət, milli, dini məsələ, vətəndaşlıq hüququ, iqtisadi və maliyyə, torpaq, məhkəmə məsələləri ilə yanaşı xalq maarifi məsələlərinin də yeni demokratik prinsiplər əsasında həlli yollarını irəli sürmüşdür. Proqramda deyilirdi:

1. Maarif sahəsində bütün vətəndaşlar milliyyətindən və cinsindən asılı olmayaraq bərabərdirlər.

2. Məktəb məsələlərinin həllində yerli orqanlara və şəxsi adamlara idarə etməkdə istənilən qədər təşəbbüskarlıq göstərmək ixtiyarı verilsin.

3. Xalqa tam təhsil azadlığı verilsin.

4. Müxtəlif tipli məktəblər arasında sıx ardıcıl əlaqə yaradılsın, yəni ibtidai məktəb kursunu bitirərkən ali ibtidai, oradan da ali təhsil müəssisələrinə daxil ola bilsinlər.

5. Universitetlər və ali təhsil müəssisələri daxili qaydaları tənzimləməkdə və təhsil məsələlərinin həllində tam müstəqil olsunlar.

6. Ali məktəblərə xalq arasında maarif və mədəniyyəti yaymasında heç bir maneçilik olmasın.

7. Yerli özünüidarə orqanları təlim və tərbiyə məsələlərinin həllində tam müstəqil olsun.

8. İbtidai və ali ibtidai məktəblərdə təhsil ümumi, pulsuz və icbari olsun.

9. Yerli özünüidarə təşkilatları yaşlılar üçün ümumtəhsil kursları açsın.

10. Xüsusi texniki və kənd təsərrüfatı məktəblərinin açılması zəruridir.

11. Yerlərdə çoxluğu təşkil edən millətlərin ibtidai və orta təhsili ana dilində aparılsın.



12. Orta məktəblərdə türk və rus dillərini öyrənmək məcburidir.

13. Ali məktəblərdə təhsil türk dilində həyata keçirilsin.

14. Tələb olunan miqdarda kişi və qadın gimnaziyaları açılsın.

15. Azlıqda qalan millətlərin uşaqlarından bir sinifdə 40 şagird olarsa, təlim onların ana dilində aparılsın.

16. Azlıqda qalan millətlərdən müəyyən miqdarda uşaq toplanarsa onlara ibtidai, orta və ali məktəb açmaq və ana dilində oxumağa icazə verilsin».

Bu humanist və demokratik maddələr Azərbaycan Demokratik Respublikası qurulduqdan sonra hökumət tərəfindən tədricən həyata keçirilmişdir (85, s.44-49).

«ADR –in birinci maarif naziri N.Yusifbəyli tərəfindən əsası qoyulan milliləşmə prosesi 1919-cu ildə Rəşad bəy Kapçanovun Maarif Nazirliyi dövründə daha da təkmilləşdi. Rəşad bəy birinci əmrində yazırdı: «1918-ci il qərarına əsasən əmr edirəm:

1. Cari tədris ilində türk dilində birinci və ikinci kişi gimnaziyaları, hazırlıq şöbələri və birinci siniflər açılsın.

2. İkinci gimnaziyadakı rus dilində olan hazırlıq şöbəsi və birinci siniflər bağlanılsın.

3. Birinci realnı məktəbdə türk dilində üçüncü sinif açılsın və rus dilində olan hazırlıq sinfi bağlanılsın.

4. İkinci Balaxanı realnı məktəbində II sinif, I və hazırlıq sinifləri açılsın. Bu məktəblərdə dərsləri rus dilində keçən paralel siniflər saxlanılsın.

5. I milli Qadın Gimnaziyasında türk dilində II sinif açılsın. Rus dilində olan birinci sinif bağlanılsın.

6. III və IV kişi, II, III, IV qadın gimnaziyalarında dərslər rus dilində aparılsın» (50, s.50).

Əmrdən göründüyü kimi Maarif naziri milliləşmədə anarxizmə yol vermədən rus şöbələrinin şagirdlərinə yuxarı siniflərdə təhsillərini tamamlamaq üçün imkan yaratmış , aşağı sinifləri isə

inqilabi yolla milliləşdirmişdi.

Göründüyü kimi, professor C.Əhmədov tariximizin ən qanlı-qadalı, eyni zamanda şərəfli bir səhifəsinin üstündən sükutla keçmişdir, bu da sözsüz ki, 50- 60 -ci illərdə 1918-20-ci illər Azərbaycanın başına nələr gəldiyini bilmək, araşdırmaq çətin, ağlagəlməyən bir iş olmasından irəli gəlirdi. Nəinki alim pedaqoqlarımız, hətta «tarixçilərimiz də həmişə bu dövrü qarşılarında böyük bir dağ timsalında görmüşlər və buna görə də bu dağı aşmaq əvəzinə, onun həndəvərindən keçib getmişlər. Beləliklə də ölkəmizin və xalqımızın yaxın keçmişi qaranlıq qalmışdır» (33, s. 15). A.Qəhrəmanova dissertasiyasında göstərir: «1918-ci il dekabrın 13-də çağırılmış müəllimlər qurultayının səkkizinci iclasında xüsusi komissiya yaradıldı. Komissiyaya Bakı Xalq Məktəbləri direktoru S.M.Qənizadə, Şuşa - Cavanşir qəzalarının inspektoru Haşımbəy Nərimanbəyov, Naxçıvan qəza xalq inspektoru Rə-şidbəy Əfəndiyev daxil edildi. Komissiya geniş müzakirələrdən sonra aşağıdakı dərsliklərin çapına icazə verdi: «Dördüncü və beşinci siniflərdə Abdulla Şaiqin «Gülzar» kitabından dərslik kimi istifadə edilsin» (50, s.67). Tədqiqatçı daha sonra yazır: «Azərbaycan Demokratik Cümhuriyyəti dövrünün maraqlı dərsliklərindən biri də Abdulla Şaiqin dördüncü və beşinci siniflər üçün tərtib etdiyi «Gülzar» dərsliyi idi. Dərslik üç hissədən ibarətdir: Birinci təbiətə dair, ikinci; məişətə dair, üçüncü; tarixə dair. Bu dərsliyin xalq arasında şöhrət tapmasının əsas səbəblərindən biri islam tarixindən ayrı-ayrı maraqlı materialların verilməsi, xalq məişətini, adətlərini ifadə edən, Füzuli, Vaqif, Sabir, Səhhət, S.Ə.Şirvaninin əsərlərindən maraqlı parçaların oraya əlavə edilməsidir. Dərslikdə verilən mətnlər vətənin çölü, səhrası, dağı , təbiəti, heyvanları, coğrafi adları, xeyirxah adamları, ağbirçək, müdrik anaları, qəhrəman oğulları, alimləri ilə tanış edib, uşaqlarda Azərbaycanda nə yaxşı şey varsa, ona hörmət və ehtiram hissi tərbiyə edir» (50, s. 67-68). «Gülzar»ın ardınca 1919-cu ildə Abdulla Şaiqin pedaqoji fəaliyyətinin birinci mərhələsinin məhsulu olan «Uşaq gözlüyü», «Türk çələngi», H.Cavidlə birgə yazdığı «Ədəbiyyat dərsləri» çapdan çıxmışdır. Lakin Abdulla Şaiq təkcə ədəbiy-yat dərslikləri deyil, eyni zamanda ana dilimizin qrammatikasına dair bir sıra dərsliklər də hazırlamışdır. «Onun «Türk dilinin qrameri» (38 səhifə), «Nəhv» (49 səhifə), «Dil qaydaları» (34 səhifə), «Şəkilçi» (16 səhifə) adlı dərs vəsaitləri onun arxivində əlyazması şəklində saxlanılmaqdadır» (38, s.23). Əsasən iyirminci illərin əvvəllərində qələmə alınımış bu əsərlər haqqında ədibin yaradıcılığına həsr olunmuş tədqiqatlarda məlumat verilməsinə baxmayaraq, indiyə kimi müasir dilçilik elminin öyrənilməsi baxımından xüsusi tədqiqat obyekti olmamışdır. O dövr üçün çox qiymətli olan bu əsərlər Abdulla Şaiqin Azərbaycan (Türk – M.M.) dilinin qayda- qanunlarını dərindən bildiyinin göstəricisi kimi çox əhəmiyyətlidir. Bu əsərlər arasında «Türk dilinin qrameri» həcmi və məzmununa görə daha sanballıdır. «Dərslik dörd hissədən ibarədir:

1. Giriş- müqəddimə;
2. Sövtiyyat- fonetika;
3. Damarlar- köklər;
4. Şəkliyyat.

Girişdə dil haqqında geniş məlumat verilir. Doğma dilin xalqın həyatında, onun inkişafında böyük rol oynadığını göstərən A.Şaiqə görə, dili yaxşı bilmək üçün üç əsas cəhəti öyrənmək lazımdır: "səsləri, damarları və şəkilçiləri» (39, s.24). Əsərin sonrakı bölmələrində bu struktur üzrə məlumatlar verilir. Səslər bölməsi fonetikanın tərifi ilə başlayır: «Hər sadə kəlmələr səslərdən qurulur. Səslərdən bəhs edən qismə sövtiyyat deyilir». Sonra səs və hərfə tərif verilir, dilimizdə olan danışıq səsləri geniş, dar, mütəvvər (dodaqlanan), qeyri-mütəvvər (dodaqlanmayan), səqil (qalın, dil arxası), xəfif (dilönü, incə) olaraq növlərə bölünür, onların xüsusiyyətləri izah olunur. Qeyd etməliyik ki, əsərdə termin fərqlərini nəzərə almasaq, saitlərin bölgüsü indi-

ki bölgülərə uyğundur. Yalnız geniş və dar saitlərin müasir dilə dair kitablarda bölgüsü indi daha da dəqiq verilmişdir.» (39, s.24). Daha sonra müəllif ahəng qanununu, «damarlar- köklər» haqqında geniş məlumat verir. Dərslikdə «şəkliyyat» bölgüsü də ətraflı verilmişdir. Söz yapıcıları (sözdüzəldici, sözdəyişdirici şəkilçilər) haqqında məlumat verdikdən sonra felin zamanlarından bəhs edir. Müasir qrammatikadan fərqli olaraq bu dərslikdə felin iki zamanının olduğu göstərilir: keçmiş (maril), gələcək zaman. Lakin çağdaş qrammatikadan fərqli olaraq burada «idi, imiş, ikən, isə yardımçı fellər adı altında verilir, fellər müxtəlif şəkilçilər qəbul edərək şəxsləndirilir. İkinci dərslik «Nəhv»dir. «Belə ehtimal etmək olar ki, bu «Türk dilinin qrameri» əsərinin ikinci hissəsidir» (39, s.25). Burada cümlə üzvlərindən geniş bəhs edilir, çalışmalar, tapşırıqlar verilir.

Kiçikyaşlı uşaqların tərbiyəsi A.Şaiqi bir pedaqoq kimi dərindən düşündürürdü. Çünki bu yaş dövründə uşaqlar danışmağı, düşünməyi, hiss etməyi, ətraf mühiti dərk etməyi, yaxşını yamandan seçməyi, davranış qaydalarını öyrənir ki, bu da gələcəkdə onun bir şəxsiyyət kimi formalaşmasında, inkişafında bu və ya digər dərəcədə rol oynayır. Onun fikrincə, bu yaş dövründən başlayaraq uşaqları xüsusi tərbiyə ocaqlarına cəlb etməli, burada onlara elmə əsaslanan, lakin təcrübədə özünü doğruldan tərbiyə verilməli, vərdişlər aşılanmalı, məktəblərə hazırlanmalıdırlar. Bu məqsədlə o, «1915-ci ildə Dağıstanda yerləşən xalq məktəbləri inspektoruna «uşaq bağçası» açmaq üçün müraciət edir». (109) Dağıstandan onun müraciətinə cavab olaraq vilayət üzrə xalq məktəbləri inspektoru Bakı realnı məktəbinin direktoru Denfere 870 nömrəli təliqə ilə məktub göndərilir. Məktubda deyilirdi: «Azərbaycan dili müəllimi Mirzə Abdulla Talıbzadə uşaq bağçası açmaq təşəbbüsü qaldırır. Bu barədə fikrinizi deyin» (109). Elə həmin ildə «Açıq söz» qəzeti də özünün «Uşaq bağçası» adlı məqaləsində A.Şaiqin təşəbbüsünü müdafiə etmişdir. Lakin gənc müəllimin göstərdiyi səylərə baxmayaraq



onun bu təklifi həyata keçməmişdi (51, s.149). Amma Abdulla Şaiq ruhdan düşməmiş, bu illər ərzində bədii yaradıcılıqla daha yaxından məşğul olmuş, əvvəllər yazdığı bir sıra əsərləri təkmilləşdirmişdir. «Bu illərdə Firudin bəy Köçərliyə həsr etdiyi «İki familiyanın məhvi» poemasını bitirərək 1916-cı ildə «Doğru söz» qəzetində dərc etdirir» (51, s.150).

Birinci Dünya müharibəsi davam edirdi. Müharibə mütərəqqi fikirli ziyalılar kimi A.Şaiqi də sarsıdırdı. Bu hətta onun yaxın dostlarına yazdığı məktublar da aydın hiss olunurdu. «Məktublar» A.Şaiq yaradıcılığının birinci dövründə mühüm bir mərhələ təşkil edir. Bu dövrdə bir çox müasirləri ilə məktublaşmış, bu məktublar vasitəsilə onlarla təlim-tərbiyə, dərsliklərlə bağlı məsləhətləşmələr aparmışdır. Bunların arasında 1905-1907-ci illər inqilabının təsiri ilə Azərbaycanda başlanan maarifçilik hərəkatında tarixi xidmətləri olmuş Firudin bəy Köçərli ilə olan əlaqə daha davamlı, uzunmüddətli olmuşdur. 1907-17-ci illəri əhatə edən bu dövr ərzində qısa fasilələrlə A.Şaiq F.Köçərliyə iyirmi dörd, F.Köçərli isə ona on üç cavab məktubu yazmışdır. «Təəssüf ki, Şaiqin göndərdiyi məktublardan heç biri əldə yoxdur. Lakin F.Köçərlinin cavab məktublarının məzmunu göstərir ki, onların arasında yaxın yaradıcılıq əlaqəsi olmuş və hər ikisi XIX əsrin sonu və XX əsrin əvvəlləri üçün xarakterik olan pedaqoji problemlərin (xüsusilə dərslik və proqramların hazırlanmasında) həllində bir-birinə fəal köməklik göstərmişlər» (79, s.135). Bu xüsusda A.Şaiq öz «Xatirələrimdə» yazır: «F.Köçərli öz məktublarında təkcə məni və ailəmi soruşmaqla kifayətlənməz, eyni zamanda poçta ilə ona göndərdiyim yeni əsərlərimi təhlil edər, onların müvəffəqiyyət və nöqsanlarını göstərər, nədən və necə yazmaq haqqında öz mülahizələrini bildirər, Azərbaycan, rus və Avropa yazıçılarının əsərlərindən gətirdiyi nümunələrlə fikirlərini daha da möhkəm əsaslandırardı» (69, s.143). Professor Kamal Talıbzadə «Məktublar»ın geniş təhlilini verərək yazır: «Məktubların məzmunu göstərir ki, F.Köçərli A.

Şaiqin ədəbiyyat və pedaqoji sahədə fəaliyyətini ardıcıl izləmiş və onu yüksək qiymətləndirmişdir. O, A.Şaiqə göndərdiyi 5 dekabr 1908-ci il tarixli məktubunda yazır: «Təlimi-qiraət üçün «üçüncü» və «dördüncü il»in tərtibinə şüru etməyiniz şayani-təhsim və təbrikdir» (79, s. 239) «Məktublar»dan aydın olur ki, F.Köçərli hiss etdiyi qüsurları cəsarətlə demiş və iradları inandırıcı şəkildə əsaslandırmışdır. Lakin A.Şaiq bu tənqidlərdən inciməmiş, əksinə, yaşca ondan çox böyük olan həmkarının tənqidlərindən faydalanmış, «onları «məslək duası» kimi qəbul etmişdir» (79, s.241). Qoridən yazdığı 26 may 1920-ci il tarixli məktubunda F. Köçərli yetişməkdə olan nəslin inkişafında bədii ədəbiyyatın oynadığı rolu yüksək qiymətləndirərək gənc dostuna sadə, hamının başa düşəcəyi bir dildə yazmasını tövsiyə edir. O yazırdı: «...xırdaca uşaqlar üçün yazılan nağıl və hekayələr nə qədər asan və sadə olsa, nə qədər açıq dildə yazılsa və uşaqların fəhminə yaxın olsa, bir o qədər mənzurdə olan məktəblər artıq dərəcədə hasilə gəlib yaxşı meyvələr gətirər» (79, s.242). A.Şaiqin «Xatirələr»indən məlum olur ki, təkcə o yox, digər yazıçılar da F.Köçərlinin məsləhətlərinə ciddi yanaşmışlar: "...mümkün qədər daha yaxşı yazmağa səy edər və əsərlərimizi onların ilk tənqidçisi olan F.Köçərliyə göndərərdik. Şəxsən mən «Tülkü həccə gedir», «Yaxşı arxa», «Tıq-tıq xanım», «Köç» və s. əsərlərimi F. Köçərliyə göndərmişəm» (69, s.45). Məktəblərdə təlimin ana dilində aparılması, dərsliklərin ana dilində yazılması, ana dilinin saflığı uğrunda mübarizə F. Köçərlinin ədəbi, elmi, pedaqoji yaradıcılığının əsas cəhətlərindən biridir. Bu mənada o, gənc A.Şaiqi özünün ardıcıllarından biri hesab edirdi. On üç məktubdan səkkizininn məhz ana dili, onun sadəliyi, saflığı ilə bağlı olaraq yazılması fikrimizi bir daha təsdiq edir. «10 fevral 1913-cü il ta¬rixli məktubunda böyük maarifçi yazırdı: «Allah bizə verən dili əlimizdən almağa heç kəsin ixtiyarı yoxdur. Amma hamı borcludur o dilə rövnək verib onu dövlətləndirsin». Dünyada hər şeyin dəyişdiyini, inkişaf etdiyini göstərərək 14



iyun 1911-ci il tarixli məktubunda bu barədə yazırdı: «Dilə də lazım tərəqqi verməк. Amma dilin şivəsini itirmək və üslubunu pozmaq böyük fəsatdır». Daha sonra o, ədəbi dilin mətləbləri və inkişaf yolları haqqında bir sıra dəyərli və elmi fikirlər yürüdürdü» (79, s. 249-250). A.Şaiq F.Köçərlinin üç cildlik «Azərbaycan türklərinin ədəbiyyatı» kitabının nəşri ilə çox maraqlanmış və ona ədəbiyyat tarixinə və folklora dair materiallar əldə edib göndərmişdir. F. Köçərli bu materialların tarix üçün əhəmiyyətini təkrar-təkrar qeyd edərək yazırdı: «Niyyətim pul qazanmaq deyil, ancaq ədəbiyyatımıza cüzi xidmət etməkdir» (14 sentyabr 1912-ci il)» (79, s.252). Edadi orta məktəb qeyd:M.M məktəblərin proqramları üzərində işləyən F. Köçərli 6 mart 1917-ci il tarixli məktubunda A.Şaiqin tərtib etdiyi proqramı bəyəndiyini söyləyərək orada yazılan hər maddənin cümləsinə əməl olunacağına, bütün şagirdlərin türkcə yaxşı savad alacaqlarına şübhə etmədiyini bildirir. Böyük maarifçi təlim-tərbiyə işinin milli-mənəvi irsə əsasən qurulmasında müəllimi başlıca sima sayırdı. Elə həmin məktubunda yazırdı: «Hər bir peşənin və elmin təlim və tədrisində müəllimin vücudu böyük şərtdir. Əgər müəllim istəsə, hər qism şürutə mühit iqrə olmuş olsa da, öz şagirdlərinə çox şey öyrədə bilər. Qabil və insaflı müəllimin əlində naqabil və korafəhm şagird də az-çox elm və biliyə dara ola bilər və belə kəs şövqsüz və insafsız müəllim qabil və zirək şagirdi də elmə olan şövq və həvəsdən salar» (69, s.54). Böyük maarifçinin uzaqgörənliklə söylədiyi fikirləri bizcə, bugünkü cəmiyyətimizdə çalışan hər bir müəllimə düşünmək üçün qida, müstəqil ölkənin vətəndaşlarını yetişdirmək işində öz fəaliyyətlərini tənzimləmək üçün bir mənbədir. Məktublarda daha sonra maarif sistemindəki nöqsanlardan, bürokratizmdən, çarizmin milli dilləri sıxışdırmaq siyasətindən, müəllimlərin vəziyyətindən, Birinci Dünya müharibəsinin ədəbi-mədəni həyata ağır təsir göstərməsindən ürək ağrısı ilə danışılır. On illik bir dövrü əhatə edən «Məktublar» XX əsrin əvvəllərində Azərbaycan icti-

mai-mədəni həyatının müəyyən dövrünün bir sıra mühüm məsələlərini: ədəbiyyatı, pedaqoji fikir tarixini, təhsil, dil, əlifba ilə bağlı problemləri, dəyişiklikləri qismən özündə əks etdirməklə bərabər F. Köçərli və A.Şaiq kimi maarif fədailərinin elmi-pedaqoji fəaliyyətini tədqiq edib öyrənmək baxımından da dəyərlidir. A.Şaiqin uzun müddət məktublaşdığı şəxsiyyətlərdən biri də Mirzə Cabbar Məmmədzadədir. O, M.C.Məmmədzadə ilə 1911-ci ilin yayında tanış olmuşdur. Dövrün maarif fədailərindən olan M.C.Məmmədzadə 1902-ci ildə İrəvanda Müəllimlər Seminariyasını bitirdikdən sonra müxtəlif kənd və şəhərlərdə müəllimlik etmiş, pedaqoq nəzarətçi işləmiş, məktəb müdiri olmuşdur. Şaiq, Səhhət və başqaları öz əsərlərini şagirdlərə öyrətmək, dərsliyə, proqrama daxil etmək və İrəvan-Naxçıvan dairələrində oxuculara çatdırmaq və, bəzən çap etdirmək üçün ona göndərərdilər. Əsasən məktublar vasitəsi ilə olan bu əlaqə 1915-ci ilə qədər, yəni M.C.Məmmədzadə Bakıya köçənə qədər davam etmişdir. Məktubların geniş şərhini verən yazıçı Ə.Cəfərzadə yazır: «Bu 24 məktubdan birisi Mirzə Cabbar Məmmədzadənin atası şair və alim Abbas Razi tərəfindən yazılmışdır, qalan 23 ədəd məktub müxtəlif şəhərlərdən M.C.Məmmədzadə tərəfindən A.Şaiqə göndərilmişdir. Məktublarda Şaiq dostundan onun kitablarını yaymağı, proqrama və dərsliklərə daxil edilməsini xahiş edirdi» (19, s.14.) Lakin A.Şaiqin kitablarını bir dərslik kimi yaymaq işində M.Cabbar çətinlik çəkmişdir, ancaq o, bu çətinliklərdən qorxmamış, məqsədinə nail olmaq üçün davamlı olaraq çalışmışdır. Bu onun A.Şaiqə 17 yanvar 1912-ci il tarixdə yazdığı məktubda öz əksini tapmışdır: «...İrəvanda dörd yerdə məscid yanında böyük məktəblər vardır. Bir aydan artıqdır ki, mən o məktəblərin müəllimlərini başa salıb, qandırıb razı etmişəm ki, bu məktəbləri birləşdirib müəzzəm bir darülelm düzəldək, təzə üsul ilə lazımi elmlərdən ki, rus məktəblərində keçirlər, dərs verək ki, oradan qurtaran uşaq bir zad anlasın. O müəllimlər əvvəl razı olmurdular, çünki qorxurdular ki, məktəb



nizama düşəndən sonra mən onları və onların dərs verməyini bəyənməyib onları kənar edəcəyəm. Axırda mən onları inandırdım ki, böylə iş olmayacaq və iş düzəldi. Əlan haman məktəblərin müəllimlərini imtahan edirəm ki, dərəcələr düzəldib bir aya kimi onları birləşdirib biçarə və məsum balaları sizə məlum olan əziyyət və məşəqqətlərdən qurtaram. Bu dörd məktəbdə üç yüzə yaxın uşaq var. Bunların içində neçə zəki, zirək uşaqlar var ki, onları yaxşı qayda ilə oxudandan sonra müəllimin zəhmətini itirməyib cəmiyyətimiz və millətimiz üçün nafi bir vücud olarlar. Hələlik də özüm bir proqrama düzəldib onunla dərsləri aparacağıq, sonra, yəni bu sentyabr ayına kimi Bakıdakı səadət məktəbinin proqraması ilə aşna olub dərslərə təğyir verəcəyəm. Sizin «Uşaq gözlüyü» kitabını həmin məktəbdə əvvəlinci dərəcədə mübtədilər üçün dərs kitabı yazıb onunla dərs verəcəyik. İndiyə kimi ana dili oxumurdular. Sizin kitabın mühəssənatını bir-bir müəllimlərə qandırıb onlardan bu kitaba bir məhəbbət qövzadım. Siz özünüz bilirsiniz ki, o, cənablarda tənqid yoxdur, elə kitab kitabdır, hansı olacaq olsun, dərs de getsin, qabaqdakının canı çıxsın, hərgah belə olmasa idi «Tarixi-nadir» «Gülüstan»ı gərək çoxdan boşlamış olaydılar və halbuki, indi yenə «Gül -şəni-ədəbiyyat» əvəzinə «Tarixi-nadir» oxudurlar, çünki uşağın atasının xahişi belədir. Nə deyim, nələr deyim, nələr var, bizim xaraba qalmış köhnə məktəblərimizdə. İnsan diqqətlə baxanda ürəyi parçalanır. Qərəz ümidvaram ki, Allahın köməkliyi ilə İrəvandakı məktəblərimizi bir təhər qaydaya salıb rahat olam. Sizin «Gülşəni-ədəbiyyat» kitabınıza ağanın kitabından sonra qərar verdim» (19, s.18). Məktubda eyni zamanda təhsilin problemləri və çətinliklər də öz əksini tapmışdır. C.Məmmədzadə Şaiqin «Gülzar», «Gülşəni-ədəbiyyat», «Uşaq gözlüyü», «Gözəl bahar», «Bədbəxt ailə» və onlarca başqa əsərlərini [illegible] sək qiymətləndirib proqrama daxil etmişdir. Sonralar C[illegible] mədzadə Bakıya köçmüş və fəaliyyətini burada davam etdirmişdir. F.Ağazadə və S.Ağamalıoğlu ilə birgə yeni latın əlifbası ilə

ilk dərsliyi yazmışdır. XIX yüzilliyin ikinci yarısında ədəbi dilimizin saflığı uğrunda M.F. Axundov və H.Zərdabi tərəfindən əsası qoyulan mübarizə XX əsrin əvvəllərində C.Məmmədquluzadə, M.Ə.Sabir, F.Köçərli, Ü.Hacıbəyli, N.Nərimanov, A.Şaiq, S.M.Qənizadə, Ə.Haqverdiyev, Ə.Nəzmi, Ə.Qəmküsar və başqalarını demokratik cəbhədə birləşdirdi. Köhnə məktəb və köhnə tərbiyə əleyhinə yazılmış ədəbi-pedaqoji əsərlər demokratik ruhlu mətbuatın köməyi ilə şüurlara yol tapır, inkişafa, tərəqqiyə şərait yaradırdı. Milli dilə münasibətdə C.Məmmədquluzadə, F.Köçərli, M.Ə.Sabir, Ü.Hacıbəyli ilə bir cəbhədə dayanan A.Şaiq də ədəbi dili sadələşdirmək, onu həm leksik, həm qrammatik cəhətdən xalq danışıq dilinə yaxınlaşdırmaq tərəfdarı idi. Bu ümumi fikrə qarşı duranları onlar həmişə rədd edirdilər. Bir qayda olaraq xalqdan öyrənməyi, xalqa üz tutmağı, yeganə düzgün yol hesab edirdilər. A.Şaiq «Dilimiz və ədəbiyyatımız» adlı məqaləsində Azərbaycan ədəbi dilinin formalaşmasında şifahi xalq ədəbiyyatının təsirini başlıca amil hesab edərək yazırdı: "Azərbaycan şifahi ədəbiyyatı camaatımızın sağlam bir fikrə və ülvi bir hissə malik olduğunu göstərdiyi kimi dilimizin dəxinə qədər gözəl və lətif bir dil olduğunu sübut edir» (71, s.81). Ümumiyyətlə, doğma dilin saflığı uğrunda gedən mübarizədə A.Şaiq bir sənətkar, bir pedaqoq kimi düzgün mövqe tutmuş, həmişə öndə olmuşdur. O, 1944-cü ildə də qələmə aldığı «Yazıçılarımızın və dilçilərimizin şərəf işi» adlı məqaləsində yenə bu məsələyə qayıdır, yeni ictimai siyasi quruluşda ana dilimizin saflaşması yollarını arayır, dil tarixindən söhbət açır və hazırki mərhələdə ziyalıların qarşısında duran vəzifələrdən danışır. O, hətta dövrün tanınmış ədiblərinin də əsərlərinin dili haqqında çəkinmədən fikir söyləyir. Məsələn, N.Nərimanovun əsərlərinin dili haqqında yazırdı: «N.Nərimanovun dili sadə olsa da cümlələrinin quruluşunda Azərbaycan dili üçün təbii olmayan rus dili qrammatikasına məxsus cəhətlər var idi» (80, s.87). Analoji fikirləri Əli bəy Hüseynzadənin və digər qeyri dildə təhsil alan sənətkarların əsərlərinin dili haqqında da söyləyirdi.



1917-ci il çarizmin devrilməsi, müvəqqəti hökumətin yaranması, məclisi-müəssisanın çağrılması kimi hadisələrlə tarixə yazıldı. Azərbaycan ziyalıları kimi «A.Şaiq də fevral burjua inqilabını azadlıq çırağı kimi qarşıladı. Lakin çox keçmədi ki, böyük müəllim müvəqqəti hökumətin əksinqilabi mahiyyətini anladı» (81, s. 2). Bakıda hakimiyyəti ələ almış Fəhlə Deputatları Soveti və onun əlaltıları onsuz da ağır olan Azərbaycan maarifinin vəziyyətini hər vasitə ilə ağırlaşdırmağa çalışırdılar. Mürtəce qüvvələr azərbaycanlıları rus məktəblərinə cəlb etməklə müsəlman məktəblərinin bağlanmasına zəmin yaradırdılar. «Müsavat Partiyasının orqanı olan «Açıq söz» qəzeti 1917-ci il 28 sentyabr tarixli nömrəsində belə halları tənqid edərək yazırdı: «Bakı birinci realnı məktəbinin kadet məslək müəllimlərindən bir neçəsi, anlaşıldığına görə məktəbə ərizə verməyə gələn müsəlman valideynlərini də iqfal (aldadıb – M.M) edib, bir tağım şübhəli və əsassız izahlarla onlardan 18-nin ərizəsinə «uşaqlarımızı rusca oxutmaq istəyirik» sözünü qeyd etmişlər» (51, s. 137). Belə təzadlı bir dövrdə A.Şaiqin pedaqoji fəaliyyətinin birinci dövrü başa çatırdı. A.Şaiqi yetişdirən bu dövr olduqca mürəkkəb səciyyəli, mürəkkəb xarakterli bir dövr idi. Əsrin əvvəlində çar Rusiyasını lərzəyə salan 1905-ci il inqilabı mütərəqqi ziyalıların, o cümlədən də A.Şaiqin həyata, dünyaya baxışına aydınlıq gətirərək onun formalaşmasında mühüm rol oynadı. O öz «Xatirələrinə dair qeydlərin»də yazırdı: «1905-ci il inqilabı əksər türk ziyalılarında milli qürur, milli hiss doğurduğu halda, məndə bəşəri hiss və proletariata rəğbət oyatdı» (69, s.59). Bu sözlər doğrudan da A.Şaiqin bir pedaqoq, bir ədib kimi 1901-1917-ci illər yaradıcılığının devizi olmuş və onu istiqamətləndirmişdir. Məhz buna görə də öz ədəbi-pedaqoji fəaliyyətində qabaqcıl rus yazıçılarının, pedaqoqlarının, ictimai fikrinin pərəstişkarlarından və təbliğatçılarından biri kimi çıxış edirdi. Elə tədqiqatçı dosent A.Alməmmədovun da «A.Şaiq Azərbaycan və Şərq ədə-

biyyatı tarixini dərindən bilməsinə baxmayaraq, bütün pedaqoji və ədəbi yaradıcılığı böyük rus ədəbiyyatı ilə bağlı olmuşdur» (9, s.71) fikri də bir daha yuxarıda deyilənləri təsdiqləyir. Ancaq bununla bərabər A.Şaiq rus və Qərb ziyalılarını təqlid etməmiş, əməli və nəzəri cəhətdən öz ideyası uğrunda mübarizə aparmışdı. O, rus-müsəlman məktəblərində fəaliyyət göstərən şovinistlərə qarşı vətənpərvər bir müəllim kimi kəskin mübarizə aparmış, pedaqoji fəaliyyətində böyük cəsarət göstərərək özündə milli kökə söykənən məzmunu ehtiva edən proqram və dərsliklərin yaradılmasında, Füzulinin, Vaqifin, Sabirin təbliğində fədakarlıq göstərmişdir. Lakin yaradıcılıq devizinə sadiq qalan Şaiqin klassik rus ədəbiyyatının ictimai-bəşəri, məzmunca zəngin, xalq həyatı və mənəviyyatı ilə bağlı olan ən yaxşı nümunələrini gənc nəslə çatdırmaq yolunda atdığı addımları müsbət qiymətləndirmək olar.

Ümumiyyətlə, A.Şaiqin pedaqoji fəaliyyətinin birinci mərhələsi mədəni-ədəbi həyatımızın bütün sahələrini əhatə edir. Öz həmfikirləri ilə birlikdə yeni tipli təlim ocaqlarının yaranması, təlim metodlarının, dərsliklərin işlənib hazırlanması istiqamətində bir fədai kimi çalışmış, çar hökuməti idarələrinin və burjua millətçilərinin əksinə olaraq ana dili və ədəbiyyatın tədrisinə, ana dilinin öyrədilməsi üçün tədris proqramları və dərsliklərin tərtibinə xüsusi diqqət vermişdir ki, bu da sonralar təlim-tərbiyənin milli məzmunda qurulmasında ilkin zəmin, baza olmuşdur. «Məktəbdə çocuqların əzab çəkdiyi bir qəribliyi, dil qəribliyini o illər ən çox Şaiqin bu ilk dərslikləri və tədris islahatları əritməyə başlamışdır» (49, s.55).1917-ci il inqilabı cəmiyyətin keyfiyyətcə yeni mərhələyə keçməsinə təkan verdi. Bu öncə mənəvi aləmin güclü sahəsinə çevrilmiş xalq maarifində yaranmış canlanma ilə müşayiət olunurdu. Mütərəqqi ziyalıların səyi nəticəsində cəmiyyət və məktəb münasibətləri daha sıx əlaqədə gündən-günə yeni məzmun alırdı. İnqilablar və ölkədə baş verən proseslər A.Şaiqin dünyagörüşündə köklü dəyişikliklər etdi. Bakıda erməni daşnaqlarının rus bolşevikləri ilə birgə törətdiyi qanlı cinayətlər, məktəbdə şovinist əqidəli müəllimlərin türk (Azərbaycan – qeyd M.M.) tələbələrinə qarşı haqsız münasibətləri təbii ki, A.Şaiqin baxışlarında mühüm dönüş yaratdı. Yaradıcılığının birinci mərhələsində beynəlmiləlçi bir pedaqoq, ədib kimi tanıdığımız A.Şaiqin pedaqoji yaradıcılığının ikinci dövründə, yəni 1918-26-ci illər arasındakı fəaliyyətinin məzmunu başqa bir xarakter aldı. A.Şaiqin 1918-26-ci illər fəaliyyəti forma, məzmun və keyfiyyət baxımından daha məhsuldardır. O, bu mərhələnin iyirmi üç ayını Azərbaycan Demokratik Cümhuriyyəti dövründə fəaliyyət göstərmişdir. Azərbaycan Demokratik Cümhuriyyətinin yaranması ölkənin ictimai-siyasi-mədəni həyatını kökündən dəyişdi. İstiqlaliyyətini qazanmış gənc Azərbaycan dövləti özünün siyasətinə və iqtisadiyyatına müvafiq yeni nəsl tərbiyə etməli idi. ADR-nin demokratik, humanist, milli məzmun kəsb edən maarif siyasəti bir çox ziyalılar kimi A.Şaiqin həyata keçirə bilmədiyi ideyalarının həyata vəsiqə alması üçün geniş imkanlar yaratdı. 1917-ci ildən ardıcıl mübarizə apardığı anadilli məktəbin açılması dövrün və eləcə də Şaiqin pedaqoji fəaliyyətində mühüm hadisə idi (sonralar pedaqogika tarixinə «Şaiq Nümunə məktəbi» adı ilə daxil olmuş bu məktəb haqqında ikinci fəsildə danışılacaqdır). ADR hökuməti müstəqil ölkənin milli düşüncəyə, əqidəyə malik olan vətəndaşının yetişdirilməsində təhsilin, maarifin milliləşdirilməsini önə çəkərək, onu həyata keçirəcək müəllimlərin hazırlanması istiqamətində mühüm işlər gördü. İlk olaraq türkdilli müəllimlər üçün üçaylıq kursların işini canlandırdı, milli məktəblərdə çalışacaq müəllimlər üçün ikiillik kurslar açdı. 1918-ci il dekabrın 13-də çağrılmış qurultay tarixi bir hadisə oldu. Qurultay ölkədə maarif və məktəb sahəsində mövcud vəziyyəti geniş təhlil edərək, təlim və tərbiyəyə dair mühüm qərarlar qəbul etdi. Bu qərarlar maarif sahəsində çalışan müəllimlər, məktəb müdirləri, müfəttişlər üçün fəaliyyət proqramı oldu. Bu qərarlar özünün real təsdiqini

yeni tədris plan, proqram, dərslik, dərs vəsaitində və metodik göstərişlərin hazırlanıb yayılmasında göstərdi: «Qurultaydan dərhal sonra vaxta qənaət etmək məqsədi ilə proqram və dərsliklərin vəziyyətini keyfiyyətlə müzakirə etmək üçün aşağıdakı fənlər üzrə dörd komissiya yaradıldı:

1. riyaziyyat;
2. təbiət-tarix;
3. ədəbiyyat;
4. tarix- coğrafiya.

A.Ş.Talıbzadə, M.Mahmudbəyov, S.Axundov, R.Tahirov, F.S.Kamal bəy və F.Rzabəyli ilə birgə ədəbiyyat komissiyasına daxil edildi» (43, s.67). Məqsəd milli ruhu özündə ehtiva edən məzmuna malik proqramların hazırlanması idi. Məqsəddən irəli gələrək hazırlanmış proqramlar çoxsahəli olub, uşaqların ümumdünya görüşünü genişləndirən, uşaq düşüncəsinə, psixologiyasına uyğun, təlimin əsasında marağı qoyan elmi, pedaqoji-metodiki bir sənəd kimi hazırlanmışdır. Bu proqramlarda dünyanı öyrənməklə bərabər əsas diqqət türk ölkələrinin ədəbiyyatının öyrədilməsinə yönəldilirdi. Eyni zamanda milli ruha malik, milli istiqlaliyyəti dəyərləndirən, onun qədrini bilən, lazım gələrsə canını əsirgəməyən gənclər yetişdirməklə bərabər, uşaqlarda əməksevərlik, mərhəmətli və xeyirxah olmaq, dostluqda səmimi və sədaqətli olmaq, böyüklərə və uşaqlara hörmət etmək, imkansızlara əl tutmaq, dürüstlük kimi yüksək insani, humanist xüsusiyyətlər aşılayırdı. Bununla yanaşı, proqramlarda şəriət qanunlarının öyrənilməsinə də yol verilirdi. Burada Füzuli, Vaqif, Qasım bəy Zakir, S.Ə.Şirvani kimi böyük şairlərimizin əsərləri ilə bərabər, gənc nəslin formalaşmasında müəyyən rol oynayan dini mövzuda mətnlər də verilmişdir. Qori Müəllimlər Seminariyasının Azərbaycan şöbəsinin müdiri, görkəmli maarif xadimi F. Köçərli osmanlıpərəstlərin hazırladıqları müxtəlif proqramlardan A.Şaiqin hazırladığı proqramı daha münasib hesab edərək yazırdı: «Proqramların cümləsindən ziyadə, sizin tərtib etdiyiniz



xoş gəldi. Əgər onda yazdığınız müddəaların cümləsinə əməl olunarsa, onda sizin şagirdlər kursu tamam etdikdə, gərəkdir yaxşı savadlı olsunlar. Buna da mənim şəkkim yoxdur» (79, s.56). 1918-ci ildə Maarif Nazirliyi çar Rusiyası dövründən qalan, lakin milli ruhlu ziyalıların tərtib etdikləri dərsliklərin yenidən çap edilməsinə icazə verdi. Bunların arasında A.Şaiqin yaradıcılığının birinci mərhələsində hazırladığı beş dərslik var idi (Bunlardan yaradıcılığının birinci dövründə geniş bəhs edilmişdir). 1919-cu ildə bu dərsliklər yenidən nəşr edilərək məktəbdə ana dilində əsas dərsliklər kimi istifadə edilirdi. «Elə həmin il «Azərbaycan» qəzetinin 193-cü sayında mürtəce fikirli bir şəxs olan Tofiq Nurəddin özünün «Millləşdirmək məsələsi» məqaləsində «Uşaq gözlüyü» dərsliyini tənqid etmişdir. Müəllif Abdulla Şaiqi ana dili yazı üsullarına bələd olmamaqda, rus üsulunu təbliğ etməkdə günahlandırırdı. A.Şaiq qəzetin 198-ci sayında T.Nurəddinə layiqincə cavab verərək kitabını müdafiə etmişdir» (51, s.109). Bununla bərabər yeni yaranan dərsliklər də diqqət mərkəzində idi. Onların sırasında Rəcəb Əfəndizadənin «Türk qiraəti», digəri isə Hadizadə Axund Əbdürrəhim və Möhsünzadə Ağanın «Şəriət» dərsliyi idi.Dərsliklərin gənc nəslin formalaşmasında böyük rol oynadığını qiymətləndirərək ADR onların elmi, pedaqoji və metodiki cəhətdən təkmilləşməsi üçün 1920-ci ilin fevralında çap ediləcək dərsliklərin planının müzakirəsini keçirdi. «Bu müzakirələrdə Hüseyn Cavidlə bərabər Birinci Realnı məktəbinin nəzdində olan milli siniflərdə çalışan A.Ş.Talıbzadə, C.Cəbrayıllı, D.Əfəndi, Rəşidə Sürəyya, Həkim Əfəndi və başqaları iştirak edirdilər. Dərsliklərin və əlavə oxu materiallarının aşağıdakı prinsip əsasında hazırlanması müəyyənləşdirildi: 1) yüksək vətənpərvərlik, 2) millilik, 3) maraqlılıq, 4) aydınlıq, 5) real məzmun kəsb etməsi, 6) xarici görünüşünün cəlbedici olması» (69, s.87) (burada kitabın cildinin tərtibatı nəzərdə tutulur – qeyd M. M). Dövrün mötəbər ziyalılarının iştirakı ilə keçirilən bu müzakirələrin nəticəsi olaraq, həmin altı prinsipi özündə

əks etdirən dərsliklərin və əlavə oxu materiallarının hazırlanması üçün perspektiv plan hazırlandı. Lakin bu müzakirələrdən üç ay sonra Azərbaycan Demokratik Cümhuriyyəti Rusiyanın işğalı nəticəsində süquta uğradı. Bir çox planlar kimi bu planlar da həyata keçirilməmiş qaldı. Bəzi tədqiqatçılar ADR dövründə maarif sahəsində aparılan islahatlardan məlumatsız olduqları üçün özlərinin yazılarında həqiqətə uyğun olmayan ümumiləşdirmələr verirlər. Məhz tədqiqatçı Əflatun Məmmədov da özünün 1983-cü ildə nəşr etdirdiyi «Abdulla Şaiq» kitabında bir-birinə zidd fikirlər irəli sürür. O bir tərəfdən: «maarif sahəsində daha əzmlə çalışan ədib realnı məktəbin kitabxanasını sahmana salır, «Uşaq gözlüyü» dərsliyini yenidən buraxdırır, məktəblərin ağır vəziyyətində, müəllim kadrların azlığından bəhs edən məqalələr yazır, əməli təkliflər irəli sürürdü. «Məktəblərimiz» (1919) məqaləsində isə geniş müəllimlər konqresi çağırmağı, hər yerdə müəllimlər kursu açmağı və kitab-dərslik hazırlamaq üçün xüsusi komissiyon yaratmağı lazım bilirdi. Lakin Şaiqin təkliflərinə məhəl qoyan olmadı, özü də tənqidə məruz qaldı» (51,s.109), digər tərəfdən isə elə həmin kitabda: «Şaiq 1919-cu ildə ayrı-ayrı fənlər üzrə dərslik yaradan komissiyanın üzvü idi. «Milli qiraət» kitabını Hüseyn Cavidlə, «Türk çələngi»ni M. Mahmudbəyovla məhz həmin ildə düzəltmişdir. O kitablar qabaqcıl proqramlara əsaslanır, onda maraqlı, orijinal və tərcümə əsərlərinə mühüm yer verilirdi» (51, s.110) yazır. Yenə də həmin kitabda müəllif A.Şaiqin 1 oktyabr 1917-ci ildən 10 oktyabr 1918-ci ilə qədər artırılmış maaşını ala bilməməsində yenə də Müsavat hökumətini günahlandıraraq yazırdı: «1919-cu ildə Şaiq realnı məktəbdə fəaliyyətə başlasa da, vəziyyət düzəlməmişdi. Hətta müəllimlər maddi çətinliklərə məruz qalır, maaş da ala bilmirdilər» (51, s.107). Sözsüz ki, vəziyyət həm siyasi, həm də iqtisadi cəhətdən ağır idi. Həmin dövrün, şəraitin təhlilini vermədən (tədqiqatımızın mövzusu olmadığı üçün) onu deyə bilərik ki, Azərbaycan Demokratik Cümhuriyyətinin ilk maarif



naziri olmuş Nəsib bəy Yusifbəylinin birinci əmri məhz müəllimlərin maddi vəziyyətinin yaxşılaşdırılması haqqında olmuşdur. O, Bakı qubernatoruna 1918-ci il 31 dekabr tarixli məktubunda yazırdı: «Özlərini təmənnasız xalq işinə, xalqın balalarının tərbiyəsinə həsr edən müəllimin bütün enerjisi ilə daha səmərəli işləməsi üçün məişət məsələlərinin ağırlığından azad etməliyik. Mən rica edirəm, xalq müəllimlərinə, onların bu və ya digər ehtiyaclarına kömək göstərin ki, onlar müqəddəs vəzifələrini rahat yerinə yetirə bilsinlər. Ölkənin sonrakı taleyi onların rahatlığından asılıdır» (111). Fikrimizcə, şərhə ehtiyac yoxdur. Cümhuriyyət süquta uğradıqdan sonra A.Şaiq hələ ADR dövründə əsası qoyulmuş kurslarda, Realnı məktəbin nəzdində olan «Nümunə məktəbində» və paralel olaraq işçi fakültələrində öz pedaqoji fəaliyyətini davam etdirirdi. Sovet hökuməti maarif və mədəniyyət ocaqlarının şəbəkəsini genişləndirirdi. «1920-21-ci illər arasında 350-yə yaxın belə müəssisə təşkil olunmuşdur. 1921-ci il iyulun 1-də Azərbaycan Xalq Komissarlar Şurası Ali Pedaqoji İnstitutunun təşkil edilməsi barədə qərar qəbul etdi. Komissarlığın 66 saylı dekreti ilə Həbib Mahmudbəyli, Fətulla Rzabəyli və Rəhim Cəfərovdan ibarət komissiya təşkil edildi» (91). Az sonra XKS sədri Nəriman Nərimanovun və Maarif Komissarı Dadaş Bünyadzadənin təklifi ilə A.Şaiq və M.Əfəndizadə də komissiyanın işinə cəlb edildilər. Dövrün görkəmli ziyalılarından təşkil edilmiş komissiyanın birgə səyi nəticəsində qısa müddət ərzində İnstitut noyabrın 15-dən köhnə Lebedinski küçəsindəki Turgenev adına məktəbin binasında fəaliyyətə başladı. ADR dövrü təşkil edilmiş Dövlət Universitetində, yenicə fəaliyyətə başlamış Ali Pedaqoji İnstitutunda təlim edilən Azərbaycan ədəbiyyatı tarixi üzrə mühazirələr aparmaq da A.Şaiqə həvalə edilmişdir. Ancaq bu sahə üzrə ana dilində proqram və dərslik hazırlamaq lazım idi. A.Şaiq H.Cavidin, Ə.Haqverdiyevin köməyi ilə qısa müddət ərzində bu vəsaiti hazırladı. Elə bu arada onun 1919-cu ildə H.Cavidlə birgə hazırladığı «Ədəbiyyat dərsləri» adlı dərs-

liyi də təkrar çapdan çıxdı. A.Şaiq bu dövrdə öz iş rejimini «Xatirələrim»də belə xarakterizə edir: «Zəif vücudumla gecə-gündüz çalışaraq yoxluqlardan bir varlıq yaratmalı idim. Bir tərəfdən müxtəlif proqramlar yazıb Maarif Komissarlığında təsdiq etdirir, bir tərəfdən ədəbiyyata məxsus dərsliklər tərtib edir, bir tərəfdən ədəbiyyat və ədəbiyyat nəzəriyyəsinə dair elmi materiallar hazırlayırdım.Gənc nəslimizə geniş məlumat vermək üçün gecə yarıya qədər çalışırdım» (69, s.86). «Sovet hökuməti təkcə Bakıda deyil, əyalətlərdə də maarif işinin təşkili üçün geniş tədbirlər həyata keçirirdi. Belə tədbirlərdən biri də «Kəndli həftəsi» idi. Bakıda işinin çox olmasına baxmayaraq, A.Şaiq «həftə»nin tədbirləri daxilində başqa ziyalılarla birlikdə Göyçaya, Qaraməryəmə və başqa kəndlərə gedərək əhali arasında maarifin və mədəniyyətin inkişafı ilə bağlı söhbətlər aparırdı» (91, s.128). A. Şaiqin pedaqoji- ədəbi yaradıcılığının ikinci dövrünü əhatə edən 1918-1926-ci illər olduqca məhsuldar bir dövr idi. O, həm bədii yaradıcılıqla, həm müəllimliklə, həm proqram və dərsliklərlə əlaqədar komissiyalarda fəaliyyət göstərir, həm də müntəzəm elmi işlə məşğul olurdu. Klassiklərimizin, ədəbiyyat tariximizin, türk, rus və Şərq yazıçılarının yaradıcılığını tədqiq edir və bunun də nəticəsində bir-birinin ardınca «Məhəmməd Hadi», «Tofiq Fikrətin türk ədəbiyyatı tarixində əhəmiyyəti» (1924),«M.F. Axundov haqqında mülahizələrim» (1924), «Ədəbiyyatımız haqqında», «1905-ci il inqilabından sonra yetişmiş ədəbiyyatımıza səthi bir nəzər» (1927), «Bir neçə söz», «Lirik el yaradıcılığının xüsusiyyətləri», «Aşıq ədəbiyyatı»(1927), «H. Cavidin «İblis»i haqqında düşüncələrim» və s. sanballı məqalələrini hazırlayıb dərc etdirmişdi. Bu elmi-tədqiqi məqalələri ilə o özünün Azərbaycan ədəbiyyatı sahəsində hərtərəfli biliyə malik mütəxəssis kimi bir daha təsdiq edir. Adları çəkilən məqalələrin hər birində dərin, konkret analiz vardır. Bu təhlillərdə A.Şaiq üç prinsipi əsas götürür: 1) tarixilik, 2) forma və məzmunun vəhdəti, 3) pedaqoji prinsip. A.Şaiqə görə, tarixilik prinsipinin əsas



şərti əsərdə təsvir edilən hadisələrin baş verdiyi dövr, şəraitlə ədibin yaşayıb-yaratdığı zəmanə arasındakı üzvü bağlılığı, əlaqəni müəyyənləşdirməkdir. O göstərirdi ki, hər hansı bir əsər ictimai-tarixi dövrün məhsulu olub, o dövr üçün mütərəqqi bir əsər sayıldığı halda, həmin əsərdə irəli sürülən ideya sonrakı dövr üçün aktuallıq kəsb etmir və ya o quruluş üçün yaramır. Məlumdur ki, bədii əsərin məzmunu həyatda baş verən hadisələrdən və bu hadisələrə müəllifin münasibətindən ibarətdir. Yazıçı əsərində baş verən hadisələrin zəminində öz təxəyyülünün məhsulu olan ideyalar sistemi yaradır. Sonra əsərin süjeti, kompozisiyası, dili, bir sözlə, forması yaranır. Bütün əsər boyu məzmun və forma vəhdətdə inkişaf edir. A.Şaiq yazırdı ki, «əsərdə bunlardan biri zəif olarsa, o, yüksək keyfiyyətli sənət əsəri hesab edilə bilməz» (76, s.30). Pedaqoji prinsipə ciddi riayət edərək A.Şaiq konkret mövzunun təhlilindən doğan bütün tələb və imkanları nəzərə almışdır. Bu məqsədlə o, yaradıcılığını təhlil etdiyi yazıçının ədəbiyyat tarixində tutduğu mövqeyini, yeri, mühiti, şəraiti bir müəllim kimi gənc nəslin təlim- tərbiyəsinə göstərdiyi təsiri əsas götürürdü. Onun elmi-metodiki məqalələrini nəzərdən keçirsək, görərik ki, onlar müxtəlif mövzularda yazılmışdır. Deməli, məzmun, təhlil və tənqid hədəfləri və üslubları da müxtəlifdir. Qeyd etmək lazımdır ki, A.Şaiq bütün məqalələrinə ciddi yanaşmış, yazıçıların şəxsi talelərini, cəmiyyətdəki mövqeyini onların ədəbiyyat tariximizdəki yeri fonunda göstərmiş və müəyyən ictimai problemlər qoyub həll etməyə çalışmışdır. Şaiqin dərsliklərində olduğu kimi elmi məqalələrində də realizmin təbliği sistem şəklindədir. Belə ki, onun ədəbi-bədii görüşləri, klassik irsimizə, realist ədəbiyyatımıza münasibəti bir sıra məqalələrində ifadə olunmuşdur. Öz yaradıcılıq təcrübəsində əsas etibarı ilə realizm ənənələrini davam və inkişaf etdirən A.Şaiq, nəzəri cəhətdən də sənət və ədəbiyyatda varlığı doğru əks etdirmək prinsiplərini qorumuş, M.F.Axundov ədəbi məktəbinin böyük tarixi əhəmiyyəti haqqında mühüm mü-

lahizələr söyləmişdir. A.Şaiq M.F. Axundovun yaradıcılıq və dünya baxışının bir sıra mühüm cəhətlərini yüksək qiymətləndirərək yazırdı: «M.F.Axundov türk (Azərbaycan – qeyd M.M) ədəbiyyatı tarixində birinci realist yazıçıdır ki, əsərlərində həqiqəti, həyatı olduğu kimi göstərir» (76, s.29). A.Şaiq təkcə M.F. Axundovun yaradıcılığı ilə maraqlanmamış Vaqif, Vidadi, S.Ə.Şirvani, A.Səhhət, M.Ə.Sabir və M.Hadi yaradıcılığını öyrənmiş, onların əsərlərini yaymış, həyatlarının müxtəlif məqamlarını oxuculara çatdırmaq istiqamətində gərəkli işlər görmüşdür. Elmi məqalələrində ictimai problemlər qoyub həll etməyə çalışan müəllif M.P.Vaqifi, Q.B.Zakiri, M.F.Axundovu, S.Ə.Şirvanini, M.Ə.Sabiri yeni dövr ədəbiyyatının ən məşhur, görkəmli ədəbi simalar kimi qiymətləndirirdi. Şaiq «Vaqifi «Qafqazda türk şairlərinin ən şöhrətlisi», «Əsrin gözəl bir şairi» hesab edirdi. Seyid Əzimi vətəni, xalqı zillət və səfalətdən qurtarmağa çalışan, təhqir və təqiblərə sinə gərən mübariz şair kimi tanıtdırırdı. M.Ə.Sabir isə Şaiqin nəzərincə bu silsilənin ən nəhəng siması idi. «Çünki o, «ədəbiyyatımızda geniş və çiçəkli bir cığır açmış, dünyəvi bir şair səviyyəsinə yüksəlmişdir. Çünki Sabir sənətində həyat «təbii və həqiqi» olaraq göstərilir, bu isə onun əsərlərinin təsir qüvvəsini qat-qat artırır» (76, s.31). A.Şaiq Sabirin dövrün ən müqtədir sənətkarı səviyyəsinə yüksəlməsini və ədəbiyyatda yeni cığır açmasının sirrini də həyatı «necə ki, var, təbii və həqiqi olaraq təsvir etməsində» görürdü. O yazırdı: «Sabir əfəndi millətimizin əhval-ruhiyyəsinə gözəlcə aşna olduğu üçün qələmə aldığı maddəni, fikri elə gözəl, dadlı bir üslubda nəzmə çəkmiş və müxtəlif tonlarda, şəkillərdə, əqidələrdə, məsləklərdə aramızda dolaşanları necə ki, var təbii və həqiqi olaraq elə gözəl təsvir edir ki, oxuduqca həmin əşxas hər birisi kəndinə məxsus qiyafəsi ilə göz önündə birərbirər ötüşməyə başlar qare biixtiyar o adamlara həm acıyır, həm də acı bir qəhqəhə qoparmaqdan kəndini saxlayamaz» (76, s.32). A.Şaiq eyni fikirləri M.Ə.Sabirə həsr etdiyi şeirində də bir qədər başqa şəkildə də



təkrar etmişdir. Sabirin ölümünün birinci ildönümü münasibətilə yazdığı şeirin sonunda əlavə edilmiş kiçik məqalədə o öz böyük müasirinin əsərlərini çap etməyə etinasız yanaşan həmvətənlərini məzəmmət edir, şairin qoyub getdiyi irsi, böyük yadigarı tezlik -lə çap etməyə çağırırdı. Yaradıcılığının ikinci mərhələsində A.Şaiqin şəxsi həyatında da dəyişikliklər baş verdi. 1911-ci ildə birinci həyat yoldaşını itirən Abdulla nəhayət, 1920-ci ildə Dərbənd ziyalısı Əhməd bəy Mirzəbəyovun qızı Şahzadə xanımla ailə qurur. Bu nikahdan onların üç övladı dünyaya gəlir. A. Şaiq xoşbəxt ata, xoşbəxt ailə başçısı kimi ömrünün axırına qədər öz ailəsi qarşısında müqəddəs borcunu yerinə yetirmişdir.

A.Şaiq çox gərgin işləyirdi. 1924-26-cı illər arasında bir-birinin ardınca «Türk dili», «İkinci il», «Qiraət kitabı», «Türk ədəbiyyatı», «Türkcə sərf-nəhv», «Türk dili və ədəbiyyatı» kimi dərslik, proqram, müntəxabat hazırlayıb çap etdirmişdir. Ağır zəhmət tələb edən bütün bu işlər onun onsuz da sağlam olmayan vücuduna mənfi təsir göstərirdi. 1928-ci ildə həkimlər ona dincəlməyi məsləhət gördülər. Hələ iki il əvvəl Ümumittifaq Maarif işçilərinin Azərbaycan şöbəsi Qaqranın Vorovski adına iki nömrəli idarəsinə müraciət edərək « görkəmli şair Abdulla Şaiq Talıbzadənin müalicəsinə şərait yaratmağı» xahiş etmişdir (69, s.138). Mərkəzi Komitədə işləyən sevimli şagirdi Ruhulla Axundov müalicəyə getmək üçün özü ona 540 manat məbləğində mükafat da vermişdir. Beləliklə, yazıçı-müəllim həkimlərin təkidi ilə müalicəyə gedir. A.Şaiq müalicədən xoş əhval- ruhiyyə ilə qayıtdı. O, bu müalicə zamanı ədəbi yaradıcılıqla məşğul olmuş və bunun nəticəsi olaraq «Əsəbi adam», «Özü bilsin mənə nə?» hekayələrini yazmışdır. Bu illərdə A.Şaiqin ədəbi əlaqələri, görüşləri daha da genişlənirdi. 1928-ci ildə M.F.Axundovun ölümünün 50 illiyi qeyd edildi. M.F.Axundov yaradıcılığına böyük rəğbət bəsləyən A.Şaiq bu münasibətlə «M.F.Axundov haqqında mülahizələrim», «M.F.Axundovun «Aldanmış kəvakib» əsəri haqqında mülahizələrim» məqalələrini hazırlayıb dərc etdirir.

M.F.Axundovun xatirəsinə A.Şaiqin daha səmərəli işi onun «Aldanmış kəvakib» povestini səhnələşdirməsi oldu. Pyes həmin ildə həvəskar müəllim və tələbələr tərəfindən tamaşaya qoyulmuş və böyük müvəffəqiyyət qazanmışdır. 1929-cu ildə A.Şaiq bir qrup incəsənət işçisi ilə Gürcüstanda və Ermənistanda səfərdə olur. 30-cu illərdə A.Şaiq respublikanın tanınmış maarif işçisi kimi Maarif Nazirliyinin kollegiya üzvü idi. Respublikanın bütün ali və orta məktəblərində istifadə edilən ədəbiyyat dərslikləri və proqramları məhz A.Şaiqin rəhbərliyi ilə hazırlandı. A.Şaiq «Göylü qızı Gülarənin xatirələri» adlı avtobioqrafik əsərində yazır: «R.Axundov Maarif Komissarı olduğu zaman mən Ali Pedaqoji İnstitutunda ədəbiyyat tarixi dərslərini aparırdım. Proqramlar və lazımi materiallar əldə olmadığı üçün çox çalışırdım» (77, s.78).1930-1931-ci illərdə Şuşa Pedaqoji Texnikumunda müəllim kadrları çatışmırdı. O, zaman Pedaqoji İnstitutda və pedtexnikumda pedaqoji fəaliyyətini davam etdirən A.Şaiq bir neçə müəllimlə bərabər Şuşaya ezam edilir. O, orada müəllimlərin elmi, pedaqoji-metodiki biliklərinin artırılması üçün mühazirələr söyləyir, müasir tələblərə cavab verən təlim-tərbiyə metodlarının tədrisi-zamanı tətbiqinə kömək edir, ədəbiyyat kabinəsi düzəldir, məktəb kitabxanalarının işinin elmi əsaslar üzərində qurulmasını təşkil edir. Lakin elə həmin il Şuşada xəstələnib Bakıya qayıdır. 1926-ci ilin iyununda «Şaiq Nümunə məktəbi»nin bağlanması ilə onun orta təhsil verən məktəbdə müəllimlik fəaliyyətinə son qoyuldu. (Bu məktəbin fəaliyyəti haqqında ikinci fəsildə bəhs ediləcəkdir). A.Şaiqin yaradıcılığının 3-cü dövrünü əhatə edən 1927-36-cü illərdə təhsilin əsas məqsəd və vəzifəsi sosializm, realizm prinsiplərinə xidmət edən yeni məzmun, yeni metod və yeni təşkilat formalarını müəyyənləşdirməkdən ibarət idi. Xalq maarifi sahəsində ilk təhsil verən məktəbi «burjuaziyanın sinfi ağalığı» vasitəsindən cəmiyyəti sosializm əsasları üzərində qurmaq vasitəsinə çevirmək, keçmişin ağır irsi olan kütləvi savadsızlığı ləğv etmək, bütün tipdə olan



məktəbləri əsaslı surətdə yenidən qurmaq, birgə politexnik təhsil prinsipinin həyata keçirilməsini təmin etmək bütövlükdə dövlətin qarşısında duran bir vəzifə idi. 1928-29-cu illərdə başqa respublikalarda olduğu kimi, Azərbaycanda da məktəbin «ölüb getməsi nəzəriyyəsi» kimi leninizmə zidd mövqedən çıxışlar oldu. Tədris-təlim işlərinin təşkilindən və metodikasından, burjua pedaqogikasından qeyri-tənqidi surətdə götürülmüş «Laboratoriya - briqada üsulu» tətbiq edilirdi. Bu üsula görə şagirdlərdən daimi və məcburi briqadalar düzəldilir, onlara müxtəlif tapşırıqlar verilirdi. Uşaqların yaş xüsusiyyəti və fərdi təhsili nəzərə alınmır, biliyə qiymət verilməsində simasızlıq üstün yer tutur, müəllim arxa plana keçirilirdi. «ABŞ-dan götürülmüş «layihələr üsulu» da məktəblərdə tətbiq edilirdi: bu üsul nəticəsində dərs vaxtının xeyli hissəsi ümumtəhsil əhəmiyyəti olmayan tapşırıqların yerinə yetirilməsinə sərf olunurdu» (14, s. 285). Araşdırmalar isə yuxarıda söylənilən fikrin tam əksini göstərir. Çağdaş baxış nöqteyi-nəzərindən istər «laboratoriya-briqada üsulu», istərsə də «layihələr üsulu» müəllim və şagirdin fikir, düşüncə azadlığını, özünün taleyini, gələcəyini təyinetmə qabiliyyətini, seçib-seçilmək (müəllimin, proqramın, dərsliyin, metodların, sinfin) hüququnun inkişaf etdirilməsini formalaşdıran üsullardır ki, bu da sözsüz ki, Sovet təhsil sistemində «yararsız», «lazım olmayan» bir üsul kimi qiymətləndirilmişdir. Qeyd etmək lazımdır ki, «Şaiq Nümunə məktəbi»ndə bu üsullardan geniş istifadə edilirdi. (Bu barədə ikinci fəsildə bəhs ediləcəkdir). A.Şaiqin Azərbaycan ictimai-mədəni həyatındakı çoxistiqamətli fəaliyyətinin mühüm qollarından birini də onun tərcüməçilik fəaliyyəti təşkil edir. 50 ildən artıq davam etmiş bu fəaliyyəti nəticəsində o, fars, ərəb, rus ədəbiyyatının klassik əsərlərini doğma dilə tərcümə etmişdir. Bu əsərlər zaman-zaman onun tərtib etdiyi dərslikdə, qəzet və jurnal səhifələrində çap olunmuşdur. Yaradıcılığının ilk illərində gah Sədidən, gah Tolstoydan, Krılovdan tərcümələr edən A.Şaiq nəhayət ki, 1905-07-ci illər

inqilabı dövründə öz tərcüməçilik fəaliyyətinin istiqamətlərini müəyyənləşdirdi. «Bir tərəfdən milli azadlıq hərəkatının qüvvətlənməsi və mədəni intibah ideyalarının təsiri, o biri tərəfdən də pedaqoji fəaliyyəti, dərsliklər hazırlaması və uşaq ədəbiyyatı sahələrində işə başlaması» (7, s. 88) ona bu istiqamətləri müəyyənləşdirməyə şərait yaratdı. Cəmiyyət üçün ideya məzmun baxımından fayda verə biləcək süjet bitkinliyi olan, dünya ədəbiyyatının ən yaxşı nümunələri məhz şair qələminin bəhrəsi kimi ana dilimizdə səslənmişdir. Bura Nizamidən, Tolstoydan, Krılovdan, Puşkindən, Lermontovdan, Çexovdan və başqalarından etdiyi tərcümələr daxildir. 1933-cü ildə Firdovsinin anadan olmasının 800 illik yubileyinə hədiyyə olaraq «Şahnamə»dən «Məzdək və Qubad» dastanını tərcümə edir. Lakin bu tərcümə əsərləri içərisində Nizamidən etdiyi tərcümə xüsusi yer tuturdu. Bu haqda A.Şaiq «Xatirələrim»də yazır: «1935-ci ildə Ruhulla Axundov məni dəvət etdi və dedi: «Nizaminin «İsgəndərnamə»-sinin «Şərəfnamə» hissəsinin tərcüməsini sizə vermək istəyirəm. Bilirsiniz də bu əsər Nizaminin mənaca dərin poemalarından biridir. Nizaminin Azərbaycanla bağlayan fikirlər burada daha çoxdur» (69, s.46). Düşünmədən tərcüməyə razılıq verən A.Şaiq böyük ustalıqla əsəri fars dilindən Azərbaycan dilinə tərcümə edir. Müasirlərinin göstərdiyi kimi, «Sazandalar»dan tutmuş ta «Şərəfnamə» yə, «Robinzon Kruzo»ya və «Maqbet»ə qədər Azərbaycan dilinə çevirdiyi əsərlər «Şaiq tərcümə məktəbinin sağlam ənənələrini ifadə edir» (37, s. 33). Elə bu illərdə o, sovet müəllimlərinin həyatını əks etdirən ən məzmunlu əsər kimi qiymətləndirilən «Xasay» povestini tamamlayır. Əsərin qəhrəmanı Kamil pedaqoji fəaliyyəti və başqa humanist, demokratik baxışları ilə oxuculara yazıçı-müəllimin özünü xatırladır. Yazıçının arxivində saxlanan bir əlyazmasından aydın olur ki, (90) o bu əsəri A.Lyapin adlı bir müəllimin «Pravda» qəzetinə göndərdiyi «Ədəbiyyatda şura müəllimini də göstərin» adlı məqaləsinə cavab olaraq yazmışdır. Sonralar bu əsər səhnələşdirilmişdir. A.



Şaiq bütün bu işlərlə yanaşı iki dərslik də hazırlayıb çap etdirir. Bu «Dördüncü il» (1927-30), «Ədəbiyyatdan iş kitabı» (1928-30) kitabları idi. Əvvəlki dərsliklərdə mövcud olan qüsur və nöqsanlar bu dərsliklərdə aradan qaldırılmışdır ki, bu da onun dərslik müəllifi kimi püxtələşməsindən irəli gəlirdi. Lakin yaradıcılığının bu dövründə o, artıq tanınmış bir yazıçı və ictimai xadim kimi fəaliyyət dairəsni genişləndirir. Səhhəti ona hər iki cəbhədə: bədii-pedaqoji sahədə çalışmasına imkan vermirdi. 1932-ci ildən Pedaqoji İnstitutda və Pedaqoji Texnikumda fəaliyyətini dayandırır. 1936-cı ilin sentyabrında isə Neft və Kimya İnstitutunun dil və ədəbiyyat müəllimi vəzifəsindən azad edilir. 1935-ci ildən o, «Azərnəşr»in uşaq ədəbiyyatı şöbəsinə redaktor vəzifəsinə təyin edilir. Yeni təyinat A.Şaiqə bir yazıçı kimi öz bacarığını göstərməkdə böyük imkanlar yaradır. Vaxtı ilə məşğul olduğu pedaqoji iş onun bir uşaq yazıçısı kimi yaradıcılığında mühüm rol oynamışdır. Məhz buna görə də A.Şaiq Azərbaycan Sovet ədəbiyyatında uşaq həyatını, psixologiyasını və dilini mükəmməl bilən qüvvətli bir sənətkar kimi özünə yer etmişdir. O özünü bu cəhətdən təkcə uşaqlar üçün yazdığı əsərlərdə deyil, bütün bədii yaradıcılığı boyu göstərmişdir. O, müəllimlik fəaliyyətində olduğu kimi, bədii yaradıcılığında da bir tərbiyəçi kimi çıxış edir. Belə ki, onun bədii əsərlərində uşaqların ailə tərbiyəsinə geniş yer verilmişdir. Müəllif uşaqların tərbiyəsində ailənin rolunu «Ana», «Xasay», «Vəzifə» və s. əsərlərində ümumiləşdirmişdir. Uşaqlar üçün yazdığı əsərlərində gənc oxucuların yaş və bilik səviyyəsini nəzərə alan bir sənətkar olmuşdur. Təkcə nəsr və dram əsərlərində deyil, eyni zamanda lirik şeirlərində də bir tərbiyəçi kimi onun obrazı canlanır. Onu da qeyd etmək lazımdır ki, lirik şeirlərində də A.Şaiq ədalətsiz qanunlara qarşı çıxaraq özünün ictimai bəlaları törədən səbəbləri arayan, xalqın tapdanmış hüquqlarını düşünən lirik qəhrəmanını yaradır. Şair vətənini, onun təbiətini, xalqını sevən bir vətəndaş kimi «Dağlar», «Bahar», «İki qaranquş», «Dağlar sultanı», «Quş» və s. şe-

irlərində dağlarımızın, çöllərimizin təsvirini vermişdir. Yaradıcılığında mövzusu həm klassik irsimizdən, xalq əfsanə və nağıllardan, həm də müasir həyatımızdan alınmış əsərlərində yazıçı bir sıra ictimai-əxlaqi problemlər qoyub həll etmiş, gənc nəslə qəhrəmanlıq, vətənpərvərlik, haqsızlığa qarşı mübarizə aparmaq ruhu aşılamışdı. A.Şaiq «Xatirələrim»də yazırdı: «Azadlığı tərənnüm edən şeirlərim xalq ədəbiyyatından və 1905-ci il inqilabından aldığım ilham nəticəsində yazılmışdır. Rus klassiklərindən M.Qorkinin hekayələrindəki surətlər məni daha çox məşğul etdiyindən mən də bu surətləri Azərbaycanda aramağa və onlarla yaxından tanış olmağa çalışdım» (69 s.106). Və A.Şaiq öz əsərlərində bu surətləri yaradaraq onların vasitəsi ilə yetişməkdə olan gənclikdə gözəl əxlaqi keyfiyyətlərin və nəcib insani hisslərin tərbiyə olunmasına xidmət etdi. A.Şaiqin bədii yaradıcılığını araşdırıb təhlil etmək tədqiqatımızın obyekti olmadığına görə bu məsələdə dərinliyə varmadan onu qeyd etmək lazımdır ki, onun ədəbi yaradıcılığından bütün yaşda olan oxucular faydalana bilmişlər. Bu baxımdan əsərlərini üç yerə bölmək olar:

1) məktəbyaşli kiçik uşaqlar üçün;
2) yeniyetmələr üçün;
3) gənclər və yaşli nəsil üçün.

O, yaradıcılığının birinci dövründə ən çox azyaşlı uşaqlar üçün, ikinci dövründə isə yeniyetmələr üçün yazmışdır. Akademik Məmməd Arif yazırdı: «A.Şaiqin müəllimliyi ilə yazıçılığı bəzi nöqtələrdə elə üzvü bağlanmışdır ki, onları ayırmaq həm çətin, həm də lüzumsuz bir işdir. Bədiiliklə faydalılıq, estetika ilə tərbiyə bu nöqtədə birləşir. Uşaqlara bədii zövqün əlifbasını öyrətmək, ana dilinin ləzzətini duydurmaq, onlarda təbiətə, insanlara, əməyə məhəbbət oyatmaq, onlara gözəlliyi, şeiriyyəti hiss etdirmək, həqiqi ədəbiyyatın, həqiqi xalq ədibinin vəzifəsi idi. Zəmanə özü bu vəzifəni təbii olaraq Şaiqə tapşırmışdı...» (10, s.48).A.Şaiq ədəbiyyatımızda yalnız şair və yazıçı kimi tanınmamış, bədii tərbiyə üçün səhnə əsərlərinin böyük əhəmiyyət kəsb etdiyini qiymətləndirərək vətənpərvərlik ruhunda bir neçə dram əsəri də yazmışdır. Bu əsərlər içərisində «Eloğlu», «Vətən», «Bir saat xəlifəlik» öz mövzu və məqsədinə görə bu gün də aktuallığını itirməmişdir. O, eyni zamanda əvvəllər yazdığı «Xasay» povestini də səhnələşdirmişdir. Dramaturq burada çox önəm verdiyi bir məsələni-məktəblə ailənin qarşılıqlı əlaqəsini diqqət mərkəzində qoyaraq tərbiyə işində müəllimin ardıcıl, tələbkar, prinsipial, vicdanlı olmasının vacibliyini göstərir. Ümumiyyətlə, müəllimliyində olduğu kimi bədii yaradıcılığında da A.Şaiqin ali məqsədi gəncliyin mənəvi-əxlaqi tərbiyəsini formalaşdırmaq, ilk gündən onlarda ana dilinə sevgi, məhəbbət aşılamaq olmuşdur. 1936-cı ildə yazıçı M. İbrahimovun müqəddiməsi ilə A.Şaiqin ilk dəfə olaraq «Seçilmiş əsərləri» çap edilir. Bir az sonra Tiflis şəhərində «Hekayələr» kitabı nəşr olunur. Elə həmin il R.Axundovun xahişi ilə «Həyatım və mühitim» adlı və Litva Elmlər Akademiyasının prezidenti V.K.Mitskeviçus (V.K. Mitskeviçus vaxtı ilə Şaiqlə birgə Bakı Realnı məktəbində birgə çalışmışdır) haqqında xatirələrini yazıb qurtarır. A.Şaiq gənc tamaşaçılar teatrında ədəbi-pedaqoji hissə müdiri kimi səhnədə tamaşaya qoyulan hər bir əsərə məsul idi. 1939-cu ildə Azərbaycan SSR Xalq Komissarları Soveti yanında yeni Əlifba komissiyası yaradıldı. Bu komissiyaya A.Şaiq də üzv seçildi. Komissiyanın işində A.Şaiq yaxından iştirak edirdi ki, bu da təbii idi. Dilimizin fonetikasını, morfologiyasını, sintaksisini yaxşı bilən ədib «Azərbaycan dilinin orfoqrafiya qaydaları»layihəsini hazırlayıb komissiyaya təqdim edir. 1940-cı il yanvarın 4-də yeni əlifba komissiyası A.Şaiqə aşağıdakı məzmunda məktub göndərir: «Azərbaycan dilinin orfoqrafiya qaydaları» layihəsi yaxın zamanlarda təsdiqə veriləcək. Ona görə də yanvar ayının 15-ə kimi mülahizələrinizi yazılı şəkildə göndərmənizi xahiş edirik» (83, s.156). 1935-45-ci illər arasında A.Şaiq müntəzəm şəkildə elmi yaradıcılıq və tədqiqatçılıq işi aparmış, klassiklərimizə,

ədəbiyyat tariximizin problemlərinə, rus və Şərq yazıçılarına həsr olunmuş məqalələr yazmışdır. Yazıçı Seyid Hüseyn özünün «Abdulla Şaiq» adlı məqaləsində göstərir: «Yeni ədəbiyyatın təməl daşını qoyanlardan birisi A.Şaiqdir. Bizcə, yeni və müasir ədəbiyyatın qüvvətlənməsində, dərəbəyi dövrünün ədəbiyyatı olan, 1905-ci ildən sonra öz nüfuzunu davam etdirən qəzəl və qəsidə şəklində olan ədəbiyyatın aradan qalxmasında Şaiqin xidməti az olmamışdır». (91) O, məqaləsini yekunlaşdıraraq A. Şaiqi yeni ədəbiyyatımızın mühüm bir «rüknü»saymış «Əski və yeni ədəbiyyat məsələləri»nin müzakirəsində Şaiqin təsirli rol oynadığını göstərmişdir. A.Şaiqin bütün yaradıcılığı üçün simvolik bir cəhət də o idi ki, «Xalq ədəbiyyatı və ədəbiyyatımız» adlı ilk elmi məqalələrindən birini bədii ədəbiyyatın folklorla, xalq dili ilə əlaqəsi məsələsinə həsr etmişdir. Bu illər ərzində həmçinin bədii yaradıcılıqla da məşğul olmuş, bir-birinin ardınca sanballı əsərlər yaradaraq Azərbaycan ədəbi-mədəni tarixində bir alim, yazıçı, dramaturq və şair kimi özünə əbədi yer tutmuşdur. 1946-cı ildən A.Şaiq dəfələrlə Ali Sovetə deputat seçilərək ictimai xadim kimi ölkənin ictimai-siyasi həyatında yaxından iştirak etmişdir.Bir deputat kimi Moskvada SSRİ Ali Sovetinin sessiyalarında xalqımızı, ölkəmizi şərəflə təmsil etmişdir. Lakin o, eyni zamanda ədəbi mühitin hər bir sahəsində çalışanlara da öz köməyini əsirgəmirdi. Elə həmin illərdə o, Azərbaycan SSRİ Yazıçılar İttifaqının nəsr antologiyası hazırlayan komissiyanın üzvü kimi də böyük fəallıq göstərirdi. 1951-ci ildə Azərbaycan KP Mərkəzi Komitəsi «Uşaqların bədii tərbiyəsinin vəziyyəti və onu yaxşılaşdırmaq tədbirləri haqqında» qərar qəbul etdi. Bu qərarın tələbləri baxımından Azərbaycan yazıçılarının no-yabr ayında keçirdiyi iclasının qərarı ilə «Azərbaycan uşaq ədəbiyyatının vəziyyəti», «Azərbaycan uşaq ədəbiyyatında əmək mövzusu» mövzularında müzakirələr keçirildi. Bu müzakirələrdə A.Şaiqin uşaq ədəbiyyatı sahəsindəki səmərəli fəaliyyəti yüksək qiymətləndirildi. Qeyd etmək lazımdır ki, «Ədibin



uşaq əsərlərində hər şeydən əvvəl onun müəllimliyi özünü büruzə verir. Bu əsərləri yazarkən müəllif öz kiçik oxucularının maraq və psixologiyasını nəzərə almış, onlara yüksək bəşəri keyfiyyətlər aşılamaq məqsədi güdmüşdür» (57, s.2). Yığıncaq gənc yazıçıları qocaman ədibdən öyrənməyə çağırdı. Toplantıda Şaiq «Kiçik vətəndaşları tərbiyə edək» mövzusunda məruzə etdi. 1953-cü ildən başlayaraq A.Şaiq özünün dediyi kimi, «əxlaqi-tərbiyəvi mahiyyət daşıyan» (20, s.47) xatirələrini yazmağa başladı.Tədqiqatçı E.Eminalıyev «Xatirələrim»i Russonun «Etiraf»ı, Sen-Simonun «Memuarlar»ı, Gertsenin «Olmuşlar və düşüncələr»i, M.Qorkinin «Uşaqlıq», «Özgə qapılarında» və «Mənim universitetlərim» xatirə əsərləri ilə müqayisə edərək yazır: «Bu adi xatirə deyil, keşməkeşli həyat yollarını, görkəmli elm, maarif, ədəbiyyat və sənət xadimlərinin fəaliyyətini, münasibətlərini, yaradıcılıq əlaqələrini, azadlıq uğrunda arzu və əməllərini, mübarizələrini dövrün ziddiyyətlərini əks etdirən gözəl sənət əsəridir. «Xatirə» həm də ədəbiyyatımızda kamil memuarlardandır» (20, s.79).Tədqiqatçının «Xatirələrim» haqqında söylədiyi fikirlərlə tam mənada razılaşaraq onu əlavə etmək istərdik ki, «bu kamil memuarda» haqqında bəhs etdiyi insanların timsalında şəxsiyyəti sözün əsl mənasında yeni bir məzmunda, keyfiyyətdə görürük. Əxlaqi-tərbiyəvi mahiyyət daşıyan «Xatirələrim»də biz eyni zamanda Şaiqin öz şəxsiyyətini, onun vətəndaşlıq simasını da görürük. «Memuarda təqdim olunan insanları şəxsiyyət kimi tanıtmaq məsələsinə xüsusi fikir verilmiş, cəmiyyətin inkişafında dəyərləri ilə seçilən sənət nümunələrinin yaradılmasında şəxsiyyətin, həyat ideyalarının, təhsilinin ictimai mühit və tərbiyəsinin xarakter xüsusiyyətlərinin və s. mühüm rol oynaması əsaslandırılmışdır» (20, s.69). Əsərdə biz müəllifin dili ilə söylədiyi həyat yolu ilə yanaşı görkəmli şəxsiyyətlərin də tərcümeyi-halı ilə tanış oluruq. Və bu tərcümeyi-hallar yalnız rəqəmlərdən ibarət olmayıb, şəxsiyyətin insani və yaradıcılıq keyfiyyətlərini hərtərəfli əks etdirir. Bu sonralar

ədəbiyyat tədqiqatçılarımız üçün araşdırma mənbəyi olmuşdur. Tədqiqatçı E. Eminalıyev öz əsərində bu məsələni daha da konkretləşdirərək yazır: «Bir məsələni mütləq qeyd etmək vacibdir ki, XX əsr Azərbaycan ədəbiyyatı M.Ə.Sabir, M.Hadi, A.Səhhət, H.Cavid, S.S.Axundov, C.Cabbarlı kimi sənətkarlardan bəhs edən əsas tədqiqatçılar ilkin mənbə kimi A.Şaiqin «Xatirələrim» memuarına müraciət etmiş, həmin şəxsiyyətlərin ömür yolunu qələmə alarkən ədibin xatirələrindən bəhrələnmişlər» (20, s.85). Lakin A.Şaiq «Xatirələrim»də pedaqoji fəaliyyətinin mühüm hissəsini təşkil edən «Nümunə məktəbi»nin fəaliyyətini, orada qoyulmuş təlim - tərbiyənin məzmununu, məktəbin bağlanması və pedaqoji işdən uzaqlaşması səbəblərindən bəhs etmir. E.Eminalıyevin tədqiqatında bunun səbəbləri ilə tanış oluruq: «Ədibin oğlu akademik K.Talıbzadə söyləyir ki, repressiya dövründə Məmmədağa Sultanov mənə bildirdi ki, qoy A.Şaiq tərcümeyi-halını, həm də xatirələrini yenidən qələmə alsın. 1935-ci ildə qələmə alınmış «Mənim həyatım» memuarı üzərində atam zorən yenidən işləməli oldu və bir çox səhifələr qaralanıb oxunmaz hala salınmaqla, bu gözəl əsərin təxminən yüz səhifəsi ixtisar edilərək dəyişdirildi» (20, s.42) .Elə biz də ədibin Mərkəzi Arxivdə saxlanılan əlyazmasında səhifələr üzərində bir çox yerlərdə düzəlişlərin edildiyinin şahidi olduq. Məsələn, bir yerdə bənövşəyi rəngli qələmlə yazdığı «144» rəqəmini, qara qələmlə «137» rəqəminə düzəliş etmişdir. Səhifələri saydıqda yeddi səhifənin aradan çıxarılması aydın oldu (90). Ümumiyyətlə, A.Şaiq 40- cı illərdən sonra «Mənim həyatım» adlı avtobioqrafik əsərinin olmamış kimi heç bir yerdə adını çəkmir. Məsələn, 1946-cı il «Azərbaycan məktəbi» jurnalında o, bütün elmi, bədii əsərlərinin adını çəkir, lakin bu əsər haqqında bir kəlmə də olsun söz demir. Səbəb aydın idi. Biz yuxarıda 1937-ci ildə DTK-nın A.Şaiq haqqında tərtib etdiyi dosyedən bəhs etmişik, orada böyük sənətkar «pantürkist, millətçi» adlandırılır. Əslində buna əsas da var idi. Milli mənliyimiz, kimliyimiz, demokratik ruhlu



ziyalılar kimi A.Şaiqi də düşündürmüş və o, türkçülük ideyasının dönməz təbliğatçısı kimi bu istiqamətdə məqsədyönlü iş aparmışdır. Belə ki, repressiya başlananadək o həm bədii, həm də elmi yaradıcılığında bu məsələyə geniş yer vermiş, bir-birinin ardınca «Dilimiz və ədəbiyyatımız» (1913), «Tofik Fikrətin türk ədəbiyyatı tarixində əhəmiyyəti» (1924) və bir sıra sanballı məqalələri ilə yanaşı «Vətənin yanıq səsi», «Türk çələngi», (1919) kimi dərs vəsaitləri hazırlamışdır. Təsadüfi deyil ki, H. Cavid, Ə.Hüseynzadə, M.Hadi A.Səhhətlə birgə A.Şaiq də türkçülük ideyalarının təbliğində «pantürkizm», «panislamizm»də günahlandırılır, ciddi tənqid edilirdi.Ədibin oğlu K.Talıbzadə də öz xatirələrində yuxarıdakı fikirləri təsdiq edərək yazır: "atamın hökumətin nəzərində şübhəli keçmişi, H.Cavidlə ünsiyyəti onun üçün həmin böyük təhlükəyə çevrilmişdir. A.Şaiqin Ali Pedaqoji İnstitutundan uzaqlaşdırılması, «Şaiq Nümunə məktəbi»nin bağlanması, əslində onun səhhəti ilə deyil, siyasi vəziyyəti ilə əlaqədar idi» (82). Arxiv sənədlərində «Nümunə məktəbi»nin bağlanma səbəbi təhsilin yenidən qurulması kimi göstərilir. (Bu haqda III fəsildə bəhs edilmişdir). Lakin bu inandırıcı deyildir. Çünki Nazirlər Kabinetinin 1926-cı il 16 iyunda keçirilmiş (107) iclasının 1 saylı protokolunun ancaq qərar hissəsi saxlanılmışdır. İclasın gedişi, oradakı çıxışların mətnləri saxlanılmamışdır, bu hal da akademik M.Cəfərin və K.Talıbzadənin fikirləri ilə tam razılaşmaq üçün bizə əsas verir. 1956-cı il fevralın 25-də A.Şaiqin 75 yaşı tamam olur. Azərbaycan ictimaiyyəti yubileyi təntənə ilə qeyd etdi. Fevralın 27-də M.F.Axundov adına Mərkəzi Dövlət Kitabxanasında, martın 3-də S.M.Kirov adına ADU-da (indiki BDU – M.M), Milli Akademik Dram Teatrında yüksək səviyyədə silsilə tədbirlər keçirildi. Bu, xalqın öz müəlliminə, aliminə, şairinə, yazıçısına və vətəndaşına olan məhəbbət və ehtiramın ifadəsi idi. 1958-ci ilin dekabrında Azərbaycan KP Mərkəzi Komitəsi uşaqlara məxsus «Göyərçin» jurnalının nəşri barədə qərar qəbul etdi. Xəstə yazıçı bu xəbəri böyük fərəhlə

qarşıladı. O, «Göyərçin»i balacalar üçün əvəzedilməz hədiyyə hesab edərək, bu jurnalın məzmunca formalaşmasında ömrünün axırına qədər öz təmənnasız yardımını əsirgəməmişdir. Böyük vətəndaş, müəllim, alim, ədəbiyyatşünas, şair, yazıçı, dramaturq,tərcüməçi,və ictimai xadim Abdulla Şaiq Talıbzadə uzun sürən ağır xəstəlikdən sonra 1959-cu il iyulun 24-də Bakı şəhərində vəfat etmişdir. O, iyulun 25-də Fəxri Xiyabanda dəfn edilmişdir.

## 1.2. Abdulla Şaiq Talıbzadənin pedaqoji ideyaları: nəzəriyyə və təcrübə məsələləri

XX əsrin əvvəllərində Rusiyanın digər milli müstəmləkə rayonları kimi, Azərbaycan da imperiyanın geridə qalmış aqrar əyaləti idi. O, ictimai - siyasi cəhətdən olduğu kimi mədəni cəhətdən də hələ inkişaf etməmişdi, başqa əyalətlərlə müqayisədə səviyyə çox aşağı idi. Müsəlman əhalisinin mədəni geriliyi daha kəskin suratdə nəzərə çarpırdı. Bu geriliyi aradan qaldırmaq üçün əhalinin savadlanmasına,yeni tipli məktəblərin yaradılmasına ehtiyac var idi. XX əsrin əvvəllərində məktəbin ictimai tarixi rolu sürətlə artmağa başladı. «1905-ci il inqilabı ərəfəsində müsəlman məktəblərində təhsillə əhatə olunmuş uşaqların içərisində türklərin (azərbaycanlıların – M.M.) böyük bir azlıq təşkil etməsi xüsusi ilə acınacaqlı idi. 1914-15-ci dərs ilində Azərbaycanın bütün ibtidai, yeddiillik və ümumtəhsil, aşağı və orta peşə məktəblərində oxuyan 74825 nəfər şagirddən cəmi 23.414 nəfəri, yəni 31%-i azərbaycanlı idi» (28, s.10). Bu məktəblərdə təlim-tərbiyənin məqsədi birbaşa olmasa da dolayısı ilə gənc nəsli şovinizm ruhunda tərbiyələndirməyə xidmət edirdi. Böyük öndərimiz M.Ə.Rəsulzadə yazırdı: «çarizm Azərbaycanda ruslaşdırma siyasətini iki istiqamətdə həyata keçirməyə başladı: birinci, üləmaları, mollaları və əfəndiləri idarələrdə məmur vəzifəsinə təyin edərək öz xidməti qulluqçularına çevirirdi; ikincisi isə



Azərbaycanlı uşaqları rus məktəblərində oxudub, onlardan rus təbiətli «uçitellər» hazırlayırdı. Beləliklə, doğma klassiklərimiz əvəzinə, Güney Azərbaycandakı «mirzələr» Firdovsini, Sədini, Şimali Azərbaycandakı «uçitellər» isə Puşkini, Lermantovu, Tolstoyu və başqalarını təbliğ etməyə başlayırdılar. Nə farslaşmış «mirzələr», nə də ruslaşmış «uçitellər» xalqın istək və arzularını başa düşürdülər. Lakin tədricən «uçitellər» anladılar ki, xalqımızın övladlarına Tolstoy, Puşkin, Lermantovla yanaşı Füzulini, Sabiri, Şirvanini, Cavidi, Ə. Cavadı öyrətmək lazımdır" (85, s.24). Bu vəziyyət dövrün C.Məmmədquluzadə, Ə.Haqverdiyev, Ü.Hacıbəyli, S. S. Axundov, C.M. Qənizadə, M.Mahmudbəyov, F.Köçərli, kimi ziyalılarını yeni üsulla, milli proqram və dərsliklərlə fəaliyyət göstərən məktəblərin şəbəkəsinin genişlənməsi uğrunda mübarizəyə qaldırdı. Bu məktəblər çar məktəbləri ilə müqayisə edilməyəcək dərəcədə tədris planı, proqramı, ana dilində dərsliklərlə təmin edilməli, yeni təlim-tərbiyə üsulları ilə fəaliyyət göstərməli, bilikli müəllim kadrlarına malik olmalı idi. Zamanın diktə etdiyi bu tələbləri həyata keçirmək üçün qarşıya çıxan maneələr adları çəkilən ziyalıları bu ali məqsədə çatmaq üçün apardıqları mübarizədən geri çəkindirmədi. Onların sıraları getdikcə genişlənirdi. 1901-ci ildən rus-tatar məktəblərində ehtiyat ana dili müəllimi kimi fəaliyyətə başlayan A.Şaiq də ilk gündən bu maarifçilərin sırasına qoşuldu. O, yorulmadan ömrünün otuz beş ilini milli məktəblərin inkişafına, ana dilində plan, proqram və dərsliklərin hazırlanmasına həsr etdi. A.Talıbzadənin pedaqoji irsini araşdırarkən onun maarifin inkişafı üçün irəli sürdüyü fikir və ideyalarını aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Təhsilin idarə olunması, məzmunun yeniləşdirilməsi, yeni təlim üsulları.
2. Müəllim kadrlarının hazırlanması.
3. Təlim-tərbiyədə ailə və məktəbin əməkdaşlığı.
4. Təlimdənkənar (sinifdənkənar – M.M.) tərbiyəvi işlərin aparılması.

A.Talıbzadəyə görə, yeni tipli məktəblərdə təlim işinin keyfiyyəti yeni tədris planı, proqramları və ana dilində hazırlanmış dərsliklər əsasında qaldırıla bilər. Əslində bu yeni fikir deyildir. A.Şaiqə qədər M.Mahmudbəyov, F.Köçərli, F.Ağazadə, Ü.Hacıbəyli və başqa maarifpərvərlər bu ideyanı irəli sürmüş və onun gerçəkləşməsi uğrunda mübarizə aparmışlar. Lakin müasirlərindən fərqli olaraq A.Şaiq məktəbin idarə olunmasını təlim-tərbiyə işinin məzmununun yeniləşdirilməsində mühüm amillərdən biri hesab edirdi. O deyirdi ki, «məktəb işinə ziyalı, bacarıqlı, məktəb işinə sədaqətli, mütərəqqi fikirli adamlar rəhbərlik etməlidirlər. Belə rəhbər işçilər köhnə mütəxəssislər içərisindən seçilməlidir» (17, s.22). Məktəb müdirinin ümumi rəhbərlik funksiyalarından danışarkən qeyd edirdi ki, o, bu funksiyanı özündə müəyyən edilmiş tədbirləri əks etdirən fəaliyyət planı üzrə həyata keçirməlidir. Məktəb müdirinin iş planına konkret tədbir kimi şagirdlərin yeni tipli məktəblərə cəlb edilməsini, valideynlərlə, müəllimlərlə mütəmadi aparılan işləri daxil edirdi. Məktəbin fəaliyyət planının müxtəlifliyini qəbul edən A.Şaiq onun yerinə yetirilməsini əsas şərt hesab edirdi. O deyirdi ki, «iş planı sözçülükdən uzaq olmalı, özündə konkret tədbirləri əks etdirməli və pedaqoji şurada müzakirə olunduqdan sonra təsdiq edilməlidir» (91). A.Şaiqin fikrincə, məktəbin idarə edilməsində kadrların səviyyəcə düzgün seçilməsi təlim-tərbiyənin təşkilində çevikliyi təmin edər. «Nümunə məktəbi»ndə onunla birgə çalışan müasirlərinin xatirələrindən məlum olur ki, o, idarəetmədə inzibati-amirliyi qəbul etməmiş, qərarların qəbulunda, funksiyaların bölüşdürülməsində demokratik prinsipləri əsas götürmüşdü. A.Şaiq nəzarəti idarəetmənin ən vacib şərtlərindən biri hesab edirdi. Onun fikrincə, hər hansı, istər müfəttişlər tərəfindən, istərsə də daxili nəzarət işin vəziyyətini aşkara çıxartmağa, təkcə nöqsanları deyil, eyni zamanda onları doğuran səbəbləri müəyyənləşdirməyə, gələcəkdə buraxılan səhvlərin qarşısını almağa xidmət etməli və müəllimə kömək göstərməlidir. A.Şaiq



tez-tez gənc həmkarlarının dərslərini dinləyir, onlara metodik göstərişlər verirdi. Xatirələrdən görünür ki, «həmkarları onun göstərişlərinə hörmətlə yanaşmış, onun pedaqoji təcrübələrindən bəhrələnməyə çalışmışdılar» (17, s.23) .Ana dilinin tədris fənləri sistemində tutduğu mühüm mövqeni müdafiə edən A.Şaiqə görə, ana dilini bilməyən şagird başqa fənlərdən də yaxşı oxuya bilməz. Tutduğu bu mövqe onu dövrün qabaqcıl maarifçisi F.Ağazadə ilə eyniləşdirir. F.Ağazadənin fikrincə, «dərslik təmiz ana dilində, uşaqların yaş xüsusiyyətlərinə uyğun olmalı, şagirdə elmi bilik verməkdən əvvəl, onu tərbiyə də etməlidir. Dərsliklərdə əyanilikdən, şəkil və sxemlərdən geniş istifadə edilməli, sistematiklik və ardıcıllıq gözlənilməlidir. Uşaqların fikri, idrakı qabiliyyətini artıran mətnlər, çalışma və terminlər verilməlidir» (5, s.22). A.Şaiq də öz sələfinin bu fikirləri ilə tam razılaşaraq gəncliyin yetişməsində məhz belə dərsliklərin lazım olduğunu bildirirdi, Birinci müəllimlər qurultayında da gənc müəllim məhz ana dili və ədəbiyyatın tədrisi və yeni dərsliklər hazırlamaq təşəbbüsü ilə çıxış etmişdi. Qurultayda H.Zərdabi, F.Köçərli, M.Mahmudbəyov, S.S.Axundov, A.Şaiq və başqalarından ibarət komissiya yaradıldı. Komissiyaya ana dilində müvafiq proqram hazırlamaq tapşırıldı. Komissiya adından A.Şaiq qurultayın növbəti iclasında çıxış edərək proqramın tərtibi prinsiplərindən və ona uyğun olaraq məzmununun seçilməsindən danışdı. Qurultay nümayəndələri təqdim edilən proqramı geniş müzakirə edərək komissiyaya proqramı təkmilləşdirmək və ikinci qurultaya qədər onun əsasında dərsliklər hazırlamağı tapşırdı. Artıq 1907-ci ilin yayında çağrılan İkinci müəllimlər qurultayına S.Sani, A.Əfəndizadə «Əlifba», A.Şaiq isə «Uşaq çeşməyi» kitabı ilə gəldi. Görkəmli maarifçi F.Ağazadə və başqaları qurultayda həmin dərslikləri müdafiə etsələr də onlar sonralar istifadə üçün geniş yayılmadılar.1918-ci ilə qədər bir sıra maarifçilər tərəfindən dərsliklər yaradılmışdır. Belə ki, A.Şaiq «Uşaq çeşməyi», «Gülzar», M.Mahmudbəyov başqa müəlliflərlə birlikdə

«İkinci il», «Üçüncü il», «Türk ədəbiyyatına ilk qədəm», «Yeni türk əlifbası» dərsliklərini yazmışdır. Adları çəkilən dərsliklər rus-müsəlman məktəblərində şagirdlərin əsas dərs vəsaiti olub hər biri altı-yeddi dəfə nəşr edilmişdir. Həmin dərsliklərin tərtibində rus pedaqogikasının təcrübəsindən istifadə edilmişdir. Misal üçün, «İkinci il»in əsasını K. Uşinskinin məşhur «Vətən dili» əsəri təşkil edirdi. O zamanlar Azərbaycanın qabaqcıl pedaqoqlarına K.Uşinski ideyalarının təsiri güclü idi. Hətta R.Əfəndiyev tərəfinən hazırlanmış Azərbaycan dilində savad öyrənmək üçün metodik vəsaitdə belə Uşinskinin analitik - sintetik səs metodundan istfadə etmək təklif edilirdi. A.Şaiqin həyat və yaradıcılığını araşdıran bəzi tədqiqatçılar 1918-20-ci illərdə məktəblərin və ümumiyyətlə, təhsilin inkişafı haqqında heç bir əməli addımın atılmadığını və bu illər ərzində bu sahədə durğunluq yarandığını qeyd edirlər. Ancaq tədqiqatçı A.Qəhrəmanova «Azərbaycan Demokratik Respublikasında Xalq Maarifinin təşkili yolları» mövzusunda yazdığı namizədlik dissertasiyasında bunun tam əksini göstərir. Tədqiqatçı yazır: «Azərbaycan Demokratik Cümhuriyyətinin hakimiyyəti dövründə məktəblərin milliləşdirilməsi, tədris planı, proqram və dərsliklərin məzmununun yeniləşdirilməsi prosesi daha sürətlə inkişaf etməyə başladı. 1919-cu il martın 30-da Maarif Nazirliyinin Xalq Məktəbləri İdarəsinin şöbə rəisi A. Əmirovun yanında müşavirə keçirildi. Müşavirədə orta məktəblər şöbəsinin rəisi F.Rzabəyli, ikinci ədliyyə naziri F.Əfəndi, üçüncü ali məktəbdən P. Qasımov, Müəllimlər Seminariyasından H.Əfəndi, Birinci Realnı Məktəbindən A.Talıbzadə iştirak edirdi. Müşavirədə proqram və dərsliklərin vəziyyətinin keyfiyyətlə müzakirə etmək üçün fənlər üzrə dörd komissiya yaradıldı: 1) riyaziyyat; 2) təbiət; 3) ədəbiyyat; 4) tarix- coğrafiya. A.Ş. Talıbzadə, M.Mahmudbəyov, S.S.Axundov, P.Tahirov, F.Kamal bəy, F.Rzabəyli ilə birgə ədəbiyyat komissiyasına daxil edildi. Məqsəd milli ruhda olan proqram və dərsliklərin hazırlanması idi. Məqsəddən irəli gələrək hazırlanmış proqramlar əhatə dairəsinə görə geniş olub, uşaqlara bilik verməklə bərabər, onların ümumdünya görüşünü inkişaf etdirməyə xidmət etməlidir» (50, s.67). Milli ruha malik Azərbaycan vətəndaşını yetişdirmək bu dövrdə fəaliyyət göstərən təhsil ocaqlarının əsas vəzifəsi idi. «Həmin vəzifə 1918-ci ildə mayın 28-də milli müstəqilliyini elan etmiş Azərbaycan Demokratik Respublikası dövründə ləyaqət və şərəflə yerinə yetirildi. Xalq maarifinin milli ruhda, milli məzmunda təşkili, məktəblərin milliləşdirilməsi pedaqoji fikrin milli və bəşəri dəyərlər zəminində inkişafını təmin etdi» (50, s.22). ADR zamanında əsası qoyulmuş bu işlər milli hökumət süqut etdikdən sonra da müəyyən müddətə davam etdirildi. Zaman keçdikcə proqram və dərsliklər təkmilləşir, onların işlənib hazırlanmasına gənc, perspektivli qüvvələr dəvət edilirdi. «1923-24-cü dərs ilində Bakıda pedaqoji texnikum direktorlarının, təhsil şöbə müdirlərinin və mütərəqqi fikirli müəllimlərin qurultayı keçirildi. Qurultayda mövcud proqram və dərsliklərə baxıldı. Proqramları işləmək üçün nəzəri cəhətdən hazırlıqlı, iş stajı çox olan, təcrübəli müəllimlər dəvət edilirdi. Həmin illərdə profilə uyğun tərtib edilmiş komissiyalar proqramları təkmilləşdirməklə bərabər, istifadə edilən dərslikləri də nəzərdən keçirib nəşr edirdilər» (97). Həmin illərdə «Baş siyasi Maarifləndirmə İdarəsi öz hesabatında A.Talıbzadənin aşağıdakı dərsliklərinin çapdan çıxdığını göstərirdi:

1. «Şaiq məcmuəsi» - 1000 nüsxə
2. «Türk ədəbiyyatı» - 1000 nüsxə
3. «Milli qiraət» - 1500 nüsxə» (109)

Bu dərsliklər məktəblərə paylanaraq tələbatı qismən də olsa, ödəyirdi. Elmi-metodiki şuranın rəyasət heyəti özünün «1924-cü il 19 fevral tarixli iclasında yenidən A.Şaiqin «Qiraət kitabı»nı və proqramını müzakirə etmişdir. Qəbul olunmuş 7 saylı qərarda proqram və dərsliyə bəzi dəyişikliklərin edilməsi təklif olunmuşdur» (109). Müəllif tərəfindən qərarın yerinə yetirilməsi üçün yazılı razılıq məktubu alındıqdan sonra onun 1925-

26-cı dərs ilində dərc edilməsinə icazə verilmişdir. Ümumiyyətlə, 1924-26-cı illərdə A.Talıbzadənin «Türk dili», «İkinci il», «Qiraət kitabı», «Türk ədəbiyyatı», «Türkcə sərf-nəhv», «Türk dili və ədəbiyyatı» kimi dərslik, müntəxabat və proqramı bir-birinin ardınca dərc edilmişdir. Dərs kitablarının tərtibində və nəşrində Şaiqin xidmətləri böyük idi. O zamankı şəraitdə başqa məktəblərin ədəbiyyat müəllimləri ona müraciət edərdilər. «O, həmkarlarına təkçə Azərbaycan şair və yazıçılarının yaradıcılığı haqqında deyil, eyni zamanda rus və Avropa ədəbiyyatından söhbət açar, onların əsərlərini də təhlil edərdi. Onlara Füzulini, Vaqifi, Axundovla bərabər Puşkini, Servantesi, Lermantovu oxumağı məsləhət görərdi» (8, s.21-25). A.Şaiqə görə təlim-tərbiyənin məzmununun yeniləşməsində ən mühüm tədbirlərdən biri də ibtidai siniflərdə təlim prosesinin düzgün qurulmasıdır. O deyirdi ki, təlimin keyfiyyətinin yüksəldilməsi təkcə proqram və dərsliklərin məzmununun yeniləşdirilməsindən asılı deyildir. O, eyni zamanda dərs prosesində müəllimin istifadə etdiyi təlim metod və üsullarından da asılıdır. A.Şaiq «təlim keyfiyyətinin təməlini əlifba və ibtidai siniflərdə qoyulduğunu göstərirdi» (69,s.73). Bu isə həmin siniflərdə tədris edilən materialın düzgün planlaşdırılmasından, metodların düzgün seçilməsindən asılıdır. Məhz ilkin olaraq bu siniflərdə uşaqlarda doğma dilə, kitaba, oxuya maraq və məhəbbət hissi aşılanır, dünyagörüşünün inkişafı üçün geniş imkanlar yaranır, yazı ilə tanışlıq başlayır. O, «uşaqlarda öz fikirlərini, müşahidə etdiklərini savadlı şəkildə şifahi və yazılı surətdə ifadə edə bilmələrində qiraət və yazının böyük rol oynadığını göstərirdi» (23, s .27). İbtidai siniflərdə ana dili tədrisinin vəzifəsini düzgün qiymətləndirən A.Şaiq deyirdi ki, «bu fənn şagirdlərə yalnız qiraət və yazı vərdişləri aşılamır, eyni zamanda onların nitqinin inkişafında önəmli yer tutur və bu iş hər bir mövzu ilə əlaqələndirilərək tədris prosesində təlim və tərbiyənin vəhdətinə xidmət edir» (17, s.13).Əsrin əvvəllərində məktəblərdə əlifbanın öyrədilməsində istifadə edilən



«höccələmə», metodunun sxematikliyi, quru və cansız əzbərləmə metodu, il yarıma əlifbanı öyrədən Amerika «tam kəlmə», «qaydalarla təlim», hətta inqilabdan sonra innovativ bir metod kimi məktəblərdə təlim prosesinə daxil olmuş evristik təlim maarifçilər tərəfindən kəskin tənqid edilirdi» (2, s.11). Bəzi müəllimlər əlifba və ana dilinin təlimi zamanı sövti (səs) üsulunu faydalı sayırdılar. A.Talıbzadənin də müəlliflərdən biri olduğu «İkinci il» dərsliyi məhz bu prinsiplərlə hazırlanıb çap edilmişdir. Slavyan pedaqoqu Y.A.Komenski tərəfindən verilmiş, sonralar Pestolotsi və Uşinski tərəfindən əsaslandırılıb inkişaf etdirilmiş yeniliyin «qızıl qanun»u (44, s.32) müəllimlər tərəfindən təlimdə tətbiq edilirdi. O zamanlar rus dili müəllimi işləyən Ü. Hacıbəyli təlimdə "Üsuli-tərcümə" əvəzinə "Üsuli-təbii"dən istifadə etməyi təklif etmişdir ki, bu da pedaqoji ictimaiyyət tərəfindən birmənalı qarşılanmamış, müzakirə və mübahisələrə səbəb olmuşdur» (107). ADR və inqilabdan sonrakı dövrlərdə də məktəblərdə təlim metod və üsullarının yeniləşdirilməsi mövzusu dəfələrlə müzakirə obyekti olmuşdur. Elmi metodik şuranın 1924-cü il 7 aprel ta- rixli iclasının qərarında göstərilir ki, «humanitar fənlərin tədrisində əyanilikdən istifadə edilmir, hesab dərslərində eyni məsələ və misalların həlli yolları göstərilmədən uşaqlara hazır şəkildə verilir. Qrammatikanın təlimində qaydalar şagirdlərə xorla oxumaqla əzbərlətdirilir. Kadr çatışmazlığı nəticəsində bir çox məktəblərdə coğrafiyanın tədris edilmədiyi göstərilir. Daha sonra müsbət hal kimi mövzuların təlimində ekskursiyalardan geniş istifadə edildiyi deyilir. Ekskursiyaların müsbət cəhətləri təqdim edilməklə bərabər, onun metodiki cəhətdən düzgün qurulmadığı qeyd edilir» (107). A.Ş.Talıbzadə də müasirləri kimi klassik pedaqogikanın mövcud mütərəqqi təlim üsullarını tənqidi surətdə öyrənməyi, onu təcrübədən keçirərək uşaqların yaş xüsusiyyətlərinə uyğun forma və üsulları seçməyi düzgün hesab edirdi. Metodikada didaktikanın qaydasını məlumdan məchula və asandan çətinə qaydasına əməl etməyi

üstün tuturdu. A.Şaiqə görə «didaktik vəzifədən asılı olaraq təlimin əsas forması olan dərsdə müxtəlif üsulların tətbiq edilməsi dərsi daha maraqlı, şagirdləri isə səylə çalışmağa sövq edir» (55, s.75). Dərs prosesində müəllimin izahlarına üstünlük verən maarifçi bu izahların birtərəfli olmamasını, şagirdin müstəqil işinə zərər vurmamasını göstərirdi. A.Şaiq bu qənaətdə idi ki, « hər bir dərs uşaqları biliklə sadəcə yükləməməli, eyni zamanda onların müşahidə etmək, nəticə çıxartmaq, bilikləri tətbiq etmək qabiliyyətini də formalaşdırmalıdır» (55, s.76). Yəni tarix dərsi ötüb keçmişlərin sadəcə sadalanmasından və ya ədəbiyyat dərsləri şagirdlərin əsərlərin məzmununu öyrənməsindən ibarət deyil, şagirdlər bu dərslərdə inkişafın qanunauyğunluqlarını, həyatı dərk etməlidirlər. Onun bu fikirləri XVII əsrdə yaşamış slavyan pedaqoqu Y.A.Komenskinin söylədiyi: «Şagirdlərin tədris fəallığı onunla şərtlənir ki, şagird özü müşahidə etsin, düşünsün, müstəqil surətdə fəaliyyət göstərsin, bilikləri müstəqil surətdə tətbiq etsin» (46, s.28) fikirləri ilə demək olar ki, üst-üstə düşür. A.Şaiq klassik pedaqoqlardan daha uzağa gedərək söyləyirdi ki, «müəllim dərs dediyi hər bir şagirdin bilik səviyyəsini, qavrama qabiliyyətini, marağını, maddi şəraitini bilməli və ona uyğun yanaşma və təlim üsulunu seçməlidir» (18, s.3). O, bir müəllim kimi bundan bacarıqla istifadə etmişdir. A.Şaiqin tələbəsi olmuş görkəmli şair S.Rüstəm müəllimi haqqında yazırdı: «O öz tələbələrinin hansı ailədə, nə kimi şəraitdə yaşadıqlarını yaxından öyrənir və hər tələbəyə onun xasiyyətinə görə yanaşmağı bacarırdı. Keçdiyi mövzuya dair maraqlı suallar quraraq şagirdin diqqətini təlimə cəlb edirdi» (66). Daha bir şagirdi Mehdi Hüseyn isə yazırdı: «A.Şaiq daxili bir atəş və ilhamla bütün sinfi ələ alırdı. Dərs saatının tez qurtarmağı bizim hamımızda təəssüf hissi oyadırdı» (57). Başqa bir xatirədə oxuyuruq: «Şaiqin dərsləri heç vaxt proqram və dərs saatının imkanlarında məhdud olub qalmazdı. Bəzən də proqram və dərsliklərin bilavasitə tərtibçisi olduğundan o, təlim prosesi zamanı əvvəlcədən planlaşdırılan və nəzərdə tutulan metodik sistemin (üsulun-qeyd – M.M.) özünü doğrultmadığını görüb, daha yeni və müvəffəqiyyətli metodik priyomlara əl atırdı »(22, s.12). Professor Ə.Qarabağlı Şaiqin təlim metodikasını yüksək qiymətləndirərək yazırdı: «A.Şaiq müəllimlik sənətində təlim materiallarının maraq doğuracaq tərzdə tədrisini başlıca metodik şərtlərdən biri hesab edir, özünün ədəbiyyat dərslərini həmişə cazibədar, rəngarəng tədris üsulları vasitəsi ilə keçməyə nail olurdu. O əsərin məzmununu özünəməxsus «ecazkar ifadəsi ilə danışır, yazıçının təbliğ etdiyi fikri sənətkarlıqla bədii yüksəkliyə qaldırır, təsirkar tələffüzlə şagirdlərə çatdırırdı» (49, s.55). Beləliklə, yeni tipli məktəblərin, yeni məzmunda proqram və dərsliklərin yaradılması, mütərəqqi təlim üsullarının tətbiqi kimi o dövrdə ictimai fikrin irəli sürdüyü aktual nəzəri proqramın həyata keçirilməsində sözün əsl mənasında fədailik edən ziyalılar sırasında A.Talıbzadə də öz dəsti-xətti ilə inamlı addımlar atmış, bu gün pedaqogika tariximizin qiymətli fondu hesab edilən milli məktəb açaraq, proqram, dərslik yaradaraq, müəllim-şagird, müəllim-valideyn münasibətlərinin qurulmasında öz mütərəqqi baxışları ilə həmkarlarına örnək olmuşdur. Məktəblərin sayı artdıqca, proqram və dərsliklər yeniləşdikcə maarifçilərimiz müəllim kadrlarının çatışmazlığı ilə üzləşirdilər. Milli kadrların sayı başqa millətlərlə müqayisə edilməz dərəcədə az idi. Qadın müəllim kadrları demək olar ki, yox idi. Mövcud qadın seminariyalarına azərbaycanlı qadınlar maraq göstərmirdilər. «Bakıda qadın müəllim seminariyası açıldı. Bir tatar (azərbaycanlı - qeyd M.M.) qadın seminariyaya qəbul olunmuşdur. Qalanı rusdur. » (128, №9).A.Şaiq və başqa maarifçilər müəllim hazırlayan kursların təşkil edilməsi üçün hökumətə müraciət etdilər. Lakin çar hökumətinin məmurları bu müraciətə laqeyd qaldılar. Nəhayət, tərəqqipərvər maarifçilərin tələbi ilə «1911-ci ildə Bakıda «İbtidai məktəblərdə Ana dilində ilk qiraət kitabları haqqında pedaqoji kurs təşkil olundu. Kursun işində S.S.Axundov, M.Mah-

mudbəyov, A.Qasımov, R.Hacıbabayeva, N.Məlikova ilə bərabər A.Şaiq də iştirak edirdi.» (107) Belə hazırlıq kursları qısa fasilələrlə sonralar da fəaliyyət göstərmişdir. İstər ADR hökuməti, istərsə də Sovet hakimiyyətinin ilk illərində A.Şaiq bu kurslar üçün proqram, dərslik hazırlamış, nəzəri və təcrübi məşğələlər aparmış, milli kadrların hazırlanmasında əvəzsiz xidmət göstərmişdir. Məhz buna görə də ilk Ali Pedaqoji İnstitutun yaranması üçün təşkil edilmiş dövlət komissiyasının üzvlərindən biri də o olmuşdur.Dərslik və dərs vəsaitinin çatışmaması da bir problem kimi gündəmdə idi. Yenə də bu boşluğu A.Şaiqin əsrin birinci on illiyində tərtib etdiyi dərsliklər doldurdu. ADR zamanı məktəblərdə və «Nümunə məktəbi»ndə bu dərsliklərdən istifadə edilmişdir. Hətta Sovet hökumətinin ilk illərində bu dərsliklər dönə-dönə dərc olunmuşdur. Belə ki, 1924-26-cı illərdə Şaiqin «Türk dili», «İkinci il», «Qiraət kitabı», «Türk ədəbiyyatı» kimi dərslik, müntəxəbat və proqramları bir-birinin ardınca nəşr edildi. Daha sonralar «Ədəbiyyat proqramı», «Dördüncü il», «Ədəbiyyatdan iş kitabı» və başqa kitabları çapdan çıxdı. 1926-cı ildə hazırladığı «Ədəbiyyat proqramı» forma və məzmununa görə əvvəlkilərdən fərqlənirdi. «Ədəbiyyat tarixi; XIV-XIX əsrlər. Dərslik. Tədris proqramı ilə» adlanan bu vəsait aşağıdakı bölmələri əhatə edir: 1) feodalizmin kamal dövründə təsəvvüf zümrəsinin ədəbi üslubu; 2) dövrün ictimai münasibətləri; 3) klassisizmin əsasları. Feodalizmin kamal dövründə təsəvvüf zümrəsinin ədəbi üslubu adlanan birinci bölmə iki hissədən ibarətdir. A.Şaiq birinci bölmədə İslam mədəniyyətinin tarixindən, onun inkişafında ərəblərin haqqı olduğu kimi başqa millətlərin də, xüsusən türklərin və farsların da böyük bir hissəsinin xidməti olduğunu göstərərək, fars və türk mədəniyyətinin və ədəbiyyatının inkişafı arasında müqayisəli təhlil aparır: «... farslar türklərdən daha əvvəl zamanın ideolojisinə və psixolojisinə müvafiq elm və ədəbiyyat yarada bildilər (Firdovsi, Sədi, Hafiz). Türklər isə bu xüsusda çox yanlış bir xətt-hərəkətdə bu-



lundular. İslamiyyəti qəbul etdikdən sonra din təsiri ilə türklərdə, siyasi, ictimai, iqtisadi və mədəni həyat tamamilə dəyişdi, hər şey alt-üst oldu. Şaman məzhəbi yerinə İslam dini, əski türk əlifbası yerinə ərəb əlifbası, heca vəzni yerinə ərəblərdən alınmış əruz oturdu. Saf türkcəyə ərəb və əcəm kəlmə və tərkibləri girdi» (90).Daha sonra o,İslamı parçalamaq üçün müxtəlif məzhəblərin meydana gəlməsinə, qətl və qarət qovğalarının aparılmasına cəlb edir. « Bu çəkişmələr nəticəsində sufizm, panteizm, hürufizm və təsəvvüf məzhəbləri yaranırdı. » (90) A.Şaiq öz proqram və dərsliyində orta əsrlər ədəbiyyatının məzmun və mahiyyətcə formalaşmasında böyük rol oynayan bu cərəyanların təsirinin geniş təhlililini verir. Təsəvvüfün əsasları adlanan ikinci hissədə A.Şaiq onun fəlsəfi əsaslarını açıqlayır. Bu əsası fəlsəfə və dindən doğmuş sufizm və hürufizm təşkil edirdi. Ayrı-ayrılıqda sufizm və hürufizmin mahiyyətini göstərən A.Şaiq yazır: «Sufilərə görə, həyat yalnız «vücudi mütləqə» məxsusdur. Hər şey ondan ibarətdir. Onsuz bir maddənin təsəvvürü qeyri-mümkündür. O, bir günəşdir, biz ondan ayrılmış, yenə də onunla birləşəcək zərrələriz...» (90) Bu kamalı dərk etmiş olan Həllac Mənsurun və başqa hürufilərin «ənəl-həqq» deməsi də bu keyfiyyətdən irəli gəlir. «Ondan «hüvəlhəqq» deməsi tələb olundu. «O külliyyatdır, Allah hər şeydir» dedi» (90). Daha sonra təsəvvüfün nümayəndəsi olan Yunus İmrənin, hürufizmdən İmadəddin Nəsiminin, sufi mürşüdlərindən Şah İsmayıl Xətayinin adları çəkilir və onların həyat və yaradıcılığı, dini baxışları haqqında qısa məlumat verilir. Dövrün tarixi-ictimai münasibətləri adlanan ikinci hissədə müəllif cəmiyyətdə gedən dəyişikliklərdən bəhs edir. Bu dəyişikliklər nəticəsində cəmiyyətin ikiyə bölünməsi səbəblərinin şərhini verir və bunun ədəbiyyatda da öz əksini tapdığını göstərir. O, bu baxımdan ədəbiyyatı üç hissəyə ayırır: «birinci, saray ədəbiyyatıdır ki, bura saray və ətrafında toplanan yerli və əcnəbi şair, ədib, alimlər daxildir. İkinci, xalq ədəbiyyatıdır. Bu zümrəyə sarayla əlaqəsi olmayan xalq təbəqə-

si aid edilir. Üçüncü, qarışıq ədəbiyyatıdır. Bura eyni zamanda hər iki təbəqəyə xitab edən və onların «tərcüməni-əfkarı olan iki dil, iki ədəbiyyatdır» (90). Klassizmin əsasları adlanan üçüncü bölmədə A.Şaiq M.Füzuli, M.P.Vaqif, M.V.Vidadi, Q.B.Zakir, S.Ə.Şirvaninin həyat və yaradıcılığından bəhs edir, əsərlərindən parçaların təhlilini verir. Füzuli işinə böyük qiymət verərək onu yüksək mədəniyyət, elm nümunəsi kimi hesab edirdi: «Füzuli şeir demədən əvvəl təhsilə, elmə çalışdı. İstedadı sayəsində həm gözəl alim oldu, həm şair. Çünki elmsiz şeir, əsassız divar kimi olduğunu və şair cahil olursa, cəhli şeirə dəxi sirayət edəcəyini gözəlcə düşünmüşdür» (90). «Bir romantik kimi A.Şaiq ədəbiyyatın təsiredicilik mahiyyəti haqqında tezis irəli sürərkən Füzuliyə istinad etdiyi göz qabağındadır» (90). Proqram XIV-XIX əsr ədəbiyyatımızın mühüm bir sahəsini həm nəzəri, həm də praktik cəhətdən əhatə edir. Onun bölmələrinin hər biri üzrə şagirdlərin qavrayacağı dərəcədə təhlillər verilir. Hal-hazırda mövcud proqramlardan fərqli olaraq dini təriqətlərin; sufizm, panteizm, hürufizmin əsasları, mahiyyəti olduqca sadə, elmi, yaddaqalan bir tərzdə verilmişdir. Proqramda tarixilik, forma və məzmun bir-birini tamamlayır, pedaqoji prinsipə riayət edilmiş, ərəb-fars mənşəli sözlərin anlamı göstərilmişdir.

1920-ci il iyun ayının 12-də «Köhnə orta və ibtidai məktəb tiplərini politexnik məktəblərlə əvəz etmək haqqında», may ayının 15-də isə «Vicdan azadlığı haqqında» hökumət dekretləri elan edildi. İyununun 26-da isə «Azərbaycan Sovet Sosialist Respublikası vahid əmək məktəblərinin Əsasnaməsi» qəbul olundu» (14, s.385). Bu Əsasnamə və dekretlər təlimin məktəblərdə ana dilində və pulsuz olacağını, məktəb qapılarının zəhmətkeş uşaqlarının üzünə açıq olacağını, məktəbləri məscid və kilsələrin təsirindən xilas etdiklərini, həmçinin açılacaq yeni məktəb tiplərində xalq kütlələrinin təhsil alacağını elan etdi. Bunlardan əvvəl «1920-21-ci dərs ilində açılacaq yeni məktəblərin tədris planları, oğlan və qızların mümkün olan yerlərdə bir-



likdə təhsil almaları, məktəblərə qəbul qaydaları, məktəblərin idarə olunması və s. dair bir sıra mühüm məktəb sənədləri qəbul edildi və Xalq Maarif Komissarlığı tərəfindən yerlərə göndərildi» (60, s.12). Sözsüz ki, qısa bir müddət ərzində hazırlanıb yerlərə göndərilən, yeni məktəblərin tiplərini, məzmun və prinsiplərini, təşkilat məsələlərini aydınlaşdıran bu sənədlər Sovet Rusiyasının xalq maarif orqanlarının təcrübəsinə istinadən hazırlanmışdır. Yeni Sovet Azərbaycanının məktəblərinin təşkili üçün mühüm tədbirlərdən biri bu məktəbləri lazımi müəllim kadrları ilə təmin etmək idi. Hökumət tərəfindən bu problemi həll etmək üçün altıaylıq, bir illik kurslar, pedaqoji texnikumlar, şərq fakültəsi, işçi fakültəsi açıldı. Beləliklə, 1920-ci ildə Bakı Müəllimlər Seminariyası, 1924-cü ildə isə Ali Qadın Pedaqoji İnstitutu yaradıldı. Bütün bu tədbirlərin həyata keçirilməsində fəal iştirak edən A.Şaiq öz "Xatirələr"ində yazırdı: «Mənim çoxdan arzu etdiyim və böyük intizar ilə gözlədiyim zaman yetişdi» (69, s.35).1930-31-ci illərdə Şaiq başda olmaqla bir qrup müəllim Maarif Nazirliyinin tapşırığı ilə Şuşa Pedaqoji Texnikumuna gedir. O, burada pedaqoji kadrların hazırlanmasına, müasir təlim-tərbiyə qaydalarının yaradılmasına kömək edir. A.Şaiq hesab edirdi ki, istedad sahibi olan müəllim əsl müəllimdir. Belə müəllimlər mövcud proqram və dərsliklərə salınmış mövzuların tədrisinə müvafiq metodik üsullar axtarıb tapa bilər. O yazırdı: «Sözün qısası: hər müəllim üsullara gözəl aşina olmaqla bərabər öz mənliyi və şəxsiyyətini unutmamalıdır. Dərsdə özünü hər bir zaman dar çərçivə içərisində sıxmağa çalışmamalıdır» (69, s.40). Şagirdin sinifdə eşitdiyi, kitabdan oxuduğu və ya müəllimin söylədiyi sözlərin, təriflərin arxasında duran real həyat hadisələrini görə bilmədikdə ona kömək etməyi müəllimin ən birinci vəzifəsi hesab edirdi. Yeni tipli məktəblərin, proqramların, dərsliklərin yaranması yalnız bacarıqlı, namuslu və vicdanlı müəllimlərin fəaliyyəti üçün yox, eyni zamanda təhsil alan uşaqların fəallılığının artmasına da şərait yaradırdı. «Namuslu, vic-

danlı, zəhmətkeş gənclərin yetişməsi üçün əlverişli zəmanə yetişmişdir.Balalarımızın bütün tərbiyə, təhsil, təlim işi onlarda vətəndaş əxlaqını tərbiyə etməkdən ibarətdir» (69, s.87). Tərbiyə məsələlərində ailənin rolunu yüksək qiymətləndirən maarifçi məqalələrinin birində yazırdı: «Ailə və məktəb bir şeydir. Bu iki tərbiyə və bilik ocağı bir-biri ilə hər zaman sağlam və qırılmaz rabitələrlə bağlanmalı və hər ikisi səviyyəcə bir-birinə müsavi olmalıdır. Ancaq belə olduğu zaman bilik, əxlaq və tərbiyəcə sağlam və qüvvətli nəsil yetişdirmək olar» (76, s.29). Məktəb ilə ailənin qarşılıqlı əlaqəsi məsələsi Şaiqin ədəbi yaradıcılığında da öz əksini tapır. 1935-ci ildə yazdığı «Xasay» povestində o, tərbiyədə müəllimin rəhbər rolunu daha qabarıq şəkildə göstərərək bu fəaliyyətin ailə və ictimaiyyətin qırılmaz tellərlə bağlı olduğuna oxucuların diqqətini cəlb edir. 1935-ci ildə yazılmış bu əsərdə son dərəcə əhəmiyyətli, həmişə aktual olan bir mövzu sənətkarlıqla işlənmişdir. Povestdə dövrümüzün əxlaq və tərbiyə kimi mühüm ictimai problemi inandırıcı bir şəkildə realist bir üslubla həll edilmişdir. Tərbiyə mövzusuna həsr edilmiş əsərin əsas ideyası Kamil müəllimlə şagirdi Xasayın münasibətlərində açılır. Əsərdə müxtəlif mövqelədə duran qəhrəmanlar Xasay, Kamil müəllim, Mirzə Rəhim, Rəcəb, Badam və başqaları müxtəlif xarakterli adamlardır. Məktəbin nümunəvi şagirdi Xasay atasını itirdikdən sonra büsbütün dəyişir; dərsə gəlmir, cinayətkara ərə getmiş anası ilə yola getmir, bacısını dərsə buraxmır, özü ilə bərabər alverə aparır. Lakin xeyirxah adamların, xüsusən də Kamil müəllimin səyi və köməyi nəticəsində Xasay yenə əvvəlki kimi nümunəvi şagird olur, anası işə düzəlir, bacısı təhsilini davam etdirir. Anası Badamı isə zəhmətsevən kollektiv qayğı və məhəbbətlə əhatə edir, onda həyata və insanlara inam, məhəbbət hissi doğurur. Xasayın da, Badamın da inkişafı məntiqi ardıcıllıqla, inandırıcı və təbii baş verir. Bu obrazlar ictimai varlığın özündən doğur, inkişaf prosesinin nəticəsi kimi meydana çıxır. A.Şaiq eyni zamanda geriliyi, köhnəliyi,



mühafizəkarlığı, köhnə dünyanın əxlaq prinsiplərini, murdarlığını, pozğunluğunu təmsil edən Rəcəb və Mirzə Rəhimin iç üzünü bacarıqla açıb göstərir. Əsərdə biz köhnəliyin məğlubiyyətinin və yeniliyin qələbəsinin şahidi oluruq. Xasay müxtəlif vasitələrlə tərbiyə olunub doğru yola düşdükdən sonra Rəhim müəllim təəccübünü gizlədə bilməyərək Kamil müəllimdən soruşur: «de görüm buna nə sehr oxudun». Kamil müəllim cavab verərək deyir: «İnsan bir gündə dəyişməz, onu dəyişdirmək üçün min bir şərait lazımdır, yoxsa mənim nə sehrim var, nə möcüzəm, nə də elə mövhumata inanıram. Bir də onu mən dəyişdirməmişəm, bu günü sosializm mühiti və şəraiti, ictimai ailə dəyişikliyi və Xasayın bu mühitdən aldığı istedad və qabiliyyəti dəyişdirdi» (51, s.53). Bununla da A.Şaiq tərbiyədə ictimai mühitin rolunu qeyd edərək müəllim və valideynin rolunu yüksək qiymətləndirir. Ümumiyyətlə, gənc nəslin təlim-tərbiyə işində A.Şaiq valideyn-müəllim-mühit üçbucağını tərbiyədə ən vacib şərtlərdən biri kimi qiymətləndirir. Və yaxud da «Vəzifə» hekayəsində öz pedaqoji təcrübəsinə əsaslanaraq məktəblə ailənin qarşılıqlı əlaqəsi məsələsinin canlı lövhələrini vermişdir. Əsas fikir bundan ibarətdir ki, uşağın əsl insan kimi tərbiyə edilməsində məktəblə ailənin birgə fəaliyyəti həlledici rola malikdir.1923-cü ildə yazılmış bu hekayə müəllifin yaradıcılığı baxımından çox səciyyəvidir. Bu hekayədə ədib məktəbyaşlı uşaqların tərbiyə olunmasında məktəblə ailənin birgə işləməsi məsələsini irəli sürür. Ədibə görə, hərgah onlardan biri qüsurlu olarsa verilən tərbiyə mükəmməl olmayacaqdır. Hekayədə Xosrov adlı bir uşağın atasının xasiyyətinin çox sərt olduğu göstərilir. Atası uşağın hər işinə qarışır, hər xırda iş üstündə onu danlayır, incidir. Çox həssas və əsəbi olan uşaq evdəki bu şəraitə dözə bilmir. Baş götürüb qaçmaq üçün evdən pul oğurlayır. Xosrovun anası bu əhvalatı onun sinif rəhbərinə xəbər verir. Müəllim işə qarışır. Ailə ilə məktəb əl-ələ verib Xosrovu qorxulu yoldan qaytarmağa müvəffəq olurlar. Bu ideyanı məktəblə ailənin birliyini

biz «Xasay» əsərində də görürük. Hər iki əsərin oxşar cəhətlərindən biri də onun müəllimi uşaqlara sevdirməsi, müəllim ilə şagirdlər arasında səmimiyyət yaratmasıdır. Daha bir başqa əsərində «Eloğlu» pyesində qar paltar geymiş ana vətən obrazını yaradır. O, əsarətdə olduğu üçün üzü gülmür, xalq içindən onu qurtaracaq bir igid, qəhrəman axtarır. Bu qəhrəman Eloğludur, Eloğlu düşmənə qalib gəlmək üçün öz qəhrəmanlığını biliklə birləşdirir. O, zalım xana qarşı apardığı mübarizədə həmişə qoca qarının ona dediyi: «Oğlum, al bu ağacı yaxşı saxla. O sənin xalqının biliyidir. Ağıllı və namuslu olduğun üçün sənə bağışladım. Onunla yalnız vətənini və xalqını qoru» (61, s.104) sözlərini xatırlayır. Eloğlu ikinci dəfə qarı ilə rastlaşanda qarı ona xalqının səsini eşitməyi məsləhət görür. Biliyə və xalqın gücünə arxalanan Eloğlu zalım düşmənə qalib gəlir. Xalq öz azadlığına qovuşur, xoş günə çıxır. A.Şaiq öz əsərlərində gənc nəsildə düşmənə nifrət, vətənə məhəbbət hissi aşılayırdı. Bu baxımdan onun «Vətən» pyesi daha dəyərlidir. Əsərdə şər qüvvələrin nümayəndələri olan buynuzlu divlə, cadügərlər elə eybəcər və qorxunc göstərilmişdir ki, oxucu onların məhvini səbirsizliklə gözləyir. Düşmən qüvvətli və zalımdır. Xalqın içərisindən çıxmış Elman vətəni xilas etmək üçün hər cür əzab-əziyyətə qatlaşır, qorxmadan düşmən üzərinə gedir, mübarizədən geri çəkilmir. Eloğlu kimi ona da bu haqlı mübarizədə xalq dühasının rəmzi olan ahıl bilici kömək edir və o qalib gəlir. Vətənin azadlığı uğrunda gedən mübarizəni A.Şaiq əsərdə maraqlı və yaddaqalan səhnələrlə əks etdirmişdir. O, gənc nəslə vətəni sevdirə bilmişdir. Elə əsərin də tərbiyəvi əhəmiyyəti bundan ibarətdir. A.Şaiq istər müəllimlik, istərsə də ədəbi fəaliyyətində insanı və zəhməti yüksək dəyərləndirmişdir. Öz məzmununda əxlaqi və tərbiyəvi mahiyyət kəsb edən «Zəhmət və Zinət» əsəri bu baxımdan bu gün də öz əhəmiyyətini itirməmişdir. Ümumiyyətlə, «müəllimlikdə yazıçılıq, yazıçılıqda müəllimlik» (7, s.27) prinsipinə sadiq qalan A.Şaiq hər iki istiqamətdəki fəaliyyətində



gənc nəslin təlim-tərbiyəsini özünə hədəf seçmiş və fəxarətlə qeyd etmək lazımdır ki, «hədəfi vurmaqla» ustadlar səviyyəsinə yüksələ bilmişdir. Daha bir əsərində » Ana» pyesində tərbiyədə ailənin rolunu yüksək qiymətləndirərək göstərir ki, ata-analar üzərinə düşən bu ciddi və ümumxalq əhəmiyyətli olan məsələnin öhdəsindən yalnız işə məsuliyyətlə, sevgi, səmimiyyətlə və sədaqətlə yanaşmaq nəticəsində gələ bilər. A.Şaiq tərbiyədə ailə, məktəb əlaqələri haqqında olan fikirlərini yekunlaşdıraraq yazırdı: «Bizim zəmanəmizdə gənclərin hər cəhətdən yetkinləşməsi üçün əlverişli şərait yaranmışdır. Uşaqların və gənclərin təlim və tərbiyəsi yeni vəzifələri irəli sürür. Bu hər şeydən əvvəl ailənin məktəbə yardımıdır. Ailə məktəbə hər cəhətdən zehinli, bacarıqlı, namuslu, vicdanlı, əqidəli, yüksək mənəviyyatlı vətəndaşlar yetişdirməkdə kömək etməlidir» (51, s .85).30-cu illərin uşaq ədəbiyyatında aparıcı mövzulardan biri də kiçikyaşlı mək-təblilərdə, iradə, dözümlülük və səbat, ata-anaya dərin məhəbbət, hətta özünü fəda etmək və s. müsbət sifətlər tərbiyə etmək, onları həyata, əməli işə yaxınlaşdırmaq idi. Məhz A.Şaiq bir ədib kimi «Oyunçu bağalar», «Tıq-tıq xanım», «Yaxşı arxa», «Tülkü həccə gedir», «Köç» və s. əsərlərində uşaqlara müxtəlif sahələrə aid olan elmi bilikləri bədii hekayələr şəklində verməklə bərabər onlarda müsbət xasiyyətlərin tərbiyə edilməsinə xidmət etmişdir. Ümumiyyətlə, uşaqlar üçün yazdığı bütün əsərlərində A. Şaiq zülmkarlara nifrət, məskunlara məhəbbət, haqq-ədalət uğrunda əzmlə vuruşmaq, vətəni, xalqı sevmək, onun səadətinə çalışmaq, doğruçul, şərəfli olmaq, dostluqda sədaqəti qorumaq və s. gözəl, nəcib, xeyirxah hissləri yeni yetişən nəslə aşılamışdır. Bu əsərləri yazdığı zaman A.Şaiq bir sənətkar, vətəndaş, müəllim kimi yüksək məqsədlər izləmiş, Azərbaycan dilinin zənginliklərini aşkara çıxarıb xalqın istifadəsinə, gənc nəslin tərbiyəsi işinə vermək yolu ilə getmişdir.Görkəmli şair S.Rüstəm A.Şaiqin ədəbi yaradıcılığına yüksək qiymət verərək yazır: «A. Şaiq ədəbi əsərlərində bir tərəfdən burjua mühitinin eybəcərliyi-

ni «Həyat sahibləri» ağaların iyrənc təbiətini, çirkin əməllərini, mənəvi pozğunluğunu açıb göstərir, digər tərəfdən isə «Zülmət səltənətində» yaşayan tərəqqipərvər qüvvələri-məhərrəmləri, zəkiləri səhnəyə çıxarır, onların xeyirxahlığını, şərəfli ölümünü ürək yanğısı ilə təsvir edir. Yazıçı bədii mühakimə və məntiqin gücünə arxalanaraq birgə bu işıqlı qüvvələrin qələbəsinə möhkəm inam hissi oyadır» (67, s.15). Bütün yaradıcılığı boyu A. Şaiq oxucunu belə bir nəticəyə gətirmək istəyir ki, hacı kərimlər, ağa mirzələr, əşrəflər cəmiyyəti dağıdan, mənəvi pozğunluq salan dərd və ölüm yayan qüvvələrdir. Bunların böyük məqsəd və idealı yoxdur. Halbuki, əsl insan böyük idealsız yaşaya bilməz. Vətənin və xalqın taleyini, gələcəyini düşünməyə bilməz. A. Şaiq yaradıcılığının maraqlı cəhətlərindən biri də budur ki, o insan psixologiyasını, onun daxili aləminin incəliklərini açmağa nail olmuşdur. O, bununla ədəbiyyatda psixologizmi qəbul etməyən yazıçılara işarə edir ki, bu obrazların xarakterinin açılmasında başlıca amillərdəndir və bunu inkişaf etdirmək lazımdır. Ümumiyyətlə, Şaiqin bədii əsərləri bizə bu əsərlərin təcrübəli bir tərbiyəçi tərəfindən yazıldığı qənaətinə gəlmək imkanı verir.«A.Şaiq hansı mövzuda, hansı janrda yazırsa yazsın, hər şeydən əvvəl bir tərbiyəçidir. A.Şaiqin fəaliyyətində tərbiyəçilik meylinin güclü və üstün olması onun pedaqoji təcrübəsi ilə bağlıdır» (24). K.D.Uşinski yazırdı: «İnsan tərbiyəsinin ən başlıca yolu əqidədir: əqidəyə isə, ancaq əqidə ilə təsir etmək olar» (84, s.32). Məhz tərbiyə işini mürəkkəb və çoxcəhətli bir proses adlandıran A. Şaiq də tərbiyədə bu metoddan məharətlə istifadə edirdi. Onun şəxsi nümunəsi və şəxsi təcrübəsi tərbiyə işində qarşıya qoyduğu məqsədə çatmaq üçün geniş imkanlar yaradırdı. Onun əqidəsinin gücü biliyin dərinliyində və insanlarla, xüsusən də şagirdləri ilə davranış əxlaqında idi. «Onun mürəbbiyəsi olduğu sinif ilin yekunlarına görə əxlaqca birinci olardı. Günah işlətmiş şagirdlərə mən inana bilmərəm və inanmıram ki, ondan belə bir hərəkət baş vermiş olsun» deyərdi. Tələbələr belə



«ittihamlardan» nəticə çıxarardı» (65, s.25). A.Şaiqin hər cür hərəkəti uşaqlar üçün bir örnək idi. «Onun bütün hərəkətləri, sinfə gəlişi, salam verməsi, tələbələrlə görüşü, öz-özlüyündə bir əxlaq və tərbiyə dərsi olardı» (65, s.27).O, şagird hüququna hörmət etməyi müəllimin birinci vəzifəsi hesab edirdi. Yaşadığı mühitdə, apardığı müşahidə və axtarışlarda son dərəcə humanist olan A.Şaiqin uşaqlara bağlanmasından, onda demokratiya haqqında ilk təsəvvür və görüşlərin olmasından irəli gəlirdi. A. Şaiq tələbələrin dünyagörüşünün genişlənməsində, biliyinin artmasında, mənəvi tələbatının ödənilməsində təlim prosesinin yaratdığı imkanlarla kifayətlənmirdi. Belə ki, proqram və dərsliklər məzmunca yeniləşdikcə mənəviyyatca zəngin yeni insan tərbiyə etmək imkanları artırdı. Lakin belə keyfiyyətlərə malik insanı yetişdirmək üçün dərs prosesi kifayət etmirdi, yeni fəaliyyət forması lazım idi. Ona görə də dərsdən əlavə bütün vasitə və imkanlardan istifadə edirdi. Dərs dediyi məktəbdə müxtəlif dərnəklərin, birinci növbədə dram dərnəyinin olmasına böyük əhəmiyyət verirdi. Repertuar seçməkdə, rol bölüşdürməkdə dərnək üzvlərinə yaxından kömək edər, məşq zamanı dəyərli məsləhətlər verərdi. Daha sonra A.Şaiqin təşəbbüsü ilə «Sinifdənkənar tədbirlər"(17,s.75) adını alaraq başqa fənn müəllimlərinin fəaliyyətində də öz əksini tapdı. A.Şaiqin tələbəsi olmuş böyük dramaturq C.Cabbarlı öz xatirələrində yazırdı: «A.Şaiqin həvəslə gördüyü bu iş mənim gələcəkdə bir dramaturq kimi yetişməmdə mühüm bir rol oynadı (51, s.112). A.Şaiq eyni zamanda şagirdlərin proqramdan əlavə mütaliəsinə ciddi diqqət yetirirdi. O, hesab edirdi ki, belə mütaliələr uşağın həyatında böyük rol oynayır, çünki onlar oxuduqları kitablardan müəyyən davranış normaları yaradan keyfiyyətlər götürürlər. Bunu nəzərə alaraq A.Şaiq şagirdlərinin sinifdən xaric oxusunu istiqamətləndirir, onlara oxuyacaqları kitabları müəyyənləşdirməkdə köməklik edirdi. "Ədəbiyyat və dil tədrisi sahəsində ən təcrübəli və məlumatlı mütəxəssis-lərdən biri Şaiq idi. O, dərs dediyi uşaqlara

ədəbiyyat nəzəriyyəsi və tarixini öyrətməkdən başqa onların ümumi ədəbi, mədəni inkişafı üçün də böyük səylə çalışırdı. Dərsdən əlavə tələbələrlə ədəbi disputlar keçirir, folklor nümunələrinin toplanması ilə məşğul olur, və nümunə dərslərinə rəhbərlik edirdi. Şaiq bütün biliyini cavanlara verməyə çalışırdı. A.Şaiqin pedaqoji fəaliyyəti diqqətəlayiqdir. Burada gənc maarif kadrlarımız üçün faydalı, nümunəvi cəhətlər çoxdur" (17, s.33). A.Şaiqin tələbəsi olmuş A.Əfəndiyev yazırdı ki, onun oxunmuş kitablar üzrə apardığı yekunlaşdırıcı dərslər olduqca maraqlı keçirdi. Belə dərslərdə o, hər bir şagirdin oxuduqları kitab haqqında rəy söyləməsinə imkan yaradır, əsərin qəhrəmanlarına onların münasibətini öyrənirdi. Böyük maarifçi bütün bu tədbirlərin şagirdlərin dərs prosesində aldıqları bilik, bacarıq və vərdişlərinin inkişafı üçün əlverişli şərait yaratdığını qeyd edərək həmkarlarına da dərs dedikləri fənn üzrə sinifdənxaric tədbirlər keçirməyi məsləhət görürdü. A.Ş.Talıbzadənin pedaqoji ideya, fikir və təcrübi məsələlərinin araşdırılması nəticə etibarı ilə aşağıdakı ümumiləşdirmələri aparmaq imkanları yaradır:

- A. Şaiq XX əsr Azərbaycan pedaqoji fikir tarixində çox aydın xətti və imzası olan şəxsiyyətlərdən biri olmuşdur.
- onun yaradıcılıq fəaliyyətində istər maarifçi, istərsə də yazıçı kimi elmə, maarifə çağırış, gənc nəslin taleyi, tərbiyəsi, təhsilin gələcəyi kimi məsələlər ön plana çəkilmişdir.
- bir ədəbiyyatşünas alim kimi ədəbi irsi öyrənmiş və gələcək nəsillərə çatdırmışdır;
- məktəblərin elmi, demokratik prinsiplər əsasında idarə olunmasını təlimin məzmununun, proqram və dərsliklərin, təlim üsullarının yeniləşməsinin əsası hesab etmişdir;
- təlim və tərbiyənin ayrılmaz və yeni nəslin yetişməsində bir-birini tamamlayan proses olduğu qənaətinə gəlmişdir;
- müəllim kadrlarının hazırlanması, onların təlim-tərbiyə işinin əsas aparıcı qüvvə olması fikrini irəli sürmüş və bu problemin həllində fəal iştirak etmişdir.



- humanizmi insana xidmətin ali məqsədi olmasını müəllimin başlıca və birinci vəzifəsi hesab etmişdir;
- ayrı-ayrı fənlər üzrə dərnəklərin fəaliyyət göstərməsini, sinifdənxaric tədbirlərin hazırlanmasını şagirdlərin fəallığının artırılmasında və ümumiyyətlə, təlim-tərbiyə prosesinin möhkəmləndirilməsində mühüm vasitə hesab etmişdir;
- yekunlaşdırıcı dərsləri şagirdlərin dərs prosesində aldıqları bilik, bacarıq və vərdişlərin səviyyəsini müəyyənləşdirməkdə ən əlverişli üsul hesab etmişdir;
- məktəb və ailədə verilən təlim-tərbiyənin məqsəd və vəzifələrinin uyğunlaşmasını məktəb quruculuğunun vacib istiqamətlərindən biri kimi qəbul etmişdir.
- ailənin şagirdlərin təlim-tərbiyə işində, dünyagörüşünün formalaşmasında məktəbin ən mühüm tərəfdaşı kimi görmüş və bu istiqamətdə əməli fəaliyyət göstərmişdir.

# II FƏSİL

# «NÜMUNƏ MƏKTƏBİ»NİN TƏŞKİLİ VƏ ONUN FƏALİYYƏTİNİN PEDAQOJİ-METODİKİ ƏSASLARI

## 2.1. «Nümunə məktəbi»nin yaranması və fəaliyyəti haqqında

XX əsrin əvvəllərində Azərbaycan milli pedaqoji fikrinin formalaşmasında və inkişafında mühüm rol oynamış Abdulla Şaiqin «Nümunə məktəbi»nin yaranması və fəaliyyəti haqqında danışmazdan əvvəl qısa da olsa onun yaradılmasına səbəb olan ictimai-siyasi mühitə nəzər salmaq yerinə düşərdi.1917- ci il fevral burjua inqilabı geniş xalq kütlələrini siyasi, azadlıq və yeni həyat uğrunda mübarizəyə qaldırdı. İnqilabın gətirdiyi demokratik hüquqlardan istifadə edən mütərəqqi ziyalıların fəallığı nəticəsində maarif və məktəb məsələsi siyasi və ictimai bir hadisə kimi meydana çıxdı. «Yelizavetpolda (Gəncədə - M.M.) Türk dili (Azərbaycan dili – M.M.) Müəllimlərinin İttifaqı yarandı. İttifaq qarşısına təlimin doğma dildə aparılması məsələsini qoydu. Aprelin 15-17-si arasında Bakıda Qafqaz müsəlmanlarının keçirdiyi iclasda təlim dili, məktəblərin tipləri və onların qarşılıqlı münasibətləri məsələləri müzakirə edildi» (128, № 82). «1917-ci ilin mayında müsəlmanların Ümumittifaq qurultayı keçirildi. Bütün müsəlmanlar üçün ümumi hərəkət xətti müəyyən edən qurultay təhsil sistemi barəsində «tezislər» qəbul etdi. Bu «tezislər»də tələb olunurdu ki, Azərbaycan dilində pulsuz ümumtəhsil sistemi tətbiq olunsun və məktəblərə müsəlmanların özləri başçılıq etsinlər. Tədrisatın azad olması, məktəblərdə tədris dilinin həmin əyalətdəki danışıq dilində olması



tələb olunurdu. «Müsəlman Milli məktəbləri»nin təşkil olunmasını Gəncə müəllimləri adından çıxış edən M.F.Axundov təklif etdi. Qurultay Firudin bəy Köçərlini məktəb komissiyasının sədri seçdi» (128, № 84, № 85). 1917-ci il fevral burjua inqilabından sonrakı ictimai siyasi şərait dövrü mətbuatda mütəmadi işıqlandırılırdı: «Tiflisdə fəaliyyətə başlamış Seym öz iclasında Azərbaycan, Gürcüstan, Ermənistandakı məktəblərin milliləşdirilməsi barədə qərar qəbul etdi. Bu işin təcili yerinə yetirilməsi məktəb rəhbərlərinə tapşırıldı. O dövrdə Azərbaycan maarif işləri nümayəndəsi Həmid Şahtaxtlının imzası ilə bütün məktəblərin müdirlərinə bu xüsusda əmr gəldi. Həmin zamanlarda Bakı üzrə tədris hissəsi komissiyasına rəhbərlik edən A.İoannesyan Tiflisə gedərək Seymin üzvü A.Abaşidze ilə görüşdü. Onlar məktəb islahatları ilə bağlı bəzi məsələləri müzakirə etdilər» (128, №84, № 85). «Bakıya qayıdan A.İoannesyan aşağıdakı məzmunda əmr verdi:

- bütün rus-tatar, rus-erməni məktəbləri təlim dili ana dili olmaqla milliləşdirilsin;
- Şəhər Duması qarşısında Bakıda yerli dil (tuzemniy yazık) təlim edilməklə kişi seminariyasının açılması məsələsi qaldırılsın» (128, №115)

«1917-ci il sentyabrın 10-da OZAKOM (Xüsusi Zaqafqaziya Komitəsi) xalq maarif nəzarətinin Qafqaz tədris dairəsi məktəblərin milliləşdirilməsi haqqında «Əsasnamə»ni təsdiq etdi».(105) «İdarə tərəfindən hazırlanmış Əsasnamədə həm ibtidai, həm də orta təhsilin milliləşdirilməsi məsələsi qoyulurdu» (97). Bu Əsasnaməyə görə milliləşdirilməyən siniflərdə milli fənlərin tədrisi gücləndirilirdi. Milli fənlərin təlimi qeyri millətlər üçün məcburi idi. Din dərslərinin tədrisi isə uşaqların öz ana dilində aparılırdı. Əsasnamə 1917-18-ci tədris ilindən başlayaraq ibtidai milli məktəblərdə, birsinifli məktəblərin bütün şöbələrində, ikisinifli məktəblərin isə ancaq birinci sinfində təlimin ana dilində aparılmasını tələb

edirdi. Qəbul edilən sənədlərin tələbləri baxımından Bakıda mütərəqqi fikirli ziyalılar milli siniflərin yaradılması istiqamətində tədbirlər həyata keçirməyə başladılar. Lakin belə siniflərin tam gücü ilə fəaliyyətə başlaması ancaq Azərbaycan Demokratik Cümhuriyyəti qurulduqdan sonra həyata keçdi. «Ədib nağıl edirdi ki, 1918-ci ildə Azərbaycan Cümhuriyyəti yarandığı dövrdə dərs dediyi Bakı Realnı Məktəbində rəhbəri və mürəbbisi olduğu sinfini milliləşdirmişdir: yəni bütün fənləri həmişə rus dilində keçirilən sinifdə dərslərin türk dilində tədris edilməsinə nail olmuşdur» (82). Bu milliləşdirilmiş siniflər sonralar XX əsrdə ilk anadilli məktəbin təməli oldu. Bununla da məktəb tarixində dünyəvi proqramları, təlim-tərbiyə üsullarını özündə ehtiva edə milli təhsilin əsası qoyularaq bu bazada «Şaiq Nümunə məktəbi» yarandı. Professor Fərrux Rüstəmov özünün «Milli maarifimizin qaranquşları» adlı məqaləsində məktəbin yaranmasının böyük əhəmiyyət kəsb etdiyini göstərərək yazır: «İlk dəfə orta təhsilin milliləşdirilməsi ADR dövründə həyata keçirilmişdir ki, bu da qüdrətli sənətkarımız A.Şaiqin adı ilə bağlıdır. Məhz onun təşəbbüsü ilə bütün dərslər rus dilində keçirilən Bakı I realnı məktəbinin nəzdində Azərbaycan dili üzrə üç aylıq kurs açıldı. Bu kursu qurtaran şagirdlər üçün 49 rus sinfi olan Bakı I realnı məktəbində bütün dərslər Azərbaycan dilində keçirilən bir sinif (üçüncü sinif) açıldı. Bu sinifdə 25 şagird oxuyurdu. Onlar 1924-cü ildə ana dilində orta məktəbi bitirən ilk məzunlar oldular. Məktəbdə A.Şaiqlə birlikdə C.Cəbrayılbəyli, Q.Rəşad, X.Kələntərli kimi görkəmli pedaqoqlar da dərs deyirdilər. Azərbaycanda milli kadrların yetişdirilməsində sonralar «Abdulla Şaiq adına Nümunə məktəbi» kimi şöhrət qazanmış həmin milliləşdirilmiş məktəbin böyük əhəmiyyəti olmuşdur» (68a, c.56). Amma məktəb çox çətinliklə qurulurdu. Bu iki başlıca amillə bağlı idi. Birincisi: mürtəce fikirli müəllimlər ana dilində yeni siniflərin açılması əleyhinə çıxır, azərbaycanlıları rus məktəblərinə cəlb etməyə çalışırdılar.



Onlar hər vasitə ilə valideynlərə təsir edərək məktəblərin açılmasına mane olurdular. Şagirdlərin məktəbə cəlb edilməsinin bütün ağırlığı A. Şaiqin üzərinə düşmüşdür. A.Şaiq şagird və müəllimlər arasında olan nüfuzundan istifadə edərək şagirdlərlə və onların valideynləri ilə bir-bir ayrılıqda görüşərək, danışaraq, onlardan övladlarını türk dilində (Azərbaycan dili – M.M.) oxutmaq üçün razılıq alırdı. İkincisi isə çoxları öz doğma dilini bilmirdi. Maarif Nazirliyi məktəbə şagirdlərin qəbuluna ciddi yanaşır, bu prosesdə dil bilməni vacib şərtlərdən biri hesab edirdi. «Hətta milli məktəbin üçüncü sinif şagirdi Rəsul Hacıyev və ikinci sinif şagirdi Müslüm Hacıyev 22.02.1920-ci il tarixdə müsahibə üçün nazirliyə dəvət olunurlar. Şagirdlər müsahibədən keçdikdən sonra Rəsul Hacıyev dili bilmədiyi üçün milli sinifdən rus bölməsinin üçüncü sinfinə keçirilmişdir» (108). Bu faktın özü onu göstərir ki, Maarif Nazirliyi milli siniflərə qəbul məsələsini diqqət mərkəzində saxlamış, hər bir şagirdin ana dilində təhsil almasına biganə qalmamışdır. Tədqiqatçı S.Xəlilov özünün «1917-20-ci illərdə Azərbaycanda xalq maarifi» adlı namizədlik dissertasiyasında yazır: «Müsavat hakimiyyəti dövründə Azərbaycan dilinin taleyi daha da pisləşir. Azərbaycan dili tam hüquqlu bir dil olmaq haqqını ancaq 1920-ci ildə sovet hakimiyyətinin qurulmasından sonra qazandı» (34, s.75). Lakin tarixi faktlar tədqiqatçının bu fikirlərini tamam alt-üst edir. Arxiv materialları göstərir ki, ADR hökumətinin Gəncə şəhərində verdiyi 28 avqust 1918-ci il tarixli ilk dekreti məhz məktəblərin milliləşdirilməsi haqqında idi. Birinci dəfə olaraq ana dili bərabərhüquqlu dil kimi elan edildi və Azərbaycanlılar öz ana dilində oxumağın nəinki mümkün olduğunu, hətta zəruri olduğunu başa düşdülər (97). Bu tədbirlər çox çətin və mürəkkəb şəraitdə həyata keçirilirdi. Uşaqları anadilli, yeni məzmunlu proqram və dərsliklərlə fəaliyyət göstərən məktəblərə cəlb etmək çox çətin idi. ADR-də aparıcı partiya olan Müsavat özünün dekretini yaydı. Dekretdə deyilirdi:

«Haman məktəblərin birinci və mümkün olduğu təsadüflərdə həm də ikinci siniflərini milliləşdirmək və təlimi türk dilində aparmaq və əgər bu siniflərdə türk dilini bilməyən şagirdlər olarsa, beləlari üçün məvazi şöbələr açmaq və burada təlimi rus dilində aparmaq lazımdır. Bu şöbələrdə və həm də sonra gələn dördüncü sinfə qədər dövlət dilində tədrisi o qədər gücləndirmək ki, iki ildən sonra bütün şagirdlər türk dilində təlim keçə bilsinlər. Bütün aşağı ibtidai məktəblərdə təlim dövlət dili olan türk dilində aparılmalı və həm də ali ibtidai məktəblərin milliləşmiş siniflərində 1918-19-cu tədris ilində türk dilinin qüvvəli tədrisini davam etdirməli, zəruri hallarda isə sonra gələn tədris ilində də bunu davam etdirməli ki, bu ilin ərzində oxuyanlar ancaq türk dilində təlim keçsinlər» (85, s.80).Dekretin mahiyyətinin valideynlər tərəfindən dərk edilməsi üçün mütərəqqi fikirli müəllimlər mütəmadi olaraq valideynlərlə görüşür və həmkarlarını da buna səsləyirdilər. «Bu müəllimlər sırasında biz bir tərəfdə çox tanınmış, uşaqlara həqiqi elmi biliklər verməyə səy edən və Azərbaycan dilini zənginləşdirməyə çalışan A.Səhhəti, digər tərəfdə ilk milli məktəbin – «Nümunə məktəbi»nin yaradıcısı A.Şaiqi görürük» (77, s.45). A.Şaiq və başqa maarifçilər valideynlər arasında təbliğatı işi genişləndirərək, mürtəce görüşlü müəllimlərin müqavimətini qıraraq 1918-ci ildə işlədiyi məktəbin nəzdində milli siniflərin açılmasına nail oldular. «A.Şaiqin işlədiyi Bakı Realnı Məktəbi müəllimlərinin toplantısında aşağı siniflərin milliləşdirilməsi barədə qərar qəbul olundu. Qərarın icrası türk (Azərbay-can M.M.) dili müəllimi A.Şaiqə həvalə edildi. A.Şaiqin təqdimatı ilə müəllimlər şurasında qətnamə qəbul olundu. Bu qətnam0əyə əsasən sabiq realnı məktəbin səkkiz sinfi aşağıdakı qaydada milliləşdirildi.



**Cədvəl 2.1**

| Şöbə | Sayı | Təlim dili |
|---|---|---|
| Əlifba şöbəsi | 1 | Türk dili |
| Birinci ehtiyat şöbəsi | 2 | Türk dili |
| İkinci ehtiyat şöbəsi | 2 | Türk dili |
| **Sinif** | **Sayı** | **Təlim dili** |
| 1. Birinci sinif | 2 | Türk dili |
| 2. İkinci sinif | 2 | Türk dili |

Cəmo Cəbrailbəyli, Ağaəli Qasımzadə, Qafur Əfəndizadə, Realnı Məktəbinin məzunu Sadıq Quluzadə, Qurbanəli Həsənzadə və Abdulla Abasidze kimi dövrün bacarıqlı müəllimləri yeni tipli məktəbdə fəaliyyət göstərməyə başladılar» (89). Lakin yeni yaranmış məktəb bir çox problemlərlə üzləşdi. Nə tədris planı, nə proqram, nə də dərslik vardı. Müəllim kadrları da çatışmırdı. Seçilmiş heyət A.Şaiqin rəhbərliyi ilə şagirdlər üçün dərsliklər hazırlamağa başladı.

Qısa bir zamanda hazırlıq və digər siniflərin tədris planları məktəbin pedaqoji şurasında müzakirə olunaraq təsdiq edildi. Artıq 1918-1919-cu dərs ilində məktəb aşağıdakı tədris planları ilə fəaliyyətə başladı. Məktəbin təqdim etdiyimiz tədris planlarının müasir tələblər baxımında təhlili göstərir ki, bu planlar bugünkü tələblərə cavab verməsə də bir sıra mütərəqqi fikirləri özündə əks etdirir. Belə ki, tədris planlarında fənlər arasında əlaqələrin zəruriliyi və onların məzmununun təlim və tərbiyənin məqsədləri ilə üzvü surətdə bağlılığı nəzərə alınmışdır. Planda öyrədilən fənlərin siyahısı, tərkibi, keçirilmə ardıcıllığı, siniflər üzrə hər fənnə verilən saatların miqdarı didaktik nöqteyi-nəzərdən əsaslandırılaraq şərhlərlə verilmişdir.

**Cədvəl 2.2**

**Hazırlıq sinfinin tədris planı (1918-1919-cu dərs ili üçün)**

| Fənlərin adı | Siniflər | | |
|---|---|---|---|
| | I | II | III |
| İlahiyyat | - | 2 | 2 |
| Türk dili | 8 | 8 | 8 |
| Rəsm | 2 | 2 | 2 |
| Hesab | 6 | 6 | 6 |
| Nəğmə | 1 | 1 | 2 |
| Gimnastika | 1 | 1 | 2 |
| Əl əməyi (oğlan) | 2 | 2 | 2 |
| Əl əməyi (qızlar) | 2 | 2 | 2 |
| Cəmi | 22 | 24 | 26 |

**Cədvəl 2.3**

**I-VII siniflər üçün tədris planı (1918-1919-cu dərs ili üçün)**

| № | Fənlərin adı | Siniflər | | | | | | | Cəmi |
|---|---|---|---|---|---|---|---|---|---|
| | | I | II | III | IV | V | VI | VII | |
| 1 | İlahiyyat | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 14 |
| 2 | Türk dili | 4 | 4 | 4 | 4 | 4 | 4 | 4 | 28 |
| 3 | Rus dili | 4 | 4 | 4 | 4 | 4 | 4 | 4 | 28 |
| 4 | Alman dili | 4 | 3 | 3 | 3 | 3 | 3 | 3 | 22 |
| 5 | Fransız dili | - | 4 | 3 | 4 | 3 | 2 | 2 | 7 |
| 6 | Coğrafiya | - | 2 | 2 | 2 | 2 | 2 | 2 | 10 |
| 7 | Tarix | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 14 |
| 8 | Riyaziyyat | 4 | 4 | 4 | 6 | 6 | 6 | 5 | 35 |
| 9 | Fizika | - | - | - | - | 3 | 4 | 3 | 10 |
| 10 | Təbiət fənləri | 2 | 2 | 2 | 2 | 2 | 3 | 2 | 15 |
| 11 | Rəsm | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 14 |
| 12 | Rəsmxət | - | - | 2 | 1 | - | - | - | 3 |
| 13 | Hüsnxət | 1 | - | - | - | - | - | - | 1 |
| 14 | Qanunçuluq | - | - | - | - | - | - | 2 | 2 |
| | Yekun | 25 | 31 | 33 | 32 | 34 | 34 | 33 | 25 |



**Cədvəl 2.4**

**1919-20-ci illərdə əlifba və hazırlıq siniflərində tədris planı**

| № | Fənlərin adı | Əlifba | Kiçik hazırlıq sinifləri | Orta hazırlıq sinifləri | Cəmi |
|---|---|---|---|---|---|
| 1 | İlahiyyat | - | 2 | 2 | 4 |
| 2 | Türk dili | 8 | 8 | 8 | 24 |
| 3 | Hesab | 6 | 6 | 6 | 18 |
| 4 | Rəsm | 2 | 2 | 2 | 6 |
| 5 | Nəğmə | 1 | 1 | 2 | 4 |
| 6 | Gimnastika | 1 | 1 | 1 | 3 |
| 7 | Əl əməyi (oğlan) | 2 | 2 | 2 | 6 |
| 8 | Əl əməyi (qız) | 2 | 2 | 2 | 6 |
| | Yekun | 22 | 24 | 25 | |

Tədris planlarının «Qeyd» hissəsində ana dili və hesab fənninidən əlavə dərs saatına ehtiyac olduqda rəsm və əl əməyinə verilən saatlardan istifadə edilmsinə icazə verilirdi. Daha sonra hüsnxətin türk əlifbasının yazı qaydalarını qavramaqda mühüm rol oynadığı ilə əsaslandırılmış, xarici dil (alman, fransız, rus) fənlərinə ayrılmış dərs saatlarının çoxluğuna isə izahat verilərək göstərilir ki, mövcud şəraitə görə məktəbi bitirib öz təhsillərini gimnaziya və başqa ali məktəblərdə davam etdirənlərin bu dilləri bilməsi vacibdir (106). Lakin böyük pedaqoq A.Şaiq ibtidai siniflərdə ümumiyyətlə xarici dillərin tədrisi əleyhinə çıxırdı. O, hesab edir ki, şagird öz ana dilində mükəmməl yazıb oxumadan ona xarici dil öyrətmək olmaz.

**Cədvəl 2.5**

| № | Fənlərin adı | Siniflər | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | I | II | III | IV | V | VI | VII |
| 1 | İlahiyyat | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 2 | Türk dili | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 |
| 3 | Rus dili | 4 | 4 | 3 | 3 | 3 | 3 | 3 |
| 4 | Hesab | 4 | 4 | 4 | 4 | 4 | 4 | 4 |
| 5 | Tarix | - | 2 | 3 | 3 | 3 | 3 | 3 |
| 6 | Coğrafiya | 2 | 2 | 2 | 2 | 3 | 3 | 3 |
| 7 | Alman dili | 3 | 3 | 3 | 3 | 3 | 3 | 3 |
| 8 | Fransız | - | 3 | 3 | 3 | 3 | 3 | 3 |
| 9 | Təbiət fənləri | 2 | 2 | 2 | 1 | 1 | 1 | 1 |
| 10 | Rəsm | 2 | 1 | 2 | 1 | 1 | 1 | 1 |
| 11 | Hüsnxət | 1 | - | - | - | - | - | - |
| 12 | Gimnastika | 2 | 1 | 1 | 1 | 1 | 1 | 1 |
| 13 | Nəğmə | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 |
| 14 | Əl işi | 2 | 1 | 1 | 1 | 1 | 1 | 1 |
| | Cəmi | 30 | 31 | 32 | 30 | 31 | 31 | 31 |

Məktəbin maddi-texniki bazasının yaradılması, müxtəlif avadanlıq, qurğu, laboratoriya yaratmaq və sairə təşkilati işləri yerinə yetirmək pedaqoji kollektivin qarşısında duran mühüm vəzifələrdən biri idi. Mövcud sinif otaqları azlıq edirdi. Müəllimlər otağı yox idi. Əlavə otaqların ayrılması üçün edilən müraciətlərə həmişə müsbət cavab alınmırdı. Maarif Nazirliyi şöbəsi müdirinin məktəb müdirinə göndərdiyi 11.01. 20-ci il tarixli məktubunda yazırdı: «Sizin 06.01.20-ci il tarixli 208 saylı məktubunuza cavab olaraq bildirilir ki, türk müəllimləri üçün müəllimlər otağı ilə yanaşı olan otağın verilməsi qeyri-mümkündür; birinci, bu otaqda köhnə pansionatın kitab şkafı və s. qalmışdır; ikinci,



bu balaca otaqda inspektor valideynləri qəbul edir, onlarla övladları haqqında söhbətlər edir. Əgər biz bu otağı türk müəllimlərinə versək, inspektor bu imkanlardan məhrum ola bilər ki, bu da məktəbin maraqları ilə üst-üstə düşmür» (106).Lakin məktəb Pedaqoji İnstitutun binasında yerləşdiyi üçün ümumi razılıq əsasında İnstitutun otaqlarından da istifadə edilirdi. «1926-cı ildə Xalq Maarif Komissarlığı İnstitut və məktəb arasında otaqların aşağıdakı qaydada bölüşdürülməsini təklif etdi.

- böyük ümumi otaq İnstituta;
- balaca otaq məktəbə; (106)
- başqa bir otaq avadanlıqla təmin edilərək müvəqqəti olaraq məktəbə verildi.

Beləliklə, 08.02.26-cı ildə milli siniflər 19 otaqdan ibarət olaraq 3 mərtəbədə yerləşirdi. "Nümunə məktəbi"ndə 760 şagird təhsil alırdı. 1920-ci il 12 sentyabrda Xalq Maarif Komissarlığı Pedaqoji Texnikumların nəzdində fəaliyyət göstərən «Nümunə məktəblər»ində təhsil haqqının ödənilməsi haqqında qərar qəbul etdi. Bu qərarda «eyni zamanda şagirdlərin ümumi sayının 10%-dən çox olmayaraq və Təhsil Nazirliyi sistemində 10 ildən az olmayaraq işləyən işçilərin övladları təhsil haqqı ödəməkdən azad olunurdular. Bu qərarın tələbləri baxımından «Nümunə məktəbi»ndə kiçik və böyük hazırlıq siniflərində oxuyan 165 nəfər şagirdin hər birinin 200 manat, 1-7-ci siniflərdə oxuyan 550 şagirdin hər birinin isə 400 manat təhsil haqqı ödəməsi qərara alındı» (107). Məktəb fonduna daxil olan gəlir məktəbin ehtiyaclarını (avadanlıq, əmək haqqı, mükafat) ödənilməsinə sərf edilirdi. «Nümunə məktəbi»ndə kitabxana yaradılması üçün hazırlıq işləri aparılırdı. Bu işin təşkili türk dili müəllimi A.Talıbzadəyə tapşırılmışdır. Elə Xalq Maarif Nazirliyinin də «24.12.19-cu il tarixli sərəncamında da milli məktəblərin müəllim və şagirdləri üçün əsaslı kitabxananın açılması təklif olunurdu. Bu məqsədlə türk dilində vəsait almaq üçün ayrılmış 4018 manat pulun kitabxananın təminatı üçün sərf etmək məktəb rəhbərliyinə tapşırılmış-

dır». (107) Məktəb rəhbərliyi Xalq Maarif Nazirliyinə göndərdiyi «04.01.20-ci il tarixli məktubunda rusdilli əsaslı kitabxanada illik əmək haqqı 5400 manat olmaqla ştat vahidinə uyğun olaraq türkdilli kitabxanaya da ştat vahidinin verilməsini xahiş etdi». (108) H.Şahtaxtlının imzası ilə göndərilən cavab məktubunda göstərilirdi ki, «27.09.18-ci ildə qəbul edilmiş smetada bir ştat vahidi təsdiq edilmişdir. Ona görə də bu vəzifəyə Azərbaycan və rus dillərini bilən bir nəfərin təyin edilməsi məqsədəuyğun hesab edilir» (108). Tövsiyə xarakterli bu məktuba uyğun olaraq bu vəzifəyə Azərbaycan və rus dilini bilən Abdulla Şaiq təyin edilir. Az bir zamanda Abdulla Şaiqin səyi nəticəsində məktəbdə kitabxana təşkil edilir. «Kitabxanada Azərbaycan ədəbiyyatının ən qiymətli nümunələri «Molla Nəsrəddin» jurnalının külliyyatı, Nəriman Nərimanovun dram əsərləri toplanmışdı» (109). 1918-ci il iyun ayının 22-də hökumət xüsusi qərar qəbul etdi. Qərarda deyilirdi: «Azərbaycanın milliləşdirilmiş məktəbləri üçün Türkiyədən tədris kitabları gətirilməsi və müəyyən miqdarda müəllimlər çağırılmasını zəruri hesab edərək bu məqsədlə İstanbula məlumatı olan bir şəxs ezam edilsin» (113). Qocaman pedaqoq və tədqiqatçı Lətif Hüseynzadə gənclərdə milli şüurun formalaşmasında, milli mədəniyyətin, tarixin öyrənilməsində o vaxt fəaliyyət göstərən məktəbin böyük rol oynadığını göstərərək söyləyir ki, məktəbdə çatışmayan dərslikləri Türkiyədən gətirirdilər. Bununla bərabər məktəb rəhbərliyi «26-27.01.20-ci il və 17.02.20-ci il tarixli məktublarla Xalq Maarif Nazirliyinin orta məktəblər şöbəsinə müraciət edərək nağd pulla hazırlıq və birinci, ikinci, üçüncü siniflər üçün «Müntəxəbat», «Ədəbiyyat dərsləri», «Türk çələngi»i tarix, təbiət, cəbr, coğrafiya dərsliklərinin alınmasına imkan yaradılmasını xahiş etdi» (113). Məktublara müsbət cavab alındıqdnan sonra dərsliklərin alınması uyğun olaraq fənn müəllimlərinə – A.Talıbzadəyə, A.Aslanova, A.Zeynalova, S.Aşurbəyova, M.Mirzəyevə tapşırılır. Şagirdlər bu dərsliklərlə pulsuz təmin edilirdi. Eyni zamanda məktəbdə



Abdulla Şaiqin «Türk ədəbiyyatı» və «Milli qiraət» kimi dərsliklərindən də istifadə edilirdi. «Türkiyədən müəllimlər gələnə qədər məktəbdə bir müəllim bir neçə fəndən dərs deməyə məcbur idi. Məsələn, A.Cəbrayılbəyov coğrafiyanı, hüsnxətti, rus dilini, təbiəti, Abaşidze, rus dilini, hüsnxətti, A.Qasımov türk dilini, tarixi, İ.Səfərov fizikanı, riyaziyyatı tədris edirdi. 1918-ci ildə məktəbdə müəllimlərin sayı aşağıdakı kimi idi.

1. Türk dili əlifba sinfində – 1 nəfər
- kiçik hazırlıq sinfində – 1
- böyük hazırlıq sinfində – 1
2. Təbiət, tarix-1
3. Coğrafiya-1
4. Hesab-2
5. Musiqi-1
6. Gimnastika-1
7. İlahiyyat-6
8. Rus dili-3
9. Alman dili-3
10. Fransız dili-3
11. Sinif rəhbərinin köməkçisi-2
12. Sinif rəhbəri-1 (114)

Elə bu sayın özü də müəllim kadrlarının çatışmadığını aydın surətdə göstərir. Problemlərdən biri də ana dilində bütün fənlərdən dərs deyən müəllimlərin çatışmaması idi. «Nümunə məktəbi»nin məzunu olmuş, EA-nın müxbir üzvü Məhəmmədəmin Salehli söyləyirdi ki, bir çox fənlərdən dərsləri bizə Türkiyədən gəlmiş müəllimlər deyirdi. Süleyman Hikmət tarixi, İsmayıl Həqiqi fizikanı, Durmuş Əfəndi riyaziyyatı, Hikməti təbiəti, Xəlil Fikrət psixologiyanı tədris edirdi. Yerdə qalan fənləri isə yerli müəllimlər aparırdılar. Mirzə Abdulla Şaiq, Feyzulla Qasımzadə (sonralar akademik olmuşdu – M.M.) ədəbiyyatı, Kərim Qazıyev riyaziyyatı, Qafur Rəşad Mirzəzadə, Cəmo Cəbrayılbəyli coğrafiyanı tədris edirdi. Məktəbin maddi-texniki bazasının yaxşılaşdı-

rılması hökumətin diqqət mərkəzində idi. Ölkənin iqtisadi cəhətdən vəziyyətin ağır olmasına baxmayaraq milli siniflərin inkişafı üçün o biri məktəblərdən fərqli olaraq büdcə vaxtlı-vaxtında təsdiq edilir, ayrılmış maliyyə gecikdirilmədən ödənilirdi. Aşağıda arxiv materiallarında saxlanılan smetanı nəzərdən keçirək:

**Cədvəl 2.6**

**Bakı I Realnı Məktəbinin milli siniflərinin 1918-1919-cu il üçün smetası**

| | |
|---|---|
| Şəxsi heyətin saxlanılması | 831.296 |
| Tədris hissəsinin xərcləri | 18.000 |
| Tərbiyəçilərə və təqaüdə ayrılmış xərc | 8.200 |
| Təsərrüfat və dəftərxana xərcləri | 194.880 |
| 5 il ərzində artırılacaq xərc | 1.052.370 |
| Təmirə ayrılmış xərclər | 60.000 |
| Cəmi | 1.031.296 |

1920-ci ildə tədris hissəsinə ayrılan xərc 22.050.000 təşkil edirdi». Bu vəsait tədris kabinetlərinin lazımi avadanlıq və cihazlarla, kitabxana fondunun zənginləşdirilməsinə, alət və avadanlıqların təmirinə xərclənmək üçün nəzərdə tutularaq aşağıdakı qaydada bölünmüşdür.

1. Fizika kabinetinə vəsait və cihazların alınması – 19375
2. Əmək emalatxanasına avadanlığın və alətlərin alınması – 25330
3. Tarix kabinetinə müxtəlif materialların alınması – 15220
4. Rəsm kabinetinə lazımi avadanlığın alınması – 2145
5. Kitabxanaya bədii kitablar almaq üçün – 36470
6. Kitabxananın dərslik fondu üçün – 21960
7. Musiqi alətlərinin təmiri üçün – 100000

Cəmi: 220.500 (114)



**Cədvəl 2.7**

**1919-1920-ci il üçün smeta**

| Bakı I Realnı Məktəbinin milli sinifləri: 7 əsas, 7 hazırlıq, 5 əlifba sinfi cəmi 19 sinif | Ştatın sayı | Bir ştata ayrılan xərc | İl ərzində cəmi |
|---|---|---|---|
| Şəxsi heyət: | | | |
| 1.Direktor | 1 | 204000 | 204000 |
| 2.İnspektor | 1 | 15600 | 15600 |
| 3.İlahiyyat | 1 | 22 dərs | 22600 |
| 4.Milli sinif müəllimləri | 21 | üçün | 474800 |
| -türk dili | | 368 dərs | |
| -rus dili | | üçün | |
| -coğrafiya, ectetika | | | |
| -tarix | | | |
| -riyaziyyat | | | |
| -fizika | | | |
| -alman | | | |
| -fransız | | | |
| -rəsm, rəsmxətt | | | |
| -hüsnxətt | | | |
| Əlifba və hazırlıq sinfinin müəllimləri | 12 | 90 | 108800 |
| Sinif rəhbəri | 5 | 4800 | 204000 |
| Sinif rəhbərlərinə kömək | 3 | 14400 | 43200 |

I Realnı məktəbin rəhbərliyi 31.12.1918-ci il tarixli məktubla Təhsil Nazirliyinə müraciət edərək milli siniflərin 1919-cu il smetasına əlavələr edilməsini xahiş edir. Bura şəxsi heyətin ştatının artırılması, əməkhaqqının məbləğinin 663.580 manata qaldırılmasını təklif edir. Bu vəsaiti aşağıdakı qaydada paylaşdırmaq nəzərdə tutulur.

- Direktor –30 manat

- Hər paralel siniflərin müəllimlərinə – 10080 manat ayrılır ki, bu da hər müəllimə ayda 21 man. və ya ildə 280 manat təşkil edirdi. 1919-20-ci il smetasını nəzərdən keçirdikdə məlum olur ki, smetanın tərtibində qismən də olsa məktub nəzərə alınmışdır, belə ki, yeni ştat vahidi verilmiş, müəllimlərin əməkhaqqı artırılmışdır (114) Smetanın 4-cü bəndində göstərilən 368 saat dərs yükü 21 nəfər müəllim arasında bölünürdü. Hər müəllimə təxminən 16-17 saat dərs düşürdü. Buna uyğun olaraq il ərzində ayrılmış 474800 manat dərs yükünə uyğun olaraq müəllimlər arasında bölüşdürülürdü. Smetaların müqayisəsi göstərir ki, həm əməkhaqqı, həm də ştat vahidi ilbəil artmışdır. Məktəbdə müəllimlərə əlavə əmək haqqı da verilirdi. Bu müəllimlərin iş stajı nəzərə alınaraq ödənilirdi.

**Cədvəl 2.8**

**1919-cu ildə Bakı I Realnı Məktəbinin milli siniflərinin 5-illik əmək haqqının ödənilməsi**

| Adı, soyadı | Bir beşilliyin məbləği | Beşilliyin sayı | Cəmi | Fənn |
|---|---|---|---|---|
| 1. M.Bağırzadə | 900 | 2 | 1800 | İlahiyyət |
| 2.M.Ə.Talıbzadə | 900 | 4 | 3600 | Türk dili |
| 3. A.A.Abaşidze | 900 | 4 | 3600 | Rus dili |
| 4. A.Cəbibəyov | 900 | 4 | 3600 | Coğrafiya |
| 5. İ.Səfərov | 900 | 1 | 900 | Riyaziyyat, |
| 6. A.Qasımov | 900 | 3 | 2700 | fizika |
| 7.C.Cəbrayılbəyov | 900 | 1 | 900 | Tarix |
| 8. R.Qafurov | 900 | 3 | 2700 | Coğr. |
| | | | | Hüsnxətt |
| | | | | Yuxarı hazırlıq sinfi |



Eyni zamanda yaxşı işlədiyinə görə riyaziyyat müəllimi Mustafa Durmuş Əfəndiyə əlavə 2.560 manat əmək haqqı ayrılmışdır.Müəllimləri məktəbə Maarif Nazirliyinin icazəsi ilə məktəb rəhbərliyi təyin edirdi. Bu baxımdan direktorun Maarif Nazirliyinə 08.02.20-ci il tarixli müraciəti səciyyəvidir. Məktubda milli sinif müəllimi Durmuş Əfəndinin və 2-ci hazırlıq sinif müəlliminin surəsi (vaxtı – M.M.) bitdiyi üçün işdən azad olunduqları və Türkiyəyə döndükləri göstərilir. Daha sonra boş dərslərin müəllimlər arasında bölünməsi üçün icazə verilməsi xahiş edilir. İcazə alındıqdan sonra dərslər aşağıdakı qaydada bölüşdürülmüşdür:

- hazırlıq sinfindən 20 saat, birinci sinifdən isə 6 saat əlifba sinfinin müəlliminə verilir (ad göstərilmir – M.M.),

- əlifba sinfindən isə 20 saat sinif rəhbəri köməkçisi işləyən Qulaməli Aslanova, 4 saat hesab, 3 saat cəbr Bakı 3-cü ali ibtidai məktəbin inspektoru Səməd bəy Ağalarova verilir (114). Başqa bir məktubda isə «Müzəffər bəyin milli siniflərdə dərsə buraxılmasına icazə verilməsi xahiş edilir» (114).Çətinliklərə baxmayaraq Abdulla Şaiqin rəhbərliyi ilə gənc, həvəskar müəllimlərin səyi və çalışqanlığı sayəsində milli siniflərdə dərs prosesi gündən-günə tərəqqi tapırdı. Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra Xalq Maarif Komissarlığı yaradıldı. Komissarlıq elə ilk gündən ana dilində yeni sovet məktəbləri açmaq üçün bir sıra mühüm tədbirlər həyata keçirməyə başladı. Hər şeydən əvvəl açılacaq yeni və mövcud məktəblərin strukturu, təlimin məzmunu və təşkili qaydaları ümumi şəkildə də olsa, müəyyənləşdirildi. Mövcud məktəblərdə bir sıra islahatların aparılması qərara alındı. «Nümunə məktəbi» də bu «islahatlardan» kənarda qalmadı. Elə sovet hakimiyyətinin ilk illərində məktəbdə təlim-tərbiyə işinin məzmunu dəyişməyə başladı,ilahiyatın tədrisi ləğv edildi. Tarix dərsliklərində hadisələr sistemin tələblərinə uyğun işıqlandırıldı, ədəbiyyat dərslərinin məfkurə istiqaməti

başqa səmt aldı. Məktəb iki yerə ayrıldı: aşağı şöbələr və aşağı siniflər birinci dərəcəli doqquzuncu məktəb, üçüncü sinifdən etibarən isə ikinci dərəcəli on ikinci məktəb adlandırıldı. O zaman Fətulla Rzabəyli tərəfindən Ali Pedaqoji İnstitutunun artıq təməli qoyulmuşdu və onun arzusu ilə həmin on ikinci məktəb buraya köçürülərək (indiki İstiqlal küçəsi, İqtisad İnstitutunun binası qeyd M.M) İnstitutun «Nümunə məktəbi»nə çevrildi. Məktəb şagirdlərinin xüsusi geyimləri, döş nişanları, çiyinlərinə taxılmış paqonları vardır. Məktəbi bitirəndə şagirdlərə şəhadətnamə verilirdi. (Sadalanan bütün bu əşya və sənədlər hal-hazırda Abdulla Şaiqin mənzil muzeyində saxlanılır). «Nümunə məktəbi»nin axırıncı sinif şagirdləri Pedaqoji Texnikumunun əsas siniflərinə keçirildi. Lakin sovet hakimiyyəti illərində də məktəbin üzləşdiyi problemlər öz həllini tapa bilmədi. Türkiyədən gəlmiş müəllimlər öz vətənlərinə göndərildilər, müəllim kadrlar, dərsliklər, metodiki vəsaitlər çatışmırdı. Hətta vəziyyət o yerə gəlib çatmışdı ki, Maarif Komissarlığı özünün «48 saylı 15.12.1923 tarixli qərarı ilə uyezd və rayonlarda bu tip məktəblərin açılmasını dayandırdı. Qərarın qəbul edildiyi həmin iclasda dərsliklərin və metodiki vəsaitin vəziyyəti müzakirə edilmişdir.

Qərarda deyilirdi:

- türk pedaqoji kadrların çatışmaması ucbatından uyezdlərdə və rayonlarda «Nümunə məktəbləri»nin təşkilinin dayandırılması məqsədəuyğun hesab edilsin;
- metodiki ədəbiyyatın türk dilində nəşri və tərcümə işi davam etdirilsin;
- elmi-metodiki şuraya tərcümə olunacaq metodiki ədəbiyyatın siyahısını tərtib etmək tapşırılsın;
- müəllimlərin siyasi və pedaqoji hazırlığı ilə bağlı konfranslar, seminarlar keçirilsin (120).

A.Şaiq bu illərdə hazırlıq kurslarında, fəhlə fakültələrində, Pedaqoji Texnikumlarda, Pedaqoji İnstitutda və Maarif Komis-



sarlığının türk dili dərslikləri hazırlanması üzrə təşkil etdiyi komissiyada çalışmasına baxmayaraq «Nümunə məktəbi»ndən də ayrılmırdı. «Nümunə məktəbi»ndə A.Şaiqin fəaliyyəti ilə bağlı məktəbin və bilavasitə A.Şaiqin şagirdləri olmuş bir çox tanınmış şəxsiyyətlərin xatirələri dəfələrlə dinlənilmiş və çap edilmişdir. Bunlardan biri də mərhum akademik Məhəmmədəmin Salehlidir. O söyləyirdi ki, məktəbin direktoru Qafur Kantemir idi. A.Şaiq ədəbiyyatdan dərs deyirdi. O dərin biliyə malik, öz peşəsinin vurğunu olan hərtərəfli bir şəxs idi. Uşaqlara böyük qayğı ilə yanaşar, davranışlarında çox nəzakətli olardı. Biz şagirdlər ona ehtiramla yanaşar, hörmət əlaməti olaraq «Mirzə» deyərdik.1924-cü ildə «Nümunə məktəbi»nin ilk buraxılışı oldu, bu eyni zamanda A.Şaiqin ədəbi-pedaqoji fəaliyyətinin iyirmi illiyi ilə bir vaxta düşürdü. Xalq Maarif Komissarlığının qərarı ilə Şaiqin ədəbi-pedaqoji fəaliyyətinin iyirmi illik yubileyi təntənə ilə qeyd edildi.(Əslində Şaiqin pedaqoji fəaliyyətinin iyirmi üç illiyi qeyd olunurdu.Əvvəlki fəsildə qeyd etdiyimiz kimi arxiv sənədləri A.Şaiqin 1901-ci ildə müəllimliyə başladığını sübut edir.) «Yubiley 1924-cü ilin soyuq dekabr ayına təsadüf etmişdi. Şaiqin tələbələri gül-çiçəklə Verxni-Naqornı 19-da (indiki A.Şaiq küçəsi 21. Abdulla Şaiqin mənzil-muzeyinin binası) yerləşən mənzilinə gələrək yubilyarı alqışlamış, sonra əlləri üstünə alaraq Azərbaycan Ali Pedaqoji İnstitutunun (İndiki Dövlət İqtisadi Universitetinin) akt salonunda toplaşan, onu tələşla gözləyən toplantı iştirakçılarının hüzuruna gətirmişdilər» (51, s.183). Çox təntənəli bir şəraitdə keçirilmiş gecənin materialları ayrıca bir kitab halında nəşr edilmişdir. İctimaiyyətə təqdim edilmiş bu kitabda Şaiqin ədəbi-pedaqoji fəaliyyəti, iş yoldaşlarının onun haqqında söylədikləri dəyərli fikirlər toplanmışdı. Xalq Maarif Komissarı M.Quliyevin və başqa tanınmış şəxsiyyətlərin iştirak etdiyi həmin gecə haqqında tədqiqatçı Əflatun Məmmədov özünün «Abdulla Şaiq» adlı kitabında geniş bəhs etdiyindən biz

yenə də M.Salehlinin söylədiklərinə diqqəti cəlb etmək istəyirik. M.Salehli həmin gecənin çox təmtəraqlı keçdiyini söyləyir: «Mən birinci il idi ki, məktəbdə oxuyurdum. Yadımdadır ki, böyük müsamirə təşkil olunmuşdu. Həmin gecəyə Nəriman Nərimanov da gəlmişdi. O, məzunlara «Ay mənim saqqallı cocuqlarım» - deyərək müraciət etdi. O öz nitqində Azərbaycanın gələcəyindən, məktəb məzunlarının qarşısında duran vəzifələrdən danışdı».(105) K.Talıbzadə yazır ki, bu tədris ocağına «Şaiq Nümunə məktəbi» adı rəsmən verilməmişdir. Tələbə, valideyn və müəllimlər özləri belə adlandırmışdılar. Lakin arxiv materialları bu fikrin tam əksini göstərir. Həmin müsamirədə tələbə və müəllimlərin arzusunu nəzərə alan Maarif Komissarlığı və Baş Tərbiyə İctimai Dairəsi bir çox dolanbaclı yollardan keçib fəaliyyətini müvəffəqiyyətlə davam etdirən məktəbi «Şaiq Nümunə məktəbi» adlandırmağı qərara aldı (93). A.Şaiq və həmkarları maarifçi fikir və ideyaların yayılmasında mətbuatın rolunu yüksək qiymətləndirirdilər və onu ən gərəkli bir vasitə hesab edirdilər. Buna görə də 1925-ci ilin noyabrında «Şaiq Nümunə məktəbi»nin bir qrup müəllimi ərizə ilə Xalq Maarif Komissarlığına müraciət edərək uşaqlar üçün «Yeni məktəb» adlı dərginin nəşr edilməsini xahiş edirlər. Xalq Maarif Komissarlığında ərizəyə baxılaraq «Məktəb həyatından» şöbəsində plana salınsa da, sonralar bu dərgi işıq üzü görmür (92). Lakin illər keçdikcə sovet məmurları tərəfindən «Nümunə məktəbi»nə maraq azalırdı. Bununla əlaqədar ilbail məktəbə ayrılan xərclər, dərsliklərin verilməsi azaldılır, doğma dildə dərs deyən müəllimlərə olan tələbat ödənilmirdi. Bu vəziyyət şagird kontingentinin sürətlə azalmasına səbəb olurdu. 1919-cu və 1920-ci illərdə uyğun olaraq şagirdlərin sayı 820-780 nəfər olduğu halda bu rəqəm 1926-ci ildə 5-6 dəfə azalmışdır. Müqayisə üçün aşağıda 1926-ci ildə «Nümunə məktəbi»ndə şagirdlərin sayını əks etdirən cədvələ baxmaq maraqlı olar: (115)



**Cədvəl 2.9**

| Məktəbin Adı | Şagirdlərin sayı | Sosial vəziyyət | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | Fəhlə | Batrak | Xidmətçi | Qulluqçu | Aztəminatlı | Xırda alverçi | Ticarətçi | Uşaq evindən | Neftlə məşğul | Və digər işçilər |
| Pedaqoji İnstitut nəzdində «Şaiq nümunə məktəbi» | 123 | 12 | - | - | 39 | - | 32 | 13 | 8 | 11 | 8 |

1921-ci ildən etibarən Xalq Maarif Komissarlığı təhsil şəbəkələrinin yenidən təşkili ilə əlaqədar Nazirlər Kabinetinə təkliflər paketini təqdim edir. Azərbaycan İnqilab Komitəsi 1921-ci il 17 yanvar tarixli qərarı ilə Bakıda birillik pedaqoji kurslar açır. Məqsəd qısa müddət ərzində müəllim kadrları hazırlamaq, həm də gələcəkdə yaradılacaq Ali Pedaqoji İnstitut üçün müəyyən bazanın yaradılması idi. Səkkiz aydan sonra o zaman Xalq Komissarlar Sovetinin sədri olan Nəriman Nərimanov ilk kişi Ali Pedaqoji İnstitutun yaradılması haqqında 1921-ci il 26 avqust tarixli 66 saylı dekretini imzaladı. 1922-ci ildə Qadın Pedaqoji Texnikumu yaradıldı.1924-cü ildə Pedaqoji İnstitut yaradıldı. Bu təhsil ocağının yaradılmasında görkəmli maarifçilər Fətulla bəy Rzabəyli, Həbib bəy Mahmudbəyov, Məmməd bəy Əfəndiyev, Sadıx Hüseynov, Rahim Cəfərovla yanaşı Abdulla Şaiq də böyük xidmətlər göstərmişdir.1926-cı ildə müəllim kadrlarının hazırlanmasına, təhsilin maddi-texniki bazasının möhkəmləndirilməsinə, təlimin keyfiyyətinin artırılmasına vahid tələbkarlığı və nəzarəti həyata keçirmək üçün Pedaqoji İnstitutlar (kişi və qadın) Azərbaycan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən pedaqoji fakültə ilə birləşdirilməsi məsələsi Xalq Maarif Komissarlığı tərəfindən təklif kimi irəli sürülür. Bu təklif Azərbaycan Respublikası Xalq Komissarları Sovetinin 16.06

1926-cı il tarixdə keçirilmiş iclasında müzakirə edilərək qəbul olunur. 1926-cı ilin 16 iyununda Nazirlər Kabineti öz iclasında «Pedaqoji İnstitutların yenidən qurulması haqqında» məsələ müzakirə etdi. İclasda Xalq Maarif Komissarı məruzə ilə çıxış etdi. Məruzənin və müzakirənin bütöv mətni saxlanmasa da qəbul edilmiş qərar göstərir ki, yenidən qurulan Pedaqoji İnstitut və onun nəzdindəki siniflər artıq özlərinin tarixi missiyalarını yerinə yetirmiş və bunların birləşdirilməsi, yeni məzmunda, formada təhsil ocaqlarının yaranması zərurətindən meydana çıxmışdır. Nazirlər Kabinetinin 16 iyun 1926-cı il iclasının bir saylı protokolundan çıxarış olduğu kimi verilir:

1. Köklü islahatların aparılması baxımından Pedaqoji İnstitutun yenidənqurulması məqsədə uyğun hesab edilsin.

2. Pedaqoji İnstitutun nəzdində fəaliyyət göstərən hazırlıq şöbələrin və siniflərin funksiyası («Nümunə məktəbi»nin – qeyd M.M.) və 1926-27-ci dərs ilindən həmin siniflərə şagird qəbulu dayandırılsın. Qalan yuxarı siniflər Qadın Pedaqoji Texnikumunun şöbəsi hesab edilsin.

Elə həmin gün Xalq Maarif Komissarlığı kollegiya iclasında Nazirlər Kabinetinin qərarını yekdilliklə təsdiq etdi. (116) Beləliklə, «Şaiq Nümunə məktəbi»nin 1926/27-ci dərs ilindən fəaliyyət göstərməsinə son qoyuldu. Məktəbin bağlanmasından üç gün öncə isə şair A. Şaiqə Xalq Maarif Komissarlığının 13 iyun 1926-cı il tarixli kollegiyasının qərarı ilə 120 manat məbləğində fərdi təqaüd verilməsi qərara alınır. Elə həmin il 18 dekabr tarixli kollegiyanın 34 saylı qərarı ilə Abdulla Şaiqin səmərəli pedaqoji fəaliyyəti nəzərə alınaraq dekabrın 1-dən etibarən hər ay ona 75 manat müavinət təyin edilir. (69,s.85) 1918-ci ildə yaranmış məktəb 8 ilə yaxın fəaliyyət göstərmişdir. Bu müddət ərzində məktəbdə sivilizasiyaya doğru inkişaf perspektivləri, 1918-ci ildə müstəqilliyini qazanmış gənc Azərbaycan dövlətinin dirçəldilmə imkanları, milli şüurun sürətlə oyanma prosesi nəzərə alınaraq müstəqil, real təhsil siyasəti həyata keçirilmişdir.



Hesab edirik ki, pedaqogika tarixinə «Şaiq Nümunə məktəbi» adı ilə daxil olmuş bu təhsil ocağının fəaliyyətinin öyrənilməsi müasir mərhələdə məktəbin yenidən qurulmasında pedaqoji kollektivlərə örnək ola bilər.

«Nümunə məktəbi»nin yaranması və fəaliyyəti ilə bağlı arxiv materialları, dərc edilmiş məqalələr və məzunların xatirələri əsasında aparılmış araşdırmalar bizə aşağıdakı nəticələri çıxarmaq imkanı verir:

- XX əsrin əvvəlləri Azərbaycan milli pedaqoji fikrin intibah dövrü olmuşdu.;
- bütün çətinliklərə və maneələrəbaxmayaraq ana dili dərsliklərinin, milli məktəblərin yaranması, müəllim kadrlarının hazırlanması istiqamətində ardıcıl iş aparılmışdı;
- milli məktəblərin fəaliyyəti, ana dilinin bərabərhüquqlu dil kimi tədrisi ancaq Azərbaycan Demokratik Cümhuriyyəti dövründə baş tutmuşdu;
- pedaqogika tariximizdə ilk milli məktəb olan «Nümunə məktəbi»nin, tədris proqramlarının, dərsliklərin yaranmasında A.Şaiq əvəzsiz xidmətlər göstərmişdir;
- məktəbin maddi-texniki bazasının, tədrisin keyfiyyətinin, müəllimlərin elmi, pedaqoji-metodiki səviyyəsinin və maddi vəziyyətlərinin yaxşılaşdırılması ADR hökumətinin daim diqqət mərkəzində olmuşdur;
- Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra maarifdə islahatlar aparılmış, ali təhsil verən pedaqoji institutlar yaradılmış, yeni məzmuna malik proqram və dərsliklər hazırlanmış, təlim-tərbiyənin məzmunu məfkurəcə dəyişmişdir;
- «İslahat»lar nəticəsində bölgələrdə "Nümunə məktəbi" tipində milli məktəblərin təşkili prosesi dayandırılmış və hökumətin müəllimlərlə siyasi-ideoloji pedaqoji işi gücləndirilmişdir.

## 2.2. «Nümunə məktəbi»ndə təlimin məzmununun qoyulması

Məktəbdə təlimin məzmunu şagirdlərin mənəvi cəhətdən formalaşmasında mühüm rol oynayan milli ideologiyanı əks etdirir. Əslində bu «Nümunə məktəbi»nin ən ali məqsədi idi, və bu məqsəd də məktəbdə təlim-tərbiyənin məzmununu müəyyənləşdirirdi. Bu özünü aşağıdakı istiqamətlərdə göstərirdi:

- ana dili dərslərinə seçilmiş materialların milli ruhda olması, şagirdlərə digər fənlərdən təbiət, insan, cəmiyyət haqqında ilkin biliklərin verilməsi (aşağı siniflərdə);
- ilbəil cəmiyyətdə, elmdə baş verən dəyişikliklərin nəzərə alınması, proqram və dərsliklərdə şagirdlərə verilən bilik və vərdişlərin əhatəsinin genişləndirilməsi;
- uşaqların dünyagörüşünün artmasına xidmət edən məzmun və metodların seçilməsi, onların yabançı adət və baxışlardan qorunması.

Təhsilin məzmununun müəyyənləşdirilməsində başlıca amil olan tədris planlarının, proqram və dərsliklərin hazırlanması ən mühüm məsələ idi. Elə ilk gündən A.Şaiq və həmkarları özünün dediyi kimi, «şərəfli» və «ağır» bir işə başladılar. Az zaman ərzində məktəbin ilk tədris planı hazır oldu. Təqdim edilən planda fənlər üç qrupa bölünür: 1. Hesab; 2. Əlifba; 3. Əl əməyi və fiziki hazırlıq. (108) Bu siniflərdə hesab dərsinin məzmun və məqsədi məktəbə ilk qədəm qoyan uşaqlarda riyazi hesablamalar haqqında ilkin bilgilər vermək idi. Humanitar-estetik fənnlərin (ilahiyyat, türk dili, rəsm, nəğmə) təlimi zamanı uşaqlara dini-əxlaqi keyfiyyətlər, estetik zövq, mədəniyyət, klassik ədəbiyyata, doğma dilə məhəbbət hissləri aşılanırdı. Əl əməyi və gimnastikanın təlimi uşaqların sağlamlığını möhkəmləndirməyə, əmək vərdişlərinin formalaşmasına xidmət edirdi. Təqdim edilən planda öyrədilən fənlərin ardıcıllığı, siniflər üzrə hər fənnə verilən dərs saatlarının miqdarı, həmin fənlərin təlim-tər-



biyədə şagirdlərin məntiqi təfəkkürünün, dünyagörüşünün formalaşmasında daha geniş imkanlar yaratdığı nəzərə alınaraq verilmişdir. Plan mövcud Realnı və İkinci dərəcəli məktəblərin tədris planından köklü surətdə fərqlənirdi. İlkin olaraq Hazırlıq və İkinci dərəcəli məktəbin I-III siniflərinin 1918-19-cu dərs ili üçün tədris planını nəzərdən keçirək:

**Cədvəl 2.10**

**Hazırlıq sinifləri**

| Fənlərin Adı | Siniflər | | |
|---|---|---|---|
| | I | II | III |
| İlahiyyat | - | 2 | 2 |
| Türk dili | 8 | 8 | 8 |
| Hesab | 6 | 6 | 6 |
| Rəsm | 2 | 2 | 2 |
| Nəğmə | 1 | 1 | 1 |
| Gimnastika | 1 | 1 | 1 |
| Əl əməyi(oğlan) | 2 | 2 | 2 |
| Əl əməyi(qızlar) | 2 | 2 | 2 |

**Cədvəl 2.11**

**İkinci dərəcəli məktəb**

| Fənlərin Adı | Siniflər | | |
|---|---|---|---|
| | I | II | III |
| Rus dili | 8 | 8 | 8 |
| Hesab | 4 | 4 | 4 |
| Rəsm | 2 | 2 | 2 |
| İlahiyyat | - | 2 | 2 |
| Gimnastika | 1 | 1 | 1 |
| Nəğmə | 1 | 1 | 1 |
| Tuzemnıy yazık (türk dili) | 2 | 2 | 2 |
| Cəmi | 17 | 20 | 20 |

«Nümunə məktəbi»nə məxsus olan cədvəl 2.10 –da tədris planının quruluşu, fənlərin ardıcıllığı, fənlərin tədrisinə verilən saatların miqdarı didaktikanın tələblərinə cavab verərək məktəbin məqsəd və vəzifələri ilə üzvi süratdə bağlıdır. Məktəb milli məktəb olduğuna və təlim türk dilində aparıldığı üçün türk dilinə ayrılan dərs saatlarının miqdarı başqa fənlərdən nəzərəçarpacaq dərəcədə fərqlənir. Cədvəl 2.11-də göstərildiyi kimi təlim rus dilində olan İkinci dərəcəli məktəbin tədris planında türk dili «tuzemnıy yazık» (yerli dil-M.M.) adı altında ikinci dərəcəli fənn kimi verilmişdir.

Birinci tədris planını ikincidən fərqləndirən əsas cəhətlərdən biri də bu planda məzmunca bir-birindən fərqli, amma özündə eyni məqsədi ehtiva edən üç qrup fənnin tədrisidir:

- birinci, zehni iş tələb edən hesab, türk dili, İlahiyyat fənləri;
- ikinci, yorğunluğu aradan qaldıran rəsm, nəğmə dərsləri;
- üçüncüsü isə fiziki güc, hərəkət tələb edən gimnastika, əl əməyi dərsləridir.

Tədris planı fənlərin məzmununda şagirdlərin yaş xüsusiyyətləri, bilik səviyyələri, onların ümumtəhsil hazırlıqları, həmçinin fənlər arasındakı əlaqələrin zəruriyyəti nəzərə alınmaqla hazırlanmışdır. Tədris planının bu quruluşda tərtibatı müəllimə tədris etdiyi fənn vasitəsi ilə müşahidələr aparmaq və şagirdlərin gördüyü əməli işlərdən nəticə çıxarmaq, ümumiləşdirmələr etmək imkanı verir. İllər keçdikcə, zaman dəyişdikcə məktəbin tədris planları da dəyişdirilirdi. Belə ki, 1918-22-ci illərdə təhsilin məzmunu şagirdlərin milli özünü dərketmə fəallığını, müstəqil fikir, düşüncə tərzinin inkişafını əxz edirdisə, 1922-ci illərdən sonra təhsilin məzmununda bu istiqamətlər saxlanılaraq bir sıra əlavələr edildi. Təbiət-riyaziyyat fənlərindən nəzəri biliklərin həcmi artırıldı və eyni zamanda bu biliklərin həyatda tətbiqi ilə bağlı vərdişlərin verilməsi ön plana çəkildi. Fənlərin tədrisində saatların nisbəti dəyişdirildi.1922-ci illərədək Hazır-



lıq siniflərindən başlayaraq VII siniflər də daxil olmaqla bütün siniflərdə təlim edilən fənlər arasında saatların ümumi miqdarı aşağıdakı statistik məlumatda olduğu kimi idi:

1. Humanitar-estetik fənlər – 164 saat;
2. Təbiət-riyaziyyat fənləri – 56 saat;
3. Əl əməyi və fiziki hazırlıq – 23 saat (108).

**Cədvəl 2.12**

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| 1. | İlahiyyat | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 14 |
| 2. | Türk dili | 4 | 4 | 4 | 4 | 4 | 4 | 4 | 28 |
| 3. | Rus dili | 4 | 4 | 4 | 4 | 4 | 4 | 4 | 28 |
| 4. | Alman dili | 4 | 3 | 3 | 3 | 3 | 3 | 3 | 22 |
| 5. | Fransız dili | - | 4 | 3 | 4 | 3 | 27 | 2 | 15 |
| 6. | Coğrafiya | - | 2 | 2 | 2 | 2 | 2 | 2 | 12 |
| 7. | Tarix | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 14 |
| 8. | Riyaziyyat | 4 | 4 | 4 | 6 | 6 | 6 | 5 | 35 |
| 9. | Fizika | - | - | - | - | 3 | 4 | 3 | 10 |
| 10. | Təbiət fənləri | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 15 |
| 11. | Rəsm | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 | 14 |
| 12. | Rəsmxət | - | - | 2 | 1 | - | - | - | 3 |
| 13. | Hüsnxət | 1 | - | - | - | - | - | - | 1 |
| 14. | Qanunçuluq | - | - | - | - | - | - | 2 | 2 |
| | Cəmi | 25 | 31 | 33 | 32 | 34 | 34 | 33 | |

Göründüyü kimi, xarici dillərin təliminə ibtidai siniflərdən başlanılırdı. Həmin fənlərə ayrılmış saatların miqdarının ana dilinə ayrılmış saatların miqdarı ilə eynilik təşkil etmişdir. Bir sıra fənlərin tədrisi plandan tamamilə çıxarılmışdır. Zehni gərginliyi aradan qaldıran nəğmə, uşaqların fiziki cəhətdən inkişafına imkan verən gimnastika, əmək dərsləri bu fənlər sırasına daxildir. A.Şaiq didaktikanın tələblərinə cavab verməyən bu tədris planına qarşı çıxdı. «20.08.19-cu il tarixli pedaqoji şurada çıxış

edən A.Şaiq xarici dillərin tədrisini ən azı ikinci sinifdən başlamağı, onlara ayrılmış saatların miqdarının azaldılmasını və həmin saatların hesabına gimnastika, əl əməyi fənlərinin tədris planına daxil edilməsini təklif etmişdir» (108). Onun pedaqoji şurada irəli sürdüyü təkliflər həmkarları tərəfindən müsbət qarşılanmışdır. 1920-21-ci dərs ilində tərtib edilmiş tədris planında artıq həmin təkliflər qismən də olsa öz əksini tapmışdır (108). Onun pedaqoji şurada irəli sürdüyü təkliflər həmkarları tərəfindən müsbət qarşılanmışdır. 1920-21-ci dərs ilində tərtib edilmiş tədris planında artıq həmin təkliflər qismən də olsa öz əksini tapmışdır (108).

**Cədvəl 2.13**

| № | Fənlərin adı | Siniflər | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| | | I | II | III | IV | V | VI | VII |
| 1. | İlahiyyat | 2 | 2 | 2 | 2 | 2 | 2 | 2 |
| 2. | Türk dili | 5 | 5 | 5 | 5 | 5 | 5 | 5 |
| 3. | Rus dili | 4 | 4 | 3 | 3 | 3 | 3 | 3 |
| 4. | Hesab | 4 | 4 | 4 | 4 | 4 | 4 | 4 |
| 5. | Tarix | - | 2 | 3 | 3 | 3 | 3 | 3 |
| 6. | Coğrafiya | 2 | 2 | 2 | 2 | 3 | 3 | 3 |
| 7. | Alman dili | 3 | 3 | 3 | 3 | 3 | 3 | 3 |
| 8. | Fransız dili | - | 3 | 3 | 3 | 3 | 3 | 3 |
| 9. | Təbiət fənləri | 2 | 2 | 2 | 1 | 1 | 1 | 1 |
| 10. | Rəsm | 2 | 1 | 2 | 1 | 1 | 1 | 1 |
| 11. | Hüsnxət | 1 | - | - | - | - | - | - |
| 12. | Gimnastika | 2 | 1 | 1 | 1 | 1 | 1 | 1 |
| 13. | Nəğmə | 1 | 1 | 1 | 1 | 1 | 1 | 1 |
| 14. | Əl işi | 2 | 1 | 1 | 1 | 1 | 1 | 1 |
| | Cəmi | 30 | 31 | 32 | 30 | 31 | 31 | 31 |



Cədvəl 2.13-dən göründüyü kimi, xarici dillərə verilmiş saatların miqdarı qismən azaldılmış, birinci sinifdən tarixin tədrisi, üçüncü, dördüncü siniflərdən rəsmxətin tədrisi, yeddinci sinifdən qanunçuluq fənni çıxarılmış və bu saatların hesabına gimnastika, nəğmə, əl işi fənlərinin tədrisi salınmışdır. Bütün nöqsanlarına baxmayaraq plan pedaqogika tarixində ilk anadilli məktəbin tədris planı olmaq baxımından dəyərlidir. Maraq doğuran sənədlərdən biri də məktəbdə tədris edilən hər bir fənnin məqsədini qısa, konkret halda göstərən metodik tövsiyədir (106). Xarici dil fəninin (rus, alman, fransız) birinci mərhələdə məqsədi uşaqlara yeni olan səsləri, sözləri, hərfləri öyrətmək, söz ehtiyatı toplamaq, ikinci mərhələdə , yəni ikinci sinifdən başlayaraq fikri ifadə etmək, söyləmək, özü, ünvanı haqqında məlumat vermək kimi standartlar müəyyənləşdirilmişdir. Bir sözlə, şifahi nitqin inkişafı bü standartların diqqət mərkəzində olmuşdur. Eyni zamanda standartlarda tədris edilən digər fənnlərin qarşısında konkret vəzifə- məqsəd öz əksini tapmışdır: Tarix dərslərinin hər bir mövzunun xəritə üzərində, konkret tarixi materiallar əsasında izaha əsaslanması göstərilir. Riyaziyyat (Hesab) – Təlimə analitik geometriyanın, analizin və bir sıra başqa elmlərdən inteqrativ mövzuların tədrisi daxildir. Əsas məqsəd uşaqlarda riyazi, şifahi hesablamalar aparmaq qabiliyyətini, düşüncə tərzini inkişaf etdirməkdir. Təbiət fənlərinin tədrisi şagirdlərin laboratoriya şəraitində təcrübələr aparmaq, nəticə çıxarmaq, əyani vəsaitlərdən lazımi dərəcədə istifadə etmək bacarıqlarının formalaşdırmaq məqsədi daşıyırdı. Coğrafiya dərslərində əsas diqqət şagirdlərə Azərbaycanın və dünyanın fiziki - siyasi xəritəsini öyrətmək, uşaqlara topoqrafik və geoqrafik xəritələrin oxunması vərdişlərini aşılamaq və bu vərdişlərin şüurlu surətdə praktik işlərdə tətbiq edilməsinə yetirilirdi. Ədəbiyyata bir həyat dərsi kimi yanaşılır. Şifahi xalq ədəbiyyatından nağıl, əfsanə, dastan qəhrəmanların, klassik və dövrün bədii əsərlərini, şair və yazıçıların həyatlarını, mübarizələrini, yaradıcılıqlarını öyrətməklə

şagirdlərdə əxlaqi-mənəvi keyfiyyətlər aşılamaq məqsədini ehtiva edirdi. Eyni zamanda verilən materialların elmi-metodiki cəhətdən qüvvətli olması, tarixi-ədəbi inkişafın xronologiyasının düzgün verilməsi, şagirdlərin milli ruhda tərbiyəsinə xidmət etməsi bir tələb kimi qoyulurdu. Əl əməyi dərslərində şagirdlərə ibtidai əmək mədəniyyəti, mütəşəkkillik, əmək intizamı, əməyə məhəbbət, məsuliyyət hissini aşılamaq kimi standartlar qoyulmuşdu. Rəsm dərsləri şagirdlərdə əl qabiliyyətini, düşüncəni inkişaf etdirmək, rəngləri fərqləndirməyi, ətraf mühiti dərk etməyi, duymağı, xəyal etməyi öyrətmək, onların estetik tərbiyəsinin, bacarıq və vərdişlərinin formalaşmasına xidmət etmək məqsədi daşıyırdı. Tədris planlarında şagirdlərin biliyinin qiymətləndirilməsi üçün də tövsiyələr verilmişdir. İbtidai də olsa bu tövsiyələri biliyin qiymətləndirilməsi standartı da adlandırmaq olar. Bura ev tapşırıqlarının, sinif yazı işlərinin, kimya-fizika, riyaziyyat dərslərindən məsələ həllinin, qanunların mahiyyətinin izahı, ədəbiyyatdan əsərin məzmununu izah etməyi, danışmağı qiymətləndirmək daxil idi. Sinif hamiləri (sinif rəhbərləri – M.M.) üçün də vəzifələr müəyyənləşdirilmişdir. Hami müəllimlərin qarşısında hər bir şagirdin ailə şəraitini öyrənmək, valideynləri ilə sıx əlaqə saxlamaq, şagirdlərin ev şəraitində istirahətinin, dərslərə hazırlıq, gündəlik rejiminin düzgün təşkil edilməsində valideynlərə tövsiyə vermək, onlarla əlaqə yaratmaq, əməkdaşlıq etmək kimi vəzifələr qoyulurdu. Məktəb yarandığı ilk vaxtlar təlimin məzmunu ilə bağlı üzləşdiyi çətinliklərdən biri də proqram və dərsliklərin yüklü olması idi. Xeyli ağır olan proqram və dərsliklər şagirdlərin ayrı-ayrı fənlər üzrə qavrama qabiliyyətləri, ana dilini bilmə səviyyələri nəzərə alınmamış tərtib edilmişdir. Buna görə də şagirdlərin böyük əksəriyyəti proqram materiallarını mənimsəyə bilmirdi. Bütün bu çətinlikləri aradan qaldırmaq üçün A.Şaiq və onun rəhbərliyi ilə gənc, mütərəqqi müəllimlər əməli fəaliyyətə başladılar. Bu fəaliyyət aşağıdakı istiqamətlər üzrə həyata keçirildi:



- mövcud tədris proqramlarının və dərsliklərin məzmununun yuxarıda göstərilən nöqsanların aradan qaldırılmasını nəzərə alan məzmunda yenidən işlənməsi
- təlim üsullarının fəal formalarının nəzəri- metodik əsaslarının təkmilləşdirilməsi.

A.Şaiqə görə, proqram və dərsliklərin məzmunu, eyni zamanda istifadə edilən təlim üsulları uşağa müəyyən biliklər verməklə yanaşı, onu araşdırmalar aparmağa, mütaliə etməyə, müstəqil fikir söyləməyə, öyrənməyə sövq etməlidir. A.Şaiq pedaqoji fəaliyyətinin birinci mərhələsinin məhsulu olan «Uşaq gözlüyü», «Türk çələngi», H.Cavidlə birgə hazırladığı «Ədəbiyyat dərsləri», «Qiraət kitabı», «Türk dili» adlı kitabları üzərində bir daha işləyərək onun dilini sadələşdirmiş, ərəb, fars mənşəli kəlmələrdən müəyyən qədər təmizləmiş, kitabların dilinin, məzmununun dövrün qrammatik qanunlar dilinə çevrilməsi üçün elmi-didaktik prinsip və qaydalara riayət etməyə çalışmışdır. Dərsliklərdə mövzular, mətnlər, ədəbi parçalar, şeirlər şagirdlərin dərketmə imkanları nəzərə alınaraq seçilmişdi. 1919-cu ildə bu dərsliklər yenidən nəşr olunaraq məktəbdə ana dilindən əsas dərsliklər kimi istifadə edilmişdi. Dördüncü və beşinci siniflərdə A.Şaiqin «Gülzar» kitabından istifadə edilirdi. A.Şaiq bu dərsliyi 1912-ci ildə çap etdirməsinə baxmayaraq məzmun və quruluşuna görə «Nümunə məktəbi»nin məqsədindən irəli gələn tələblərə cavab verirdi. Hələ 1917-ci ildə böyük pedaqoq Firudin bəy Köçərli tərəfindən yüksək qiymətləndirilmiş «Gülzar»ın məzmunu şagirdlərin səviyyəsi nəzərə alınaraq hazırlanmışdır. Dərslikdəki materialları üç qismə bölmək olar:

- birinci bölmədə: Azərbaycan klassik yazıçı və şairləri haqqında məlumat verilmişdir. Şagirdlər M.Füzuli, M.P.Vaqif, S.Ə.Şirvani, M.F.Axundzadə, M.Ə.Sabir, A.Səhhət kimi sənətkarların həyat və yaradıcılıqları ilə tanış olurlar;
- ikinci bölmədə: A. Şaiq özünün «Qış», «Layla», «İki qaranquş», «İntiharmı, yaşamaqmı?», «Köç» və «Əsrimizin qəhrə-

manları» əsərlərindən parçalar vermişdir;

- üçüncü bölmədə: A.Səhhətin rus klassiklərindən Puşkinin «Qafqaz», «Uçqun, yaxud uçurum», Lermontovun «Mübahisə», Koltsovun «Taxıl biçimi», Qorkinin «Günki günəş səhərlər çıxar, axşam batar» və başqa əsərlərdən etdiyi tərcümələr daxil idi (62, s.43).

Əsrin əvvəllərində məktəblərdə məzmununa görə tədrisi az qala qadağan edilən «Gülzar» «Nümunə məktəbi»ndə bir ədəbiyyat dərsliyi olaraq şagirdlər tərəfindən həvəslə öyrənilirdi. Azərbaycan xalq ədəbiyyatı daim A.Şaiqin diqqət mərkəzində olmuşdur. O, «Xatirələrim»də yazır: «folkloru öyrənmək mənə xalq zövqünü, xalq adət və ənənələrini öyrətdi» (69, s.183-184). A.Şaiq şagirdlərini də səfərbərliyə alaraq nağıllar, bayatılar, atalar sözləri toplayır, bunlardan dərs kitablarında istifadə edirdi. O həmkarlarına da müraciət edərək el danışıq dilinin zənginliklərinə müraciət etməyi, onun incəliklərinə dərindən yiyələnməyi ən doğru yol hesab edirdi. Ədib «Xatirələrim»də daha sonra yazır: «Bununla da kifayətlənməyib, İran Azərbaycanı folklorunu toplamaq məqsədilə divar diblərində oturub özlərini günə verən bir neçə qoca hambal ilə tanış oldum. Xörək bişirtdirib onları bir neçə dəfə evə apardım. Onların söylədiklərini dəftərə köçürtdüm» (69, s.184). Əsrlərdən bəri ağızdan-ağıza keçmiş bu sənət əsərlərini qiymətli xəzinə adlandıran A.Şaiq 1926-cı ildə görkəmli maarifçi Şəfiqə Əfəndiyeva ilə birgə «Bayatılar» adlı bir vəsait tərtib etmişdi. «Bu kitabda 650-yə qədər bayatı nəşr edilmişdi» (23, s.37). A.Şaiqin milli bayramımız Novruz haqqında da söylədiyi fikirlər illər keçdikdən sonra öz həqiqi qiymətini almışdır. «Xatirələrim»də yazır: «...Bəzən Novruz bayramını ruhanilərə məxsus bayram kimi qiymətləndirirlər. Bu tamamilə yanlışdır. Novruz bayramı təbiətə bütün varlığı ilə bağlı olan ulu babalarımızın adət və ənənələri ilə əlaqədardır» (69, s.186). Bu illərdə Maarif Nazirliyinin nəzdində yeni məzmunda proqram və dərsliklər hazırlamaq üçün riyaziyyat, təbiət, ədəbiyyat, tarix-coğrafiya fənləri üzrə komissiyalar yaradılmışdı. Komissiyalarda dövrün mütərəqqi fikirli müəllimləri çalışırdı (bu haqda birinci fəsildə geniş məlumat verilmişdir). A.Şaiq ədəbiyyat komissiyasına daxil olsa da başqa fənlər üzrə də öz təcrübəsini həmkarları ilə bölüş-dürürdü. Proqram və dərsliklərdə edilmiş dəyişikliklərlə bağlı olaraq A.Şaiq yazırdı: «Proqramda nəzərə çarpacaq dərəcədə dəyişiklik edilmişdir. Çünki hər sinfin yaş dərəcəsi nəzərə alınmışdı. Klassiklərlə yanaşı xalq yaradıcılığından nümunələr verilmişdir» (61, s.115). Lakin digər fənlərdən riyaziyyat və fizikadan dərsliklər çatışmırdı. Mənbələrdən məlum olur ki, həmin fəndən olan dərsliklər Türkiyədən gətirilmişdi. Böyük pedaqoq Abdulla Şaiqin iştirakı və rəhbərliyi ilə «Nümunə məktəbi»ndə təlimin məzmunu ilə bağlı aparılmış islahatlar bizə aşağıdakı ümumiləşmələri aparmaq imkanı verir:

- az bir zaman ərzində işlənilib istifadəyə verilmiş plan, proqram və dərsliklər məzmun baxımından bir-biri ilə tam vəhdətdə olub şagirdlərin milli şüurunu onlarda dini-əxlaqi keyfiyyətlər, estetik mədəniyyət formalaşdıraraq ana dilinə, folklora məhəbbət hissi aşılayır. Bu tip proqram və dərsliklər ilbəil şagirdlərin qavrama səviyyələri nəzərə alınmaqla təkmilləşdirilmişdir;
- tədris edilən bütün fənlərin məqsədi, standartlar müəyyənləşdirilmiş, şagirdlərin qiymətləndirilməsi ilə bağlı tövsiyələr hazırlanmışdı;
- müəllimlərə metodik kömək məqsədi ilə mövcud təlim üsulları nəzəri-metodik cəhətdən təkmilləşdirilmişdi;
- milli adət-ənənələr, bayramlar öyrənilir, sinifdənxaric tədbirlər vasitəsi ilə təbliğ edilirdi;
- A.Şaiqin «Uşaq gözlüyü», «Türk çələngi», «Qiraət», H.Cavidlə birgə ha-zırladığı «Ədəbiyyat», «Gülzar» dərslikləri bütün siniflərdə ana dili dərsliyi kimi istifadə edilmişdi;
- Azərbaycan Demokratik Respublikası dövründə Maarif Nazirliyi məktəbin inkişafı üçün lazımi şəraitin yaradılmasını

daim diqqət mərkəzində saxlamışdır;

- Məktəbin dəqiq fənlərdən müəllim kadrlarına olan ehtiyacını təmin etmək məqsədi ilə Türkiyədən müəllimlər dəvət edilmişdi;

## 2.3. «Nümunə məktəbi»ndə təlim-tərbiyə işinin təşkili və onun idarə edilməsi məsələləri

Yeni yaranmış məktəb bir çox problemlərlə üzləşdi. Dərsliklər, ixtisaslı müəllim kadrları çatışmır, işləyən müəllimlərin isə elmi, pedaqoji-metodiki səviyyələri günün tələblərinə cavab vermirdi. İbtidai sinif şagirdlərinin əksəriyyəti öz doğma dillərini bilmirdi. Bunun da nəticəsində təkrar sinifdə qalanların sayı ilbəil artırdı. Sinifdə qalmalar əsasən ibtidai siniflərdə riyaziyyat və ana dili fənindən olurdu. Belə ki, şagirdlərin xeyli hissəsi qrammatikanı çox zəif bilir, yazılı və şifahi hesablamaları aparmağı bacarmırdılar. Onlar baş vermiş tarixi hadisələrin məzmun və mahiyyətini izah etməkdə çətinlik çəkir, fizika, kimya fənlərindən laborator və təcrübi məşğələləri minimum səviyyədə yerinə yetirirdilər. Bu problemləri aradan qaldırmaq üçün təlim-tərbiyə işi yenidən təşkil edilirdi. Bu prosesdə əsas diqqət müəllimlərin elmi-pedaqoji təhsilinin, metodik üsullarının təkmilləşdirilməsinə, qarşılıqlı yardım və nəzarətə, fənn dərnəklərinin təşkilinə, tərbiyə ilə bağlı tədbirlərin həyata keçirilməsində şagirdlərin fəallığının artırılmasına yönəldilmişdir. Məktəbdə təlim-tərbiyə işinin möhkəmlənməsi üçün həyata keçirilən bütün tədbirlərə Xalq Maarif Nazirliyi dəstək verir, gənc kollektivə maddi-texniki cəhətdən yardımı diqqət mərkəzində saxlayırdı. Xalq Maarif nazirinin 6 mart 1920-ci il tarixli 3316 saylı məktubuna əsasən Bakı Realnı Məktəbinin pedaqoji şurasında milli siniflərdə ("Nümunə məktəbi" nəzərdə tutulurdu qeyd -M,M,) təlimin keyfiyyətinin yaxşılaşdırılması məsələsi müzakirə edilmişdir. Pedaqoji şuranın milli siniflərdə çalışan müəllimlərin təlimin keyfiyyətini yaxşılaşdırmasına həsr edilmiş 13 mart 1920-ci il tarixli 3 saylı protokolundan çıxarışda göstərilir ki, Cəmo Cəbrayılbəyli, Qafur Rəşad, İbadulla Muğanlinski, Abdulla bəy Abaşidze və başqaları çıxış edərək əlifba, hazırlıq və birinci siniflərdə təlimin keyfiyyətinin aşağı olduğunu qeyd etmişlər. Müzakirələrdə çıxış edənlər buna səbəb kimi siniflərdə şagirdlərin sayının 50-55 nəfərdən artıq olmasını, bir çox şagirdlərin öz ana dilini zəif bildiklərini, proqram materiallarını mənimsəyə bilmədiklərini, dərsliklərin çatışmadığını, xəritələrin olmamasını, müəllimlərin elmi, pedaqoji-metodiki səviyyəsinin aşağı olmasını göstərirdilər. Pedaqoji şura aşağıdakı maddələrdən ibarət qərar qəbul etdi:

- siniflər şagirdlərin sayı 40 nəfərdən artıq olmamaqla komplektləşdirilsin;
- milli siniflərdə tədris edilən bütün fənlər üzrə proqramlar hazırlansın;
- müəllimlərə proqramların didaktik və metodik göstərişlər əsasında tərtib edilməsi tapşırılsın;
- milli siniflərdə təlim edilən fənlərin proqramına müvafiq olaraq türk dili, hesab (hazırlıq sinifləri üçün), tarix, coğrafiya, təbiət elmlərinə aid (aşağı və orta siniflər üçün) tədris vəsaiti çap edilsin;
- məktəb kitabxanası elmi, pedaqoji-metodiki xarakterli vəsaitlərlə zənginləşdirilsin
- müəllimlər üçün ixtisasartırma kursları təşkil edilsin. Kursları aparmaq üçün mütəxəssislər dəvət edilsin.
- milli siniflərdə çalışan xarici dil müəllimlərinin türk (Azərbaycan – qeyd M.M.) dilini bilmələri vacib hesab edilsin;
- birinci siniflərdə xarici dilin öyrənilməsinə ikinci yarımildən başlanılsın. (129)

Məktəb rəhbərliyi 440 saylı, 27.03.20-ci il tarixli m... ilə Maarif Nazirliyinə təlimin keyfiyyətinin müzakirəsi ilə bağlı məlumat verərək qəbul edilmiş qərarı onlara göndərmişdi (129).

Məktəbin Pedaqoji Şurasının 13 mart 1920-ci il tarixli qərarının müddəalarının yerinə yetirilməsi baxımından 1920-21-ci dərs ilində bir sıra tədbirlər həyata keçirildi: siniflər şagirdlərin sayı 35-40 nəfərdən artıq olmamaqla komplektləşdirildi, dəqiq fənləri çıxmaq şərti ilə humanitar fənlər üzrə plan, proqram və dərsliklər hazırlandı, müəllimlərin elmi, pedaqoji-metodik hazırlığını yüksəltmək üçün vaxtaşırı toplantılar təşkil edildi. Şagird kontingentinin artması nəticəsində məktəb get-gedə böyüyürdü. 1921-22-ci dərs ilində «Nümunə məktəbi» iki hissəyə ayrıldı: aşağı siniflər doqquzuncu, yuxarı siniflər isə on ikinci məktəb adlandı. Pedaqoji İnstitutun binasına köçən on ikinci məktəbin son üç sinfində təlim-tərbiyə işinin təşkili və idarə edilməsi məsələsi bütövlükdə A.Şaiqə tapşırıldı. Lakin bu ayrılmalara və bölgüyə baxmayaraq məktəb bütöv bir orqanizm kimi fəaliyyət göstərirdi. Onun yaradıcısı olan A.Şaiq hər iki məktəbdə təlim-tərbiyə işinin əsas təşkilatçısı idi. 1921-22-ci dərs ili üçün məktəb kollektivi öz qarşısında aşağıdakı vəzifələri müəyyənləşdirdi:

- məktəbdə təlim-tərbiyə işini təşkil etmək, keyfiyyəti yüksəltmək, valideynlərlə əlaqəni möhkəmləndirmək;
- ehtiyacı olan uşaqları nəzarətə götürmək, onların yaşayışı və sağlamlığı ilə bağlı problemlərin həllinə qayğı göstərmək;
- uşaqlarda vətənpərvərlik hissini artırmaq.

Eyni zamanda məktəbin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində də müəyyən tədbirlər, ən başlıcası sinif otaqlarının genişləndirilməsi, fizika laboratoriyası üçün lazımi avadanlıqların alınması planlaşdırıldı (129). Həmin illərdə məktəbdə təhsil almış, mərhum akademik M.Ə.Salehli söyləyirdi ki, sinif otaqlarının azlığı ucbatından dərslər üç növbədə keçirilirdi. Dərs rejimi belə idi: dərslər saat 9-da başlayır, axşam 7-də qurtarırdı, hər dərs 40 dəqiqə davam edirdi, 5 dəqiqədən ibarət dörd tənəffüs, 10 dəqiqədən ibarət bir tənəffüs var idi. 1-4-cü siniflər birinci növbədə məşğul olurdular. Məktəbdə siniflərin həftəlik dərs yükü aşağıdakı kimi müəyyənləşdirilmişdir



**Cədvəl 2.14**

| Siniflər | Tipi | Həftəlik dərs saatları |
|---|---|---|
| I | İbtidai | 22 saat |
| II | İbtidai | 24 saat |
| III | İbtidai | 26 saat |
| I | Orta siniflər | 25 saat |
| II | Orta siniflər | 31 saat |
| III | Orta siniflər | 33 saat |
| IV | Orta siniflər | 32 saat |
| V | Orta siniflər | 34 saat |
| VI | Orta siniflər | 34 saat |
| VII | Orta siniflər | 33 saat |

Sonralar bəzi fənlərə verilmiş dərs saatlarında, tədris edilən fənlərdə müəyyən dəyişiliklər edilmiş, orta məktəblərimizdə uzun müddət bu tədris planından istifadə edilmişdir.

Təlim-tərbiyə prosesini tənzimləyən mühüm sənədlərdən biri də dərs cədvəlidir. Təəssüflər olsun ki, mövcud arxiv materialları arasında məktəbin dərs cədvəli saxlanılmamışdır. Ona görə də dərs cədvəlinin tərtibində hansı qaydaya (kartoçka və ya rəqəm) riayət edildiyi, didaktik tələblərə cavab verib-vermədiyi haqqında fikir yürütmək imkanımız yoxdur. Ancaq yenə də M.Ə.Salehlinin söylədiklərinə istinadən belə nəticəyə gəlmək olar ki, dərs cədvəli didaktikanın tələblərinə uyğun tərtib edilmişdi. O söyləyir ki, bizim sinifdə (5-ci sinif) həftənin II, III, IV günlərində ən ağır dərslərimiz ana dili, hesab, fizika, coğrafiya olardı, belə ki, həftənin II-IV günlərində uşaqların çalışma qabiliyyətləri yüksək olur. Buradan belə nəticəyə gəlmək olar ki, cədvəl şagirdlərin dərketmə qabiliyyəti və fənlərin «ağırlığı» nəzərə alınaraq tərtib edilmişdir, Məktəbdə təlim-tərbiyə [illegible] keyfiyyətinin yüksəldilməsi eyni zamanda müəllimin [illegible] hazırlığından, dərsdə qarşıya qoyduğu məqsəddən, seçdiyi üsuldan, sinfin ümumi səviyyəsindən də çox asılıdır. Demokratik fi-

kirli A.Şaiqi gənc müəllimlərin təlim üsulları qane etmirdi. «O hər şeydən əvvəl öz təcrübəsini həmkarları ilə bölüşür, fikir mübadiləsi aparır, onlara forma və metodların seçilməsində kömək göstərir, nümunə dərslərinə rəhbərlik edirdi» (18). A.Şaiq hesab edirdi ki, təlim-tərbiyənin səviyyəsi hər şeydən əvvəl müəllimin özündən, onun dərs demə bacarığından, usulundan çox asılıdır. «Müəllim dərsi elə qurmalıdır ki, şagird yeni dərsi sinifdə öyrənsin, evə müəyyən biliklə getsin» (18). Zümrə (metodbirləşmə qeyd– M.M.) toplantılarında A.Şaiq həmkarlarına müəllimin vəzifəsini açıqlayaraq göstərirdi ki, o hər şeydən əvvəl fənni yaxşı bilməli, əlavə verəcəyi materialları: şeirləri, mətnləri əvvəlcədən seçməlidir, bir sözlə, fəaliyyətini planlaşdırmalıdır. Şaiqin müasiri olmuş Cəmo Cəbrayılbəylinin təbirincə desək, «Bütün biliyini, üsulunu cavanlara verməyə çalışan A.Şaiq onlara təlimdə ən münasib üsullardan istifadə etməyi məsləhət görürdü. O deyirdi: «Metod gərək dərsin məzmunu, mövzusu ilə həmahəng olsun, onun səmərəsini artırmağa xidmət etsin» (18). A.Şaiq özü dərs prosesində bir neçə üsuldan istifadə edirdi. Mövzu ilə bağlı şagirdlərə az vaxtda çox məlumatlar verər, məkan və zaman etibarı ilə bir-birindən çox-çox uzaq olan hadisələr, yazıçılar, onların əsərləri haqqında danışar əsərin tərbiyəvi mahiyyətini düzgün müəyyənləşdirərək şagirdlərdə şüurlu intizam, dostluq, yoldaşlıq, məsuliyyət hissi aşılayırdı. Şagirdi olmuş Adil Əfəndiyevin xatirələrində oxuyuruq: «Onun dərsləri o qədər maraqlı keçərdi ki, vaxtın, zamanın bitdiyini hiss etməzdik. O mövzunu şərh edərkən şagirdlərə məlumat verir, eyni zamanda bizim bilikləri mənimsəmək prosesini idarə edir, mövzu ilə əlaqədar müxtəlif şəkillər nümayiş etdirirdi» (22, s.12). Öz dərslərini «canlı dərslər» adlandıran A.Şaiq müəllimlərə xalq yaradıcılığı nümunələrindən istifadə edərək məktəblərdə şıltaqlıq, ərköyünlük, acgözlük, hiyləgərlik, yaltaqlıq, lovğalıq kimi hallara qarşı nifrət hissi tərbiyə etməyi tövsiyə edirdi. A.Şaiq yazırdı: «Həm pedaqoji fəaliyyətimlə, həm də əsərlərimlə mən gənc nəsli yeni ruhda tərbiyələndirmək, ona mədəniyyətimizi, dil və ədəbiy-



yatımızı sevdirmək məqsədini qarşıma qoymuşdum» (70, 81). Təqdiredici haldır ki, məktəbin pedaqoji kollektivi bu təcrübəli pedaqoqun iş metodundan bəhrələnir, onu özlərinin müəllimi hesab edirdilər. İstər Şaiqin, istərsə də məktəbin məzunlarının xatirələrində göstərilir ki, məktəbin pedaqoji kollektivi bir fikrin, bir məqsədin ətrafında birləşən, bir-birinə kömək edən, işgüzar bir kollektiv idi. A.Şaiq pedaqoji kollektivdə hökm sürən bu sağlam mühitin əhəmiyyətindən bəhs edərək deyirdi: «Məhz bu cür kollektiv uşaqlara sağlam məfkurəli təlim-tərbiyə verə bilər» (70, s.96) Məktəbin şagirdi olmuş Məhəmmədəmin Salehli söyləyirdi ki, müəllimlər dərslərdə ümumi inkişafımıza, xüsusən də məntiqi təfəkkürümüzün inkişafına diqqət yetirirdilər. Məsələn, hesab dərsində müəllim: «Sən necə düşünürsən?», «Nə üçün belə oldu?» və s. suallarla biz şagirdləri mühakimə yürütməyə, mübahisə etməyə cəlb edirdi. Biz də həvəslə bunu edirdik, amma bütün bu prosesdə ədəb-ərkan, davranış qaydaları pozulmazdı. Təlimdə şagirdin axtarış aparmaq, yenini tapmaq, fikir yürütmək cəhdi vacib şərtlərdən biri idi. Bu əslində metodikanın praktikada öz təsdiqini tapmış əsas cəhətlərindən biridir. Hələ Ü.Hacıbəyli 1909-cu ildə yazırdı: «Didaktika tələb edir ki, müəllim bir qaydanı, məsələn, hesabdan, sərf-nəhvdən və hər nədən olursa-olsun, uşaqlara tədris edən zaman əvvəlcə qaydanı uşaqlara deməməlidir, ancaq dərsi elə bir yolla başa salmalıdır ki, şagirdlər özləri həmin qaydanı kəşf etsinlər. Çünki bu surətdən qaydanın əzbərlənməsi şagirdlər üçün asan olur. Zira, özləri kəşf etmişlər və saniyən bu kəşf yolunda şagirdlərin əqli, dərrakəsi, zehni tərbiyə tapıb getdikcə kəsbi-qüvvət edir» (2, s.59). A.Şaiq Ü.Hacıbəylinin əsrin əvvəllərində irəli sürdüyü və müasirlərinin haqsız tənqidinə məruz qaldığı bu fikirləri ilə tam razı idi və təlimdə bu metoddan ustalıqla istifadə edirdi. Onun şagirdi olmuş A.Əfəndiyev yazırdı ki, A.Şaiq Azərbaycan dili qrammatikasından mövzunu keçərkən qaydanı hazır şəkildə verməzdi. Əvvəl köhnə mövzular üzrə sorğu aparardı. Sualların qoyuluşu, düzgünlüyü, ardıcıllığı bizim istənilən qaydanı söy-

ləməyimizə gətirib çıxarardı. Bu o zamanlar məktəblərdə özünə yer etmiş evristik təlim metodunun mahiyyətindən irəli gəlirdi. İnkişafa doğru gedən proses kimi axtarışın həllinin qısaldılmış qaydasını tapmaq metodu kimi evristik təlim metodu klassik bir metod olaraq bu gün də orta məktəblərdə müəllimlər tərəfindən istifadə edilir. Məktəbdə təlim-tərbiyə işinin təşkilində sinifdənkənar tədbirlərin təşkili və keçirilməsinə diqqət yetirilirdi. Çünki 40 dəqiqəlik dərsdə müəllim qarşısına qoyduğu məqsədə tam nail ola bilmir. Şagirdin biliyini qiymətləndirmək, yeni bilik vermək, verilmiş biliyi möhkəmləndirmək, dünyagörüşünü inkişaf etdirmək, fənnə maraq oyatmaq, bütün bunlarla bərabər yeni insan tərbiyə etmək. Məhz bu vəzifələrin yerinə yetirilməsində təlimin əsas forması olan dərs geniş imkanlara malik olsa da, vaxt baxımından qarşıya qoyulan məqsədə nail olmaq mümkün deyildir. Problemin həlli üçün məktəbdə fənlər üzrə sinifdənkənar işin müxtəlif formalarından geniş istifadə edilirdi. «Nümunə məktəbi»ndə fizika, riyaziyyat, ədəbiyyat, dram dərnəkləri fəaliyyət göstərirdi. Məktəbin məzunu M.Ə.Salehli söyləyirdi ki, fizika və riyaziyyat dərnəklərində bu fənlərdən proqramı mənimsəyə bilməyən şagirdlər məşğul olurdular. Eyni zamanda həmin fənlərdən müxtəlif modellər, sxemlər hazırlayırdılar. Ədəbiyyat və dram dərnəyinə A.Şaiq rəhbərlik edirdi. Bu dərnəklərdə uşaqlar həvəslə məşğul olurdular. Onlarda fənnə maraq artır, kollektivçilik, təşəbbüskarlıq bacarığı formalaşırdı. Məktəbin şagirdləri faydalı əməklə də məşğul olurdular. Əl əməyi dərsində və dərsdənkənar vaxtlarda ağaclara qulluq edir, sinif otaqlarını təmizləyirdilər. Hələ 1917-ci ildə Qafqaz Tədris Dairəsi özünün 14 oktyabr 29895 №-li məktubu ilə orta və ali ibtidai təhsil müəssisələrinin rəislərinə yazmışdı: «Qafqaz Təlim Dairəsini İdarə edən sovetin 11 oktyabr 1917-ci ildə olan iclası şagirdlərin məktəbdə pedaqoji şuralara buraxılması haqqında məsələ müzakirə etmiş və qərara almışdır ki, ali, ibtidai məktəbin yuxarı siniflərindən seçki ilə üç nəfər şagird məşvərətçi səslə pedaqoji şurada iştirak etsin» (101). Bu qərar şagirdlərin



məktəbin idarəedilməsində ictimai-faydalı aktivliyini artırmaq istiqamətində məktəblərin qarşısında bir sıra vəzifələr qoyurdu. «Nümunə məktəbi»ndə yuxarı sinifdən üç nəfər şagird pedaqoji şuraya üzv seçilmişdi. Şagirdlərin pedaqoji şurada aşağıda göstərilən məsələlərin müzakirəsi zamanı məşvərətçi səslə iştirak etməsi müəyyənləşdirilmişdir:

- nizam-intizam məsələləri;
- şagirdlərin məktəbdən xaric edilməsi;
- şagirdlərin sinifdən-sinfə keçirilməsi;
- təhsil haqqının ödənilməsindən azad edilməsi;
- müəllimin dərs üsulunun müzakirəsi zamanı;
- şagirdin bilik və bacarığının qiymətləndirilməsi;
- imtahanın ləğv edilməsi;
- smetanın müzakirəsi;
- məktəbin mədaxil və məxariclərinin təsdiqi.

Pedaqoji şurada göstərilən məsələlərdən başqa məsələ müzakirə edilərkən, şagirdlər şuraya dəvət edilmirdilər. Pedaqoji şuralar üçün ənənəvi forma olmayan bu forma şagirdlərin məktəbin ictimai işlərində fəallığını, təşəbbüskarlığını artırmağa, müəllim-şagird əməkdaşlığının formalaşmasında mühüm rol oynayırdı. Məktəbdə şagirdlərə ictimai iş və dərsdənkənar başqa faydalı işlər müəyyən qayda ilə tapşırılardı. İctimai iş görən uşaq dərslərini yaxşı oxumalı, nümunəvi əxlaqa malik olmalı, tapşırılmış işə məsuliyyətlə yanaşmalı idi. Uşaqlar dərsdən sonra sinif otaqlarında təmizlik işlərinin aparılmasını təşkil edir, fizika və kimya laboratoriyalarının sahmana salınmasına nəzarət edirdilər. Məktəbdə müxtəlif fənlər üzrə keçirilən tədbirlərin hazırlanmasında şagirdlər öz təşkilatçılıq bacarıqlarını göstərirdilər. A. Şaiq göstərirdi ki, cocuqların idarəedici orqanının işləri elə qurulmalıdır ki, bu işlər başlıca olaraq təlimin keyfiyyətinin yüksəldilməsinə və məktəbdə onlara şüurlu intizamın aşılanmasına, vərdişlərin, bacarıqların möhkəmləndirilməsinə xidmət etsin. O, uşağın həddindən artıq ictimai işlə yüklənməsinin əleyhinə çıxırdı. Hesab edirdi ki, bütün uşaqlar ictimai vəzifələri yerinə

yetirməli, məsuliyyətli və bacarıqlı olduqlarını göstərməlidirlər. A.Şaiqin tərbiyəyə dair söylədiyi fikirlər istər onun pedaqoji fəaliyyətində, istərsə də bədii yaradıcılığında yaratdığı obrazlarda öz əksini tapır. Təlim prosesində köhnəliyin əleyhinə çıxan A. Talıbzadə tərbiyədə də bu prinsipə sadiq qalırdı. Onun üçün tərbiyə yeni nəslin elmli, dünyagörüşlü, əxlaqlı, mədəni davranışlı, xeyirxah, əməksevər, vətənə və xalqına sədaqətlə xidmət etmək kimi xüsusiyyətlərin aşılanmasına xidmət etməlidir. A.Şaiqin pedaqoji görüş və fəaliyyətində xalqlar dostluğunun təbliği mühüm yer tutur. Xalqlar dostluğunu əxlaq tərbiyəsinin tərkibi kimi qəbul edən A.Şaiq gənc nəsli bu humanist keyfiyyətlərə yiyələnməyə çağırırdı.

Məktəbdə təlim-tərbiyə işini yaxşılaşdırmaq üçün valideynlərlə məktəbin əlaqəsi və əməkdaşlığı kollektivin diqqət mərkəzində olmuşdur. Sinif rəhbərləri, tərbiyəçilər tez-tez nöqsanlı uşaqların ailələrinə baş çəkir, ailə tərbiyəsində buraxılan səhvləri yerindəcə həll etməyə çalışır, uşaqların evdə dərsə hazırlıq rejimi ilə maraqlanır, ev tapşırıqlarının yerinə yetirilməsində valideynlərin nəzarət edib-etməməsi ilə maraqlanır, valideynlər arasında öz hüquq və vəzifələrini bilmələri, onun yerinə yetirilməsi istiqamətində maarifləndirmə işi aparırdılar. Sistemli şəkildə aparılan bu işlər məktəb direktoru və müəllimlər tərəfindən əlaqələndirilir və geniş valideyn kontingentini öz ətrafına toplayırdı. Bütün bu çalışmalar nəticəsində şagirdlərdə əxlaqi davranış qaydalarına şüurlu münasibət formalaşmağa başlayırdı. Onlarda müəllimlərə, yoldaşlarına, qocalara hörmətli davranış, məktəb mülkiyyətinə qayğılı münasibət və s. müsbət keyfiyyətlər aşılanırdı. Maraqlı haldır ki, təlim-tərbiyə işində öz valideynlik borcunu yerinə yetirməyən valideynlər ictimai qınağa məruz qalırdılar. «Yəni onlar valideynlər toplantısında elə valideynlər tərəfindən məzəmmət edilirdilər» (100). Məktəb işinin planlaşdırılmasının və nəzarətin düzgün təşkili məktəbdə təlim–tərbiyə işində və onun idarə edilməsində vacib məsələlərdən biri olmuşdur. Sənədlərdən məlum olur ki, məktəbin iş planı pedaqoji şu-



rada müzakirə edilib təsdiq olunurmuş. Çox təəssüflər olsun ki, iş planları saxlanılmamışdır, buna görə də geniş təhlil və müqayisələr aparmaq imkanımız yoxdur. Ancaq əldə olan materiallar bizə aşağıdakı ümumiləşdirməni aparmaq imkanını verir:

- təlim-tərbiyə işinin yüksəldilməsi üçün ardıcıl olaraq tədbirlərin həyata keçirilmişdir;
- kimya, fizika fənlərindən laboratoriyaların lazımi avadanlıqlarla təchiz edilmişdir;
- müəllimlərin elmi, pedaqoji-metodiki biliklərini artırmaq üçün fənn metodbirləşmələri mühüm rol oynamışdı.
- valideynlərlə məktəbin əməkdaşlığı möhkəmləndirilmişdir.
- bütün fənlər üzrə dərnəklərin fəaliyyəti diqqət mərkəzində olmuşdur.

Pedaqoji şurada müzakirə edilərək kollegial surətdə qəbul edilən iş planının həyata keçirilməsi məktəb rəhbərliyi tərəfindən yaradılmış şərait daxilində təmin olunurdu. İşin planlaşdırılması kollektivdə rəhbərlik və müəllimlər arasında vəzifələrin düzgün bölünməsinin və nəzarətin həyata keçirilməsinin zəruri şərtidir. Müəllimlərin fəalliyətinə nəzarət təcrübəli müəllimlərə tapşırılmışdır. Abdulla Şaiq ibtidai və orta məktəbdə humanitar fənlərdən dərs deyən müəllimlərin işinə nəzarət edirdi. O, bu nəzarəti özünəməxsus tərzdə həyata keçirirdi. «O, müəllimlərdə çatışmayan cəhətləri müəyyənləşdirir, özü nümunə dərsləri verir, müntəzəm olaraq metodik yardım göstərirdi. Onun başçılıq etdiyi metodbirləşmə fənlərin tədrisində müəllimlərin ortaya çıxan problemlərini kollegial surətdə müzakirə edirdi. Metodbirləşmə iclaslarında təlim-tərbiyə işinin keyfiyyətinin yaxşılaşdırılmasına və metodikaya aid vacib məsələlər də müzakirə edilirdi. Bu müza-kirələrdə A.Şaiq öz təcrübəsini həmkarları ilə bölüşdürərdi» (25). «Nümunə məktəbi»ndə müəllim işləmiş Cəmo Cəbrayılbəylinin sözləri ilə desək, «maarif kadrlarımız üçün faydalı, nümunəvi olan cəhətləri» təlim-tərbiyə işində istifadə etməyi məsləhət görərdi. Demokratik fikirli bütün müəllimlər, yazıçılar,

maarif xadimləri yeni nəslin təlim-tərbiyəsinə böyük əhəmiyyət verirdilər. «Onlar həm müəllimlik edir, həm dərsliklər yazır, həm uşaqlar üçün bədii əsərlər yaradır, jurnal və qəzetlər buraxır, bir sözlə, tərbiyə işi ilə əlaqədar olan bir neçə sahəni öz fəaliyyətlərində birləşdirirdilər» (17, s.55). «Nümunə məktəbi»ndə təlim-tərbiyə işinin təşkili və onun idarə edilməsi ilə bağlı arxiv və qəzet materiallarının, xatirələrin araşdırılması nəticəsində aşağıdakı istiqamətdə ümumiləşdirmələr aparmaq olar:

- məktəb kollektivi yarandığı ilk vaxtdan problemlərin (uşaqların öz ana dilini bilməməsi, müəllimlərin elmi, pedaqoji-metodiki səviyyəsinin aşağı olması və s.) həlli üçün məqsədyönlü fəaliyyət göstərmişdi;

1918-20-ci illər arasında məktəbdə təlim-tərbiyə işinin təşkili, təlimin keyfiyyəti məsələləri Xalq Maarif Nazirliyinin diqqət mərkəzində olmuşdu;

- məktəbdə təlim-tərbiyə, idarəetmə işini tənzimləyən sənədlərin və yuxarıda sadalanan problemlərin həllində aparıcı rol Abdulla Şaiqə məxsus olmuşdur;
- fənlər üzrə sinifdənkənar işlərin aparılmasına, müəllimlərdə və şagirdlərdə təşəbbüskarlıq, təşkilatçılıq bacarığının formalaşdırılmasına böyük əhəmiyyət verilmişdi.
- idarəetmədə planlaşdırma və nəzarət əsas meyar olaraq götürülmüşdü;
- şagirdlərin pedaqoji şurada təmsil olunması, valideynlərin təlim-tərbiyə işinin təşkilinə cəlb edilməsi kollegial müzakirələrin aparılmasında və qərarların qəbul edilməsində mühüm amil olmuşdu.

## 2.4. «Nümunə məktəbi»nin Azərbaycan məktəb tarixində yeri

«Nümunə məktəbi»nin məktəb tariximizdəki rolunu müəyyənləşdirmək üçün Azərbaycan məktəbinin inkişaf yoluna qısa da olsa nəzər salsaq yaxşı olardı. Azərbaycan məktəb tarixi çox qədim və zəngin olmuşdur. Tədqiqatçılar hələ era-mızdan əvvəl



Azərbaycan ərazisində mövcud olmuş dövlətlərdə məktəblərin fəaliyyət göstərdiyini yazırlar. Məsələn, ərəblərin işğalından sonra ərəb dilli və təmayüllü müsəlman məktəbləri yaranmışdı. Mədrəsə tipli bu məktəblərin əsas məqsədi «dövlət aparatı üçün xidmətçilər, din xadimləri, mollalar, müsəlman ibtidai məktəbləri üçün müəllimlər hazırlamaq idi» (6, s.67). XI-XII əsrlərdə müsəlman şərqində elm, təhsil, mədəniyyət sürətlə inkişaf etməyə başladı. Bu dövrlərdə mədrəsə tipli məktəblərlə yanaşı ibtidai və dini təhsil verən təhsil ocaqları ilə bərabər digər təhsil formaları da mövcud idi. «Təhsil almanın bir növü də sərbəst təhsil idi. Yəni ata və yaxud bir qohum evdə öz övladına təhsil verə bilərdi. Daha sonra saray təhsili adlı xüsusi təhsil sistemi də fəaliyyət göstərirdi. Bu sistemdə saraya məxsus gənclər öncə saray mollalarından, sonra hərbi təhsil alardılar» (6, s.67).

Əsrlər dəyişdikcə təhsil sistemi də inkişaf etmiş, genişlənmişdi. Hətta ardı-arası kəsilməyən müharibələr belə təhsil şəbəkələrinin inkişafının qarşısını ala bilməmişdi. «Səyyah Q.Çələbinin yazdığına görə XVII əsrin ortalarında Təbrizdə 47, Şamaxıda 7 mədrəsə, 40 məktəb var idi» (14, s.49). Uşaqların qavrama səviyyəsindən asılı olaraq təhsil müddəti 6-8, bəzən də 15-20 il olan bu mədrəsə və məktəblərdə təlim ərəb və fars dillərində aparılırdı. Uşaqlara Qurandan əlavə hesab, tarix, Sədinin «Gülüstan» və «Bustan» əsərləri öyrədilirdi. Türk dili bir dil olaraq (Azərbaycan dilində – qeyd M.M.) ilk dəfə XIV əsrdə İ.Həsənoğlunun şeirləri ilə öz mövcudluğunu sənət aləmində "bəyan" etmişdi. «Ədəbiyyat tarixində mühüm əhəmiyyət kəsb edən bu hadisədən sonra bir çox şairlər öz əsərlərini ana dilində yazmağa başladılar» (12, s.86). Bu, xüsusən də XV-XVI əsrlərdə daha da inkişaf etdi. Məhz bu əsrlərdən başlayaraq məktəblərdə Azərbaycan dilində yazılmış əsərlərdən bir dərslik kimi istifadə olunmağa başlamışdı. Bu əsərlər sırasında Füzulinin «Leyli və Məcnun», hind dilindən Azərbaycan dilinə tərcümə edilmiş «Kəlilə və Dimnə» əsərləri xüsusi yer tuturdu. XIX əsrin əvvəllərində Azərbaycanın ictimai-siyasi həyatında ciddi dəyişikliklər

baş verdi. İranla Rusiya arasında gedən müharibələr nəticəsində Azərbaycan Şimal və Cənub olaraq iki hissəyə bölündü. Rusiyanın tərkibinə qatılmış Şimali Azərbaycanda həyatın bütün sahələrində olduğu kimi maarif və məktəb sahəsində də köklü dəyişikliklər baş verdi. 1829-cu ildə mərkəzi hökumət tərəfindən Zaqafqaziya məktəbləri Əsasnaməsi təsdiq edildi. «Demək olar ki, Azərbaycanda xalq maarifi sisteminin tarixi bu nizamnamə ilə başlayır. Belə ki, bu vaxta qədər Azərbaycanda nə maarif nizamnaməsi, nə xalq maarifinin ümumi sistemi, nə müəyyən büdcəsi və nə də müvafiq orqanı olmamışdı» (28, s.33).Bu Əsasnamə ilə dünyəvi təhsil verən ilk məktəblər Şuşa və Tiflis qəza məktəbləri yarandı. Daha sonrakı illərdə bu tipli məktəblər Gəncədə, Şəkidə, Bakıda, Salyanda, Naxçıvanda təşkil edildi. Lakin qəza məktəblərinin fəaliyyətindəki mövcud çatışmazlıqlar yeni nizamnamənin qəbul edilməsi zərurətini yaratdı. 1835-ci ildə ikinci nizamnamə qəbul edildi. Bu nizamnamədə fəaliyyətdə olan qəza məktəblərinin işini təkmilləşdirmək, proqram və dərsliklərdə olan qüsurları aradan qaldırmaq nəzərdə tutulmuşdur. XIX əsrin 40-cı illərində aparılan inzibati islahatlar qəza məktəblərinin məzmununda da dəyişikliklərin edilməsinin zəruri olduğunu göstərdi. Belə ki, ikinci nizamnamə də qəza məktəblərinin dövlətin tələbatını ödəyə biləcək səviyyədə fəaliyyət göstərmələri üçün şərait yarada bilmədi. Akademik Hüseyn Əhmədov özünün «X1X əsr Azərbaycan məktəbi» adlı tədqiqat əsərində göstərir: «Zaqafqaziyanın yeni canişini knyaz M.S.Vorontsov məktəb işini təkmilləşdirmək məqsədi ilə 1845-ci ildə Zaqafqaziya məktəblərinin yeni nizamnamə layihəsini tərtib etməyi lazım bildi. Zaqafqaziyada çar Rusiyası üçün sədaqətli məmurlar hazırlamağı bir məqsəd kimi ehtiva edən nizamnamədə tədris planında rus dilinin, eyni zamanda yerli dillərin öyrədilməsini gücləndirmək, xüsusi tədris dairəsinin yaradılması öz əksini tapmışdır» (28, s. 36). Bir-birinin ardınca qəbul edilən nizamnamələr nəticəsində qabaqcıl rus və Avropa məktəb təcrübəsi Azərbaycana da öz təsirini göstərmiş, təhsilin inkişaf etmə-



sində, maarifçi ziyalıların yetişməsində böyük rol oynamışdır. «XIX əsrdə Azərbaycan ziyalılarının bütöv bir dəstəsi yetişmişdir ki, onlar sonralar xalq maarifi, məktəb təhsili, pedaqoji fikrin yeni istiqamətdə inkişaf etməsində xüsusi xidmətlər göstərmişdir» (28, s.175). A.A.Bakıxanov, M.F.Axundov, M.Ş.Vazeh, Mirzə Kazım bəy kimi ziyalılar XIX əsr Azərbaycan elmi-pedaqoji fikrinin inkişafında əvəzsiz xidmətlər göstərmişlər. Rus məktəbləri nəinki Azərbaycanın rus kəndlərində, eyni zamanda digər kəndlərdə də öz şəbəkəsini genişləndirirdi. Bu məktəblərdə təlimin «lal üsulundan» istifadə edilirdi. Bir çox müasirləri kimi bu üsulun əleyhinə çıxan Şaiq yazırdı ki, bu üsulla aparılan dərslərdə ana dilində bir kəlmə də işlənmirdi. Əgər «it hürür və ya uşaq yatır» kəlmələri öyrədilirdisə müəllim gərək bunu öz hərəkətləri ilə göstərərdi. 19-cu əsrin sonlarında bir- birinin ardınca Sidqi (Ordubadda), M.İ.Qasir (Lənkəranda), S.Ə. Şirvani (Şamaxıda), Nəvvab (Şuşada), İ.H. Kazımov (İrəvanda) Anadilli məktəblər açmışdılar. Özünün quruluşu, proqram, dərslik, təlim metodları ilə bir-birindən fərqlənən bu məktəblər pedaqogika tarixində mühüm hadisə idi. Birincisi, ən azı ona görə ki, uşaqlara ilahiyyat dərsi verilməklə bərabər onlar öz doğma dillərində dünyəvi elmləri və digər dilləri də öyrənirdilər. İkincisi isə XX əsrin əvvəllərində Azərbaycan cəmiyyətinin keyfiyyətcə yeni mərhələyə keçməsi mənəvi aləmin güzgüsü olan xalq maarifinin güclü bir sahəyə çevrilməsi prosesini sürətləndirdi. Cəmiyyət və məktəb münasibətlərinin yeni məzmun alması ictimai-siyasi həyatın bütün sahələrində olduğu kimi təhsildə də yeni bir canlanma əmələ gətirdi. Sənayenin sürətlə inkişaf etdiyi Bakı canlanmanın mərkəzinə çevrilirdi. Bu müxtəlif şəhərlərdə fəaliyyət göstərən demokratik fikirli maarifçilərin Bakıya toplaşmasına təkan verdi. «Əvvəllər tək-tək ulduz kimi orda-burda parlayan maarifpərvər Azərbaycan ziyalıları birləşərək kəhkəşana çevrildilər, cəmiyyətlər təşkil etməyə, qəzet və jurnallar buraxmağa, məktəblər açmağa və digər tədbirlər həyata keçirməyə başladılar» (6, s.9). Bir-birinin ardınca «Nəşri maarif», «Nicat»,

«Səadət» kimi maarifləndirmə cəmiyyətləri yarandı, təlimin ana dilində aparılması, yeni proqram və dərsliklərin hazırlanması istiqamətində məqsədyönlü iş aparılmağa başlandı. Əsrin N.Nərimanov, M.Mahmudbəyov, Ü.Hacıbəyli, F.Ağazadə, S.M.Qənizadə, S.S.Axundov və başqa ziyalıları kimi A.Şaiqi də maa-rif, məktəb və böyüməkdə olan gənc nəslin problemləri düşündürürdü. «Maraqlı cəhət burasıdır ki, Azərbaycan maarifpərvərlərinin əksəriyyəti ümumiyyətlə varlı və yoxsulluğundan asılı olmayaraq hamının yüksək şəxsiyyət kimi yetişməsini istəyirdilər» (6, s.11). Yaradıcılığının birinci mərhələsində beynəlmiləlçi bir pedaqoq, ədib kimi tanıdığımız A.Şaiqin 1918-26-ci illər arasındakı pedaqoji fəaliyyətinin məzmunu və istiqaməti başqa bir xarakter aldı. O, forma, məzmun, və keyfiyyət baxımından daha məhsuldar olan bu illərin 23 ayını Azərbaycan Demokratik Cümhuriyyəti dövründə fəaliyyət göstərmişdir. Azərbaycan Demokratik Cümhuriyyətinin yaranması ölkənin ictimai-siyasi, mədəni həyatını kökündən dəyişdirdi. İstiqlaliyyətini qazanmış gənc Azərbaycan dövləti özünün siyasətinə və iqtisadiyyatına müvafiq nəsil tərbiyə etməli idi. ADR-in demokratik, humanist, milli məzmun kəsb edən maarif siyasəti bir çox ziyalılar kimi A.Şaiqin həyata keçirə bilmədiyi ideyalarının gerçəkləşməsi üçün geniş imkanlar yaratdı. Əsrin əvvəllərindən bəri məsləkdaşları ilə bərabər uğrunda mübarizə apardığı anadilli məktəbin 1918-ci ildə fəaliyyətə başlaması dövrün və eləcə də Şaiqin həyatında mühüm hadisə idi. XX əsrdə Azərbaycan tarixində ilk anadilli məktəb olan «Nümunə məktəbi» bir çox problemlərlə üzləşdi. Bu problemləri aşağıdakı kimi qruplaşdırmaq olar:

-uşaqların məktəblərə cəlb edilməsi;

- proqram və dərsliklərin yetərincə olmaması;

-uşaqların ana dilini bilməməsi;

-müəllim kadrların elmi-pedaqoji və metodiki səviyyəsinin aşağı olması idi;

-isə maddi-texniki bazanın çatışmaması idi.

Arxiv sənədləri göstərir ki, sadalanan və digər problemlərin həlli



Maarif Nazirliyinin daim diqqət mərkəzində olmuşdur. Səkkiz ilə yaxın fəaliyyət göstərmiş «Nümunə məktəbi»nin fəaliyyəti haqqında faktiki materialların öyrənilməsi və təhlili göstərdi ki, məktəb özündən əvvəl mövcud olmuş məktəblərdən köklü surətdə fərqlənirdi. Bu fərqlər təlimin ana dilində aparılması haqqında olan fəaliyyət konsepsiyasında öz əksini taparaq aşağıdakı başlıca müddəaları özündə ehtiva edirdi:

- təhsilin məzmununun millilik, tarixilik, varislik, müasirlik prinsiplərinə əsaslanması, təhsilin milli zəmin əsasında qurulması, milli dəyərlərin ümumbəşəri dəyərlər sistemində təbliğ edilməsini;
- müəllim yaradıcılığına, təlimdə mütərəqqi metod və üsullara geniş imkan verilməsini;
- demokratik və humanist prinsiplərin ümumtədris işində, idarəçilikdə tətbiq edilməsini;
- şagirdlərin və valideynlərin təlim-tərbiyə işinin təşkilində iştirak etməsini.

Mövcudluğunun iki ilə yaxın bir hissəsini Azərbaycan Demokratik Cümhuriyyəti dövründə, qalan altı ilə yaxın hissəsini isə sovet zamanında fəaliyyət göstərmiş «Nümunə məktəbi» pedaqoji intibahın görkəmli nümayəndəsi A.Şaiq və onun həmkarlarının milli məktəb yaradılması ideyası uğrunda apardıqları mübarizənin təzahürü idi. Cəmiyyətin sosial sifarişini düzgün qiymətləndirən Şaiq yazırdı: «Milli vicdan milli məktəblərdə doğar. Məktəb və müəllimləri olmayan bir millət müəyyən bir sima və məfkurəsi olmayan bir cocuğa bənzər ki, öz xeyr və şərini düşünə, dost və düşmənini fərq edə bilməz. Cocuqlara özünü tanıdan, milli hisslərini, ruhlarını yüksəldən, onların dağ çeşmələri qədər saf və təmiz ürəklərində böyük bir məfkurə döğuran, gələcəkdə sevgili vətəni üçün ən dəyərli övlad yetişdirən və sarsılmaz bir qüvvət hazırlayan məktəblərdir» (72, s.128). Fikrimizcə, böyük pedaqoqun bu günümüzlə həmahəng səslənən bu fikirləri orta məktəbin inkişaf konsepsiyasının əsas müddəalarına çevrilməli, praktik fəaliyyətdə hər bir müəllim, rəhbər işçi üçün proqram ol-

malıdır. Azərbaycan məktəb tarixində yeni bir mərhələnin əsasını qoyan «Nümunə məktəbi» az zaman ərzində fəaliyyət göstərməsinə baxmayaraq milli maarifin inkişafına təsir etdi. İllərdən bəri mövcud olan köhnə üsulla işləyən rus-Azərbaycan məktəbləri yenidən quruldu, yalnız şəhərlərdə deyil, hətta kənd rayonlarında da (Şəkidə, Salyanda) anadilli, yeni üsulla işləyən məktəblər yaradıldı. Ana dilində plan, proqram, dərslik və dərs vəsaitlərinin yaradılması üçün baza yaradıldı. Təlim-tərbiyə işinin təşkilində demokratik və humanist dəyərlərin öyrədilməsi, ailə və məktəbin əlbir işi istiqamətində müəyyən baza formalaşdı. Ən vacibi isə elmi-pedaqoji, metodiki biliklərə malik müəllimlər yetişdirdi. Məktəbdə təhsil alanların əksəriyyəti sonralar sovet elminin inkişafında əvəzsiz xidmətlər göstərmişlər. A.Şaiq pedaqoji intibahın görkəmli bir nümayəndəsi kimi bu məktəbdə yuxarıda sadalanan məsələləri öz fəaliyyətində birləşdirərək Azərbaycan Xalq Maarifi tarixində işıqlı səhifələr yazdı. «...O bizim vətənimizin məşhurlarından biri, ideyalı şair, böyük bir nəslin müəllimi, maarifimizin fədakar xadimlərindən, yaradıcılarından biri olmuşdur» (48, s.8). Müasir mərhələdə məktəblərdə böyüyən vətəndaşın hər birinin şəxsiyyət kimi formalaşmasında ailə və məktəbin əlbir işini, şərəfli müəllim fəaliyyətini özündə əks etdirən tarixi təcrübə var. Hesab edirik ki, bugünkü məktəb quruculu-ğunda milli məktəblərin inkişaf perspektivlərini müəyyənləşdirərkən aşağıda sadalanan amillərin nəzərə alınması faydalı ola bilər:

- mövcud tədris proqramlarının və dərsliklərin məzmununun nəzərdən keçirilib materialların sadələşdirilməsi;
- təlimdə şagirdləri «dar çərçivədə» sıxmamaq, onlara proqram çərçivəsində müxtəlif məsələləri həll etmək, kitablardan və dövri ədəbiyyatdan yeni biliklər öyrətmək, malik olduqları bacarıq və vərdişləri həyata tətbiq etmək yol və üsullarının aşılanması, məktəbdə təlim-tərbiyə işinin təşkilində nəzəriyyə ilə praktikanın vəhdətinə nail olunması.
- ana dilini mükəmməl bilmədən ibtidai siniflərdə xarici dilin öyrənilməsinə yol verilməməsi;



- əsas siniflərdə pullu təhsilə keçirilməsi. (Bu halda təhsil sistemində on ildən az olmayaraq işləyən işçilərin övladları və əlaçı şagirdlərin təhsil haqqı ödəməkdən azad olunması).
- hər bir müəllimin təlim metodlarını daha da təkmilləşdirməsi, onun fəal formalarına yiyələnməyə çalışması;
- hər bir dərsin (proqram, dərslik, təlim üsulları) sadəcə uşaqları biliklərlə yükləməsinə deyil, onların müşahidə, nəticə çıxarmaq, dərsliklə işləmək qabiliyyətlərini inkişaf etdirmək funksiyasını yerinə yetirməsinə nail olunması;
- hər bir müəllimin tələbkar və humanizm prinsipləri çərçivəsində fəaliyyət göstərməsi; («Nümunə məktəbi»ndə müəllimdə olan bu xüsusiyyətlərə ciddi fikir verilirdi).
- məktəbə ziyalı, bacarıqlı, maarifə sədaqətli mütərəqqi fikirli adamların rəhbərlik etməsi;
- şagirdlərin mənəvi ehtiyacını ödəyən, onlarda vətəndaş əxlaqı formalaşdıran tədbirlərin mütəmadi olaraq həyata keçirilməsi;
- məktəb işinin planlaşdırılması, fəaliyyətin strukturunun müəyyənləşdirilməsi işində məktəb pedaqoji kollektivinin,valideyin və şagirdlərinin fəal iştirakının təmin edilməsi.
- məktəbdə təhsil alan şagirdlərə ictimai iş və sinifdənkənar işlərin tapşırılması işində müəyyən məhdudiyyətlərin aradan götürülməsi; (fiziki cəhətdən sağlam olmayan, tənbəl, sosial durumu aşağı olan və s.)
- sinifdənxaric tədbirlərə ümumtədris və tərbiyə işinin tərkib hissəsi kimi önəm verilməsi;
- şagirdlərin pedaqoji şura üzvü olması haqqında Əsasnamənin hazırlanması;
- təlim - tərbiyə işinin təşkilində valideyn-məktəb, müəllim – şagird əməkdaşlığının müasir tələblər baxımından təşkil edilməsi;
- məktəbin illik büdçəsinin pedaqoji şurada müzakirəsi və təsdiqinin təmin edilməsi;
- məktəbin mədaxil və məxaric xərclərində şəffaflığın təmin edilməsi;

# NƏTİCƏ

Hər bir gökəmli şəxsiyyətin həyat və fəaliyyətinin səmərəli göstəricisi onun kamillik zirvəsinə çatmış yaradıcılığıdır. Bu baxımdan A.Şaiqin 36 illik pedaqoji fəaliyyəti və Azərbaycan məktəb tarixində böyük əhəmiyyət kəsb edən «Şaiq Nümunə məktəbi», ədəbi-pedaqoji tariximizin, mənəviyyatımızın məcmusu olan proqramlar, dərsliklər tədqiqatımızın əsas hədəfi olmuşdur. Apardığımız araşdırmalar bir daha təsdiq edir ki, A.Şaiq hansı sistemdə, dövlət quruluşunda yaşamasından asılı olmayaraq milli təhsilimizin inkişafını pedaqoji fəaliyyətinin əsas qayəsi hesab etmişdi. «Rus-müsəlman» məktəblərində ana dilinin tədrisi işi çox zaman şəriət dərsi deyən mollalara tapşırıldığı bir dövrdə - əsrimizin lap başlanğıcında pedaqoji fəaliyyətə qədəm qoymuş Şaiq müasirləri kimi xalqının nicat yolunu, onun bir millət kimi formalaşmasını anadilli məktəblərdə görürdü. Bu amal və düşüncə ilə yaşayan və fəaliyyət göstərən A.Şaiqin pedaqogika tariximizdə ilk anadilli milli məktəb yaratması heç də təsadüfi deyildir. Hesab etmək olar ki, məktəbin yaranmasını, onun məzmununu, mahiyyətini özündə birləşdirən ən əsas şərtlərdən biri də məhz A.Şaiqin şəxsiyyəti olmuşdur.Tədqiqatımız nəticəsində daha dərindən tanış olduğumuz Şaiq tərcümeyi-halı, tərbiyəsi, təhsili, elmi-bədii, pedaqoji fəaliyyəti, dünyagörüşü, saflığı, səmimiyyəti bizə məhz milli məktəbin belə keyfiyyətlərə malik şəxsiyyətin yaratmağa qadir olması qənaətinə gəlmək üçün əsas verir.Məhz bu keyfiyyətlər A. Şaiqə müasirləri arasında tezliklə böyük hörmət qazandırmış, onu müxtəlif cəbhələrdən olan yazıçılarımızın, bir neçə nəsil ziyalılarımızın yaxın dostuna, müəlliminə və xeyirxah məsləhətçisinə çevirmişdi. Tədqiqat materialları bizə aşağıdakı ümumiləşməni aparmaq imkanı verir:

1. Azərbaycan xalqı əsrlər boyu uzun və çətin inkişaf yolu keçmiş, hətta tarixin siyasi olayları belə bu inkişafın qarşısını ala bilməmiş və bu çətinliklər şəraitində zəngin pedaqoji irs formalaşdırmışdır.



2. çar Rusiyasını lərzəyə salan 1905-1907-ci il inqilabı köhnə tipli, şəriət məktəblərinə qarşı, yeni dərsliklərə və yeni təlim üsullarına malik məktəblər şəbəkəsinin yaradılması uğrunda qabaqcıl maarifçiləri mübarizəyə qaldırmışdı.

3. fevral inqilabı nəticəsində yaranmış ictimai-siyasi şərait Azərbaycanın mütərəqqi fikirli ziyalılarına anadilli məktəblərinin yaradılması üçün geniş imkanlar yaratmışdı.

4. milli məktəblərin, yeni dərslik, proqram və planların yaradılmasında dövrün ziyalılarının siyasi baxışlarında, bir-birlərinə münasibətlərində, problemlərə yanaşmalarında müxtəliflik olmasına baxmayaraq, bu məsələlərin həllində birgə hərəkət etmişlər.

5. pedaqogika və məktəb tarixinin Azərbaycan Demokratik Respublikası dövrü, sovet hakimiyyəti illərində tarixi faktlar saxtalaşdırılaraq tədqiq edilmişdir.

6.Araşdırmalar ilk dəfə olaraq A. Şaiqin pedaqoji fəaliyyətinin Mərhələlərlə təsnifatinin verilməsi imkanı yaratmışdır.

Tərəfimizdən aparılan tədqiqat ADR qurulduğu gündən maarifin inkişafı istiqamətində aşağıdakı mühüm işlərin görüldüyünü müəyyənləşdirmişdir:

- milli məktəblər açılmış, ibtidai məktəblər şəbəkəsi genişləndirilmiş, məktəblərin maddi bazası möhkəmləndirilmişdir;
- 1918-ci il dekabrın 13-də müəllimlər qurultayı çağırılmışdır. Qurultayda təlim-tərbiyəişinin keyfiyyətində mövcud nöqsanlardan xilas olmaq, maarif və məktəbin inkişafı, istifadə olunacaq dərslik, dərs vəsaiti, uşaq ədəbiyyatı müəyyənləşdirilmiş, təhsil sisteminin quruluşu, idarə olunması haqqında müzakirələr aparılmış, müvafiq qərarlar qəbul edilmişdir;
- müəllim kadrları hazırlamaq üçün kurslar və universitet təşkil edilmişdir;
- dövrün qabaqcıl ziyalılarından ibarət yeni dərslik, proqram və dərs planlarının hazırlanması məqsədi ilə komissiyalar təşkil edilmişdir.
- müəllimlərin maddi vəziyyəti və məişəti yaxşılaşdırılmışdır.

- İlk milli məktəb - «Şaiq Nümunə məktəbi» fəaliyyətə başlamışdır.

7. böyük maarifçi Abdulla Talıbzadənin pedaqoji fəaliyyətinin tədqiqatçılar tərəfindən tam öyrənilməməsi (xüsusən də 1918-26-ci illər arası) səbəbləri müəyyənləşdirilmişdir.

8. ADR dövründə yaranmış ilk milli məktəbin fəaliyyət istiqamətləri aşağıdakı kimi ümumiləşdirilmişdir:

- məktəbdə tədris edilən fənlərin məzmununun milli irsin öyrənilməsi tələbləri baxımından hazırlanaraq elmlərin müasir inkişafı səviyyəsinə uyğunlaşdırılmışdı.
- təlim-tərbiyənin məzmununun, prinsip, metod və üsullarının şagirdlərdə ictimai fəallıq tərbiyəsinə, yeni düşüncə tərzinin formalaşdırılmasına yönəldilmişdi.
- təlimin məzmun və metodlarında inkişafetdirici funksiyalara üstünlük verilmişdi.
- məktəb – valideyn, müəllim – şagird əməkdaşlığı demokratik və humanistləşmə prinsiplər əsasında qurulmuşdu.

-təlim və tərbiyə işinin gücləndirilməsində sinifdənxaric tədbirlər təşkil edilmişdir.

- müəllimlərin elmi-pedaqoji, metodiki səviyyəsinin yüksəldilməsi üçün sistemli məktəbdaxili metodiki işi aparılmışdı.

9. Məktəbin idarə edilməsində, pedaqoji kollektivin formalaşmasında, təlim metodlarından istifadədə yeniliklərə üstünlük verilmişdi.Tədqiqatın nəticələri aşağıdakı təklifləri irəli sürmək imkanı verir:

1. XX əsr Azərbaycan pedaqoji fikir tarixinin elmi faktlar əsasında obyektiv öyrənmək və Yeni Pedaqoji Antologiya hazırlamaq.

2. Pedaqoji İnstitutlarda, kadrların təkmilləşdirilməsi kurslarında məktəb və maarifimizin tarixini dərindən öyrənmək məqsədi ilə pedaqogika tarixi kursu proqramına Şaiq «Nümunə məktəbi»-nin yaranması və fəaliyyəti ilə bağlı mühazirə, seminar məşğələləri daxil etmək.

3. dərsliklərdə insan, təbiət, cəmiyyət haqqında bilikləri bloklarla vermək, orta məktəblərdə dini bir elm, əxlaqi-mənəvi dəyərlər çərçivəsində tədris etmək

4. kiçikyaşlı uşaqlarda estetik tərbiyəni, fiziki sağlamlığı formalaşdırmaq üçün rəsm, nəğmə, idman dərslərinin tədrisinə ayrılmış dərs saatlarını artırmaq.

5. məktəbdə təlim-tərbiyə işində problemin praktik həllini təmin etmək məqsədi ilə aşağıdakı istiqamətləri elmi-pedaqoji əsas kimi götürmək:

- Ailə və məktəbin birgə fəaliyyətini;
- Müəllim-şagird əməkdaşlığını;
- Müəllim özünütəhsili.
- İdarəetmədə innovativ üsulların tətbiqi

6. Pedaqogika tariximizin 1918-1936-ci illəri əhatə edən dövrü ilə əlaqədar konfranslar vermək, pedaqoji oxular təşkil etmək

Beləliklə, göründüyü kimi, XIX əsrin sonlarında və XX əsrin əvvəllərində millətin mədəni, mənəvi, elmi səviyyəcə yüksəlişi uğrunda bütün çətinliklərə baxmayaraq böyük maarifçilər ordusu mübarizə aparmışdır. Bu maarifçilərdən biri olmuş Abdulla Şaiq XX yüzillikdə ilk milli məktəb yaradaraq xalqı qarşısında öz vətəndaşlıq borcunu yerinə yetirmişdir.

# İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

1. Abdullayev A. S. Orta məktəbdə Azərbaycan dili tədrisinin metodikası. Bakı: «Maarif» 1968, 263 s.

2. Abdullayev A. S. Azərbaycan dilinin tədrisi tarixindən. Bakı: Maarif, 1966, 331 s.

3. Ağayev Ə.Ə. Azərbaycan ictimai-pedaqoji fikrində şəxsiyyətin formalaşması problemi: Pedaqoji elm. dok.... dis. Bakı, 1996, 358 s.

4. Ağayev Ə. Ə.Azərbaycan maarifpərvərləri şəxsiyyət haqqında. Bakı: Maarif, 1978, 56 s.

5. Ağayev Ə.Ə. F.Ağazadənin pedaqoji görüşləri. Bakı: Maarif, 1987, 22 s.

6. Ağayev Ə. Ə. Pedaqoji fikrimiz; dünənimiz, bu günümüz. Bakı: Elm, 2000, 298 s.

7. Ağamirov M. M. Abdulla Şaiqin dünyagörüşü. Bakı: Maarif, 1983, 124 s.

8. Alməmmədov A. M. Şaiq və rus ədəbiyyatı ənənələri Azərbaycan məktəbi, 1973, №9 səh.21-25

9. Alməmmədov A. M. Ürəklərin birliyi. Bakı: Azərnəşr 1975, 110 s.

10. Arif M. M. Sənətkar qocalmaz. Bakı: Yazıçı, 1980, 68 s.

11. Arif M. M. Şaiq müəllim // Azərbaycan, 1971, №2, səh. 43

12. Azərbaycan ədəbiyyatı tarixi. II cild. Bakı: Azərbaycan EA nəşri, 1960, 906 s.

13. Azərbaycan ədəbiyyatı tarixi. III cild. Bakı: Azərbaycan EA nəşri, 1957, 510 s.

14. Azərbaycan tarixi. III cild. Bakı: Elm, 1973, 535 s.

15. Azərbaycan yazıçılarının həyatından dəqiqələr. Bakı: Yazıçı, 1970, 304 s.



16. Bayatılar / toplayan və tərtib edən: A. Şaiq və Ş.Əfəndiyeva. Bakı, 1926, 97 s.

17. Cəbrayılbəyli C. A. Xatirələrim. Bakı: Yazıçı, 1966, 131 s.

18. Cəbrayılbəyli C. A. Görkəmli maarif xadimi. «Kommunist» qəzeti. Bakı, 1956, 20 mart.

19. Cəfərzadə Ə. M. Sübhün şəfəqlərinə qədər Azərbaycan, 1968, №4, səh 13-18

20. Eminalıyev E. M. Xatirələrim əsəri kamil memuar kimi: fil. elm. nam.... dis. Bakı, 2002, 168 s.

21. Eminli T.B. Əli Nəzminin pedaqoji görüşləri: ped. elm. nam.... dis. Bakı, 1999, 125 s.

22. Əfəndiyev A. Ə. Unudulmaz müəllim // Ulduz, 1971, №2, s. 12

23. Əfəndiyeva Ş.M., Liylman M. Abdulla Şaiq Talıbzadə. Bakı: Azərnəşr 1956, 103 s.

24. Əhmədov C.A. Xalq müəllimi. «Azərbaycan müəllimi» qəz., Bakı, 1981, 29 may.

25. Əhmədov C.A. Şaiq məktəbi « Azərbaycan gəncləri» qəz., Bakı, 1981, 24 dekabr.

26. Əhmədov C.A.Yazıçı-tərbiyəçi « Ədəbiyyat və incəsənət» qəz., Bakı, 1956, 8 may.

27. Əhmədov C.A. Azərbaycan ədəbiyyatı tədrisi tarixindən. Bakı: Elm, 1971, 204 s.

28. Əhmədov H. M. XIX əsr Azərbaycan məktəbi. Bakı: Maarif, 1999, 350 s.

29. Əliyev K.N. XX əsr Azərbaycan romantiklərinin ədəbi-nəzəri görüşləri. Bakı: Elm, 1985, 118 s.

30. Əlimirzəyev X.O. Təhsil, Elm və Səhiyyə. Bakı: Azərnəşr, 1970, 106 s.

31. Əlimirzəyev X.O. Bədii həqiqət uğrunda. Bakı: Yazıçı, 1984, 244 s.

32. Əzizov Ə.Q. Uşaqların sevimliləri. XX əsr Azərbaycan uşaq ədəbiyyatı ta-rixindən. Bakı: Gənclik, 1978, 125 s.

33. Hacılı H.J. İstiqlalın əzablı yolu. Bakı: Gənclik, 1992, 25 s.
34. Xəlilov S. S.1917-20-ci illərdə Azərbaycanda xalq maarifi: ped. elm. nam.... dis. 1945, 175 s.
35. Xəlilova T. A.Şaiqin həyat və yaradıcılığı. Bakı: Yazıçı, 1980, 160 s.
36. Xəlilova T.A. Müəllim– yazıçı. «Azərbaycan müəllimi» qəz., Bakı, 1973, 26 sentyabr.
37. Xəlilova T.A. Abdulla Şaiqin tərcümə yaradıcılığı. Bakı: Yazıçı, 1982, 180 s.
38. Xəlilova T. A. Abdulla Şaiq və rus ədəbiyyatı: ped. elm. nam. ... dis. 1976, 180 s.
39. Xudiyev N.M. Şaiqin Azərbaycan dili dərslikləri // Azərbaycan dili və ədə-biyyatın tədrisi, 1974, №3, səh.24-25
40. İbadoğlu Ə.Ə. A.Şaiqin humanizmi haqqında bəzi qeydlər // EA Xəbərlər, 1974, №2, səh.46
41. İbrahimov M.Ə. A. Şaiq realizminin bəzi xüsusiyyətləri. «Ədəbiyyat və incəsənət» qəz., Bakı, 1973, 21 oktyabr.
42. İbrahimov M.Ə. Qocaman yazıçı və ictimai xadim // EA Xəbərlər, 1966, səh.24
43. İbrahimov M.Ə. Seçilmiş əsərlərinə müqəddimə. Bakı: Azərnəşr, 1956, 320 s.
44. İsmayılov Y.Q. Xalq müəllimi, görkəmli maarif xadimi // Azərbaycan məkstəbi, 1971, №4, səh.33
45. İsmayılov Y.Q. Abdulla Şaiq. Bakı: Yazıçı, 1962, 80 s.
46. Komenski Y.A. Didaktik prinsiplər. Bakı: Azərnəşr, 1941, 132 s.
47. Köçərli F.A. Azərbaycan ədəbiyyatı II cild. Bakı: Azərnəşr,1981,165 s.
48. Qarayev Y.V. Şaiq məktəbi // Ul¬duz, 1971, №2, səh. 35
49. Qarabağlı Ə.B. A.Şaiqin metodik görüşləri // Azərbaycan məktəbi, 1977, №4, səh. 55



50. Qəhrəmanova A. F. Azərbaycan Demokratik Respublikasında xalq maarifi: ped. elm. nam. ... dis. 1993, 163 s.
51. Məmmədov Ə.S. Abdulla Şaiq. Bakı: Gənclik, 1983, 212 s.
52. Məmmədov Ə. S. Məhəmməd Hadi və Abdulla Şaiq // EA Xəbərlər, 1980, №4, səh. 15
53. Məmməd C.Z. Azərbaycan ədəbiyyatında romantizm. Bakı: EA nəşri, 1963, 216 s.
54. Məmmədov K.D. Nəcib müəllim, humanist sənətkar. «Bakı» qəz., 1971, 5 may
55. Məmmədov X. C. İlk rus-müsəlman məktəbləri və onun tarixi rolu // Azərbaycan məktəbi, 1964, №5, səh.75-77
56. Məmmədəliyev Y. H. Unudulmaz insan, hörmətli müəllim. «Ədəbiyyat və incəsənət» qəz., 1959, 1 avqust
57. Mehdi H. Müəllim və yazıçı. «Ədəbiyyat və incəsənət» qəz., 1960, 19 noyabr
58. Mehdizadə M.M. Azərbaycanda Sovet məktəbinin tarixinə dair xülasələr. Bakı: Azərnəşr, 1959, 328 s.
59. Mehdizadə M.M. İnqilabdan əvvəlki Azərbaycanda rus məktəblərinin rolu haqqında // Azərbaycan məktəbi, 1951, №3, səh.3-11
60. Mehdizadə M.M. Azərbaycanda ümumi təhsilə keçirilməsi tarixinə dair // Azərbaycan məktəbi, 1954, №11, səh.12
61. Mirəhmədov Ə.M. Abdulla Şaiq. Bakı: Maarif, 1956, 144 s.
62. Mustafayeva D.R. Şaiqin pedaqoji fəaliyyəti və ədəbiyyatımızda tərbiyəyə dair fikirləri: ped.elm.nam....dis. Bakı, 1949, 144 s.
63. Mustafayeva D.R. Görkəmli maarifçi-pedaqoq H.Mahmudbəyov // Azər-baycan məktəbi, 1961, №6, səh.33-35
64. Seyidov Ə. Y. Azərbaycanda pedaqoji fikrin inkişaf tarixindən. Bakı: Azərnəşr, 1958, 302 s.

65. Seyidzadə M.A. Abdulla Şaiq, unudulmaz xatirələr. Bakı: Azərnəşr, 1975, 32 s.
66. Süleyman R.Ə. Abdulla Şaiq. «Azərbaycan müəllimi» qəz., 1956, 25 iyul.
67. Süleyman R. Görkəmli ədəbiyyat və mədəniyyət xadimi // Azərbaycan, 1961, №2, səh.15-18
68. Rüstəmov F.A. Azərbaycanda pedaqoji elm: təşəkkülü, inkişafı və problemləri. Bakı: Bakı Universitetinin nəşri, 1998, 484 s.
68a. Rüstəmov F.A. Milli maarifimizin qaranquşları (1991-ci il) // Azərbaycan məktəbi, №2-3, s. 56
69. Şaiq A.M. Xatirələrim. Bakı: Uşaqgəncnəşr, 1961, 224 s.
70. Şaiq A.M. Əsərləri. I cild. Bakı: Azərnəşr, 1966, 280 s.
71. Şaiq A.M. Əsərləri. II cild. Bakı: Azərnəşr, 1968, 310 s.
72. Şaiq A.M. Əsərləri. III cild. Bakı: Azərnəşr, 1972, 325 s.
73. Şaiq A.M. Əsərləri. IV cild. Bakı: Azərnəşr, 1978.320 s
74.Şaiq A.M. Əsərləri. V cild. Bakı: Yazıçı, 1978, 502 s.
75. Şaiq A.M. Şeirlər və hekayələr. Bakı: Uşaqgəncnəşr, 1959, 350 s.
76. Şaiq A.M. Mənim həyatım // Azərbaycan məktəbi 1945, №1, səh.29-32
77. Şaiqanə yad et. Bakı: Gənclik, 1981, 231 s.
78. Şahbazi T.S. Ata məhəbbəti « Ədəbiyyat və incəsənət» qəz., 1959, 25 iyul
79. Talıbzadə K. A. Ədəbi irs və varislər. Bakı: Azərnəşr, 1974, 318 s.
80. Talıbzadə K.A. Sənətkarın şəxsiyyəti. Bakı: Yazıçı, 1978, 279 s.
81. Talıbzadə K.A. Qəddarlığın poetik inkarı. «Ədəbiyyat və incəsənət» qəz.,1988, 29 iyul



82. Talıbzadə K. A.Şaiq «Nümunə məktəbi» necə yarandı? «Xalq qəzeti», 2001, 3 aprel
83. Tağıyev Ə.S. Azərbaycan məktəb tarixi. Bakı: Maarif, 1993, 235 s.
84. Uşinski K.D. Məktəbdə təlim-tərbiyə işləri haqqında. Bakı: Azərnəşr, 1981, 94 s.
85. Yaqublu N.Q. Müsavat partiyasının tarixi. Bakı: Ay-Ulduz, 1997, 328 s.
86. Yüzbaşov R.M. Şaiqin uşaq əsərlərinin tərbiyəvi mahiyyəti //Azərbaycan məktəbi, 1948, №4, səh.37-42
87. Zamanov A. F. Abdulla Şaiq. Bakı: Azərnəşr, 1956, 145 s.
88. Zamanov A.F. Şair, yazıçı, dramaturq və müəllim. «Azərbaycan müəllimi» qəz., 1956, 2 iyun

Arxiv materialları

89. Azərbaycan SSRİ Dövlət arxivi. Fond Popeçitelə Kavkazskoqo uçebnoqo okruqa, №311, sax. v. 1026, siy. 1
90. Azərbaycan SSRİ Dövlət Ədəbiyyat və İncəsənət arxivi. Abdulla Şaiqin Fondu, həyatı və fəaliyyətinə dair materiallar (sənədlər, məktublar, əmrlər və s.). 345, 78.
91. Azərbaycan SSRİ Xalq Maarifi muzeyi. A.Şaiqin fəaliyyətinə dair sənədlər. Qovluq 1
92. Azərbaycan Respublikası DƏİA: f.51, iş 46.
93. Azərbaycan Respublikası DƏİA:f. 56, iş 52.
94. Azərbaycan Respublikası DƏİA:f. 57, siy.5,iş 46,v.58
95. Azərbaycan Respublikası DƏİA:f. 57, siy.1 v.263
96. Azərbaycan Respublikası DƏİA:f. 57,siy.1, v. 266
97. Azərbaycan Respublikası DƏİA:f. 57,siy.1,v. 288
98. Azərbaycan Respublikası DƏİA:f. 57,siy.1,v. 300
99. Azərbaycan Respublikası DƏİA:f. 57,siy.1,v 337
100. Azərbaycan Respublikası DƏİA:f.57,siy.186, v. 395
101. Azərbaycan Respublikası DƏİA:f.57,siy.1, v. 399
102. Azərbaycan Respublikası DƏİA:f.57,siy.1,v.423
103. Azərbaycan Respublikası DƏİA:f.126.siy.3,iş186,v.2

104. Azərbaycan Respublikası DƏİA:f.126,siy.3,v.26
105. Azərbaycan Respublikası DƏİA:f.126,siy.3,v.44
106. Azərbaycan Respublikası DƏİA:f.126,siy.3,v.45
107. Azərbaycan Respublikası DƏİA:f.126.siy.3,v.59
108. Azərbaycan Respublikası DƏİA:f.126,siy.3,v.76
109. Azərbaycan Respublikası DƏİA:f.126,siy.3,v.78
110. Azərbaycan Respublikası DƏİA:f.315,siy.1182,v.57
111. Azərbaycan Respublikası DƏİA:f.315,siy.1217,v.571
112. Azərbaycan Respublikası DƏİA:f.315,qov.909
113. Azərbaycan Respublikası DƏİA:f.315,qov.1000.
114. Azərbaycan Respublikası DƏİA:f.315,qov.1165.
115. Azərbaycan Respublikası DƏİA:f.315,qov.1176.
116. Azərbaycan Respublikası DƏİA:f.315,qov.1182.
117. Azərbaycan Respublikası DƏİA:f.315,qov.1197.
118. Azərbaycan Respublikası DƏİA:f.315,qov.1202.
119. Azərbaycan Respublikası DƏİA:f.315,qov.1209.
120. Azərbaycan Respublikası DƏİA:f.315,qov.1217.
121. Azərbaycan Respublikası DƏİA:f.315,qov.1298.
122. Azərbaycan Respublikası DƏİA:f.378, siy.1,qov. 23
123. Azərbaycan Respublikası DƏİA:f.389,qov.124.
124. Azərbaycan Respublikası DƏİA:f.389,siy.11, iş1935.
125. Azərbaycan Respublikası DƏİA:f.391,qov.191.
126. Azərbaycan Respublikası DƏİA:f.411,siy.1,v.571
127. A.Şaiqin tələbəsi və müasiri ilə şəxsi söhbətlər.

**Rus dilində**

128. «Kaspi», 1917, № 9,82, 84, 85, 115, 136, 138.
129. Латинская азбука и языка мусульманского Востока. Газ. «Коммунист», 1920, 9 июнь, №31
130. Старейший писатель и учитель //Литературный Азербайджан, 1956, №2, с. 46.
131. Подбор и воспитание кадров на уровень новых задач. Газ. «Правда», 1946, 23 август, № 450.



# MÜNDƏRİCAT

Redaktordan ...................................................................3
Müəllifdən ....................................................................5
Giriş ..........................................................................7

## I FƏSİL

Abdulla Şaiq Talıbzadənin pedaqoji fəaliyyəti və ideyaları ....10
1.1. A.Ş.Talıbzadənin həyatı və pedaqoji fəaliyyəti ..............10
1.2. Abdulla Şaiq Talıbzadənin pedaqoji ideyaları: nəzəriyyə və təcrübə məsələləri ..............................................60

## II FƏSİL

«Nümunə məktəbi»nin təşkili və onun fəaliyyətinin pedaqoji-metodiki əsasları ..........................................82
2.1. «Nümunə məktəbi»nin yaranması və fəaliyyəti haqqında ..........................................................................82
2.2. «Nümunə məktəbi»ndə təlimin məzmununun qoyulması ......................................................................104
2.3. «Nümunə məktəbi»ndə təlim-tərbiyə işinin təşkili və onun idarə edilməsi məsələləri ......................................114
2.4. «Nümunə məktəbi»nin azərbaycan məktəb tarixində yeri ...........................................................124
Nəticə ........................................................................132
İstifadə edilmiş ədəbiyyat ............................................136

**Naşir: Əlövsət Talışxanlı**

Kitab hazır depozitivlərdən istifadə edilərək
"HEROQLİF" mətbəəsində çap edilmişdir.

Çapa imzalanmışdır: 14.07.2017
Kitabın formatı: 60x84 1/16.
Həcm: 9 ç.v.
Tiraj: 150

Ünvan: Mətbuat prospekti, 529-cu məh.
Mob: 077 622 42 82

Azf-298714



**Dr. Məlahət Cəfər Mürşüdlü**

Tovuzun Aşağıquşçu kəndində doğulub boya-başa çatıb. Hal-hazırda Bakı şəhərində yaşayır. 1974-cü ildə Azərbaycan Pedaqoji Universitetinin filologiya fakultəsini bitirib. Uzun müddət təhsil sistemində rəhbər vəzifələrdə işləyib. 1995-ci ildən Bakı Türk Anadolu Lisesində öyrətmən olaraq çalışıb. 2010-cu ildə "Abdulla Şaiq Talıbzadənin Pedaqoji fəaliyyəti və onun "Nümunə məktəbi"nin təlimin yeni məzmunda qurulmasında rolu" mövzusunda dissertasiya müdafiə edərək pedaqoji elmlər üzrə fəlsəfə doktoru adını alıb. 30-dan artıq elmi-pedaqoji, metodik və 50-dən artıq publisist yazıların müəllifidir. Onun redaktorluğu ilə 8 pedaqoji-metodik vəsait hazırlanıb nəşr edilib. Fəal ictimaiyyətçi kimi dəfələrlə təhsil, gender, Qarabağ məsələləri ilə bağlı Beynəlxalq konfranslarda iştirak edib. 2000-ci ildə Türk Eyitim Sen təşkilatının "Eyitimə Hizmet" və 2007-ci ildə isə Beynəlxalq "Türk bir dev" ödüllərinə layiq görülüb.